Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Nazir 19 Vətən müharibəsi iştirakçısını polisə qəbul etdi



**Mayın 22-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, sıra baxışında nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 19 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V. Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

## *Naxçıvanda Dövlət Xidməti ləğv edildi*

### Baş idarə yaradıldı




**Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti ləğv edilib.**

Adalet.az xəbər verir ki, bu, Prezident İlham Əliyevin bu gün imzaladığı fərmanla "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də əksini tapıb.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" sərəncamına əsasən isə Naxçıvan regional miqrasiya baş idarəsi yaradılıb.

## *Türkiyə MN-dən sərt xəbərdarlıq*

**Türkiyə milli müdafiə naziri Hulusi Akar ölkənin sərhədində çəkildiyi iddia edilən qanunsuz köçlə bağlı yayılan videoya münasibət bildirib.**

Adalet.az xəbər verir ki, Akar bəzi şəxslərin bu kimi videoları paylaşmaqla cəmiyyət arasında ajiotaj yaratdığını deyib.

"Bir dəfə də olsun əlindəki videonun harada çəkilməsi ilə maraqlan. Türkiyə sərhədi olduğunu zənn edib, bu barədə fikirlər söyləyirsiniz. İnanın altından qalxa bilmərsiniz! Həmin görüntülər Əfqanıstan-İran, Əfqanıstan-Pakistan sərhədində çəkilib. İndi buna nə deyəcəksiniz? Vətən, millət deyərək çətin ərazi və hava şəraitində xidmət edən "mehmetçik"ə nə cavab verəcəksiniz?"

## ABŞ Bakı və İrəvana öz təkliflərini təqdim edib



**"Rəsmi Vaşinqton İrəvan və Bakıya ən mübahisəli məsələlərin həlli ilə bağlı təkliflərini təqdim edib".**

Bu açıqlama ilə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin birinci müavini Derek Hoqan çıxış edib. Derek Hoqan bildirib ki, Ceyhun Bayramovla Ararat Mirzoyan arasında ABŞ-də keçirilən görüşdə iki tərəf arasında qarşılıqlı, intensiv diplomatik fəaliyyət baş tutub. Xatırladaq ki, mayın 1-də Vaşinqtonda ABŞ dövlət katibi Antoni Blinkenin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılıb.

## Erməni quldur dəstələri Xocalıdakı poliqona məktəbli avtobusunda daşınırlar

**Qarabağ iqtisadi rayonunda erməni quldur dəstələrinin növbəti qanunsuz əməllərinin üstü açılıb.**

Adalet.az xəbər verir ki, bununla bağlı görüntüləri Caliber.Az əldə edib. Kadrlarda Xocalı rayonundakı poliqonda, Rusiya sülhməramlı kontingentinin gözü qarşısında qanunsuz erməni silahlı dəstələrinin üzvləri tərəfindən hərbi hazırlıq və digər döyüş təlimlərinin həyata keçirdikləri əks olunub. "Xüsusilə qeyd edək ki, təlimə cəlb edilən qanunsuz silahlı dəstənin üzvləri poliqona bütün beynəlxalq konvensiyalara zidd olaraq məktəbli avtobusunda (School bus) gətirilirlər", - xəbərdə qeyd olunur.

## *Çavuşoğlu:* "Bakıya tez-tez gələrək "bizə qaz verin" deməyə başladılar"



**"Bu dəqiqə Avropanın Azərbaycan qazına ehtiyacı var. Keçmişdə Azərbaycanın yerini bilməyənlər bu gün Bakıya tez-tez gələrək "bizə qaz verin" deməyə başladılar".**

Adalet.az xəbər verir ki, bu fikirləri report-a müsahibəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

Onun sözlərinə görə, keçmişdə Azərbaycanın üzünə baxmayanlar bu gün "Azərbaycan çox yaxşı ölkə, İlham Əliyev də yaxşı liderdir" deməyə başlayıblar: "Amma bu, mənfəət dünyasıdır. Bizim üçün önəmli olan Türkiyə və Azərbaycan xalqının rifahı üçün nə addımlar ata bilərik deyə düşüncəsində olmaqdır. Ona görə TANAP boru xəttinin həcmini artırmaq lazımdır. Bu gün tək özümüz üçün deyil, Avropa da başda olmaqla dünyanın ehtiyacını qarşılamaq üçün işbirliyi edirik".

## *Peskov:* «Ərdoğan və Putin sözünün adamıdır»



**"Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putinin ciddi siyasətçilərdir. Onlar öz sözlərində sadiqdirlər".**

Adalet.az xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dimitri Peskov TASS-a müsahibəsində bildirib.

Hər iki liderin öz xalqının mənafeyi üçün çalışdığını qeyd edən Peskov, "Putin və Ərdoğan böyük siyasi təcrübəyə malik çox ciddi siyasi fiqurlardır. Onlar sözünün adamıdırlar. Ən əsası, onlar qarşılıqlı faydalı ikitərəfli münasibətlərin konkret məsələləri ilə məşğul olurlar", - deyib.

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 20 (6013) 26 may 2023-cü il | Qiyməti 40 qəpik

# PREZİDENT MOSKVAYA GEDİB



## Qurban Qurbanov dünyaya səs salan hərəkətinə görə mükafatlandırıldı



**"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov Beynəlxalq Ədalətli Oyunlar Komitəsi ("International Fair Play Committee" - CIFP) Şurası tərəfindən yüksək mükafata - 2022-ci ildə idman dünyasında və ədalətli oyunun təşviqi sahəsində nümunəvi nailiyyətlərinin tanınmasına görə "Jean Borotra - Karyera" kateqoriyasında Dünya Feyr-pley Diplomuna layiq görülüb.**

Bu mükafat ona 2022-ci ilin 24 fevralında UEFA Konfrans Liqasının 1/16 final mərhələsində "Marsel"lə matçda dünyaya səs salan ədalətli jestinə görə verilib.

Ötən ilin yekunlarına görə, "Jean Borotra World Fair Play Career" mükafatına dünyadan cəmi dörd nəfər layiq görülüb - azərbaycanlı Qurban Qurbanov, amerikalı Katrin Svitzer, italiyalı Marko Kalamay və macar Antal Dunay.

Qeyd edək ki, Qurbanova bu mükafat Azərbaycan idman Jurnalistləri Assosiasiyasının təqdimatı əsasında verilib.

Xatırladaq ki, "Marsel"lə sözügedən oyunda "Qarabağ"ın futbolçusu İbrahima Vadji fərqlənsə də, Qurban Qurbanov müdaxilə edərək qolun əllə vurulduğunu bildirib. Bundan sonra hakimlər qolu ləğv ediblər.

## Mikayıl Cabbarov: "Azərbaycan öz iqtisadiyyatını şaxələndirməyi hədəfləyir"




**"Azərbaycan öz iqtisadiyyatını və ixracatını şaxələndirməyi hədəfləyir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib.

"Azərbaycan iqtisadiyyatını və ixracatını şaxələndirməyi hədəfləyirik. Son 4 ildə qeyri-neft-qaz ixracımızı 2 dəfə artırmışıq", - deyə nazir qeyd edib.

O əlavə edib ki, sənaye, nəqliyyat və yaşıl enerjiyə keçid sahələri Azərbaycan üçün prioritet istiqamətlərdir. "Biz ənənəvi neft və təbii qaz ixracatçılarıyıq, indi də bərpa olunan enerji mənbələrinin ixracatçısına çevrilmək üçün çalışırıq", - deyə M.Cabbarov qeyd edib.

Nazir Azərbaycanın strateji coğrafi mövqeyə malik olduğunu qeyd edib və bunun ölkəyə Mərkəzi Asiya, Gürcüstan və Türkiyə bazarlarına çıxış imkanı verdiyini vurğulayıb.

**Bundan başqa, onun sözlərinə görə, Azərbaycan və Litva arasında "Sərmayələrin qorunması" və "Vergiqoymanın aradan qaldırılması" sazişlər kimi bir sıra hüquqi bazalar mövcuddur./report**

## Prokuror yeniyetmə idmançını qətlə yetirən şəxsə 20 il cəza istədi



**Bakı Ağır Cinayətlər Mərkəzində Şağan Olimpiya İdman kompleksində yeniyetmə cüdoçu Turan Rüstəmovu qətlə yetirməkdə ittiham olunan Ruslan Səfixanovun cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb.**

Adalet.az xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə keçirilən iclasda prokuror çıxış edib.

Dövlət ittihamçısı Ruslan Səfixanovun xuliqanlıq niyyəti ilə qəsdən adam öldürməkdə təqsirli bilinərək 20 il azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, hadisə ötən ilin noyabr ayında Xəzər rayonu, Şağan qəsəbəsi ərazisində yerləşən idman arenasında baş verib.

İdman arenasında Yevlax rayon sakini, 2006-cı il təvəllüdlü Turan Rüstəmovun ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Sumqayıt şəhər sakini 2002-ci il təvəllüdlü Ruslan Səfixanovun şəxsi münasibətlər zəminində aralarında yaranan mübahisə zamanı T. Rüstəmova bıçaqla xəsarət yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Ruslan Səfixanov şübhəli şəxs qismində saxlanılaraq istintaqa təhvil verilib.

## Bayden Finlandiyaya tarixi səfər edəcək



**ABŞ Prezidenti Co Bayden iyulun əvvəlində Şimal ölkələri-ABŞ sammitində iştirak üçün Finlandiyaya səfər edəcək.**

Səfər barədə Finlandiyanın "İltalehti" nəşri xarici siyasət və təhlükəsizlik sahəsindəki mənbələrə istinadən məlumat yayıb.

Bu səfərin tarixi səfər olacağı bildirilir. Belə ki, bu, ABŞ liderinin Moskva və Vaşinqton münasibətləri ilə əlaqəli olmayan Finlandiya ərazisinə ilk səfəridir.

Qeyd olunur ki, sammitdə, həmçinin Finlandiya, İsveç, Danimarka, Norveç və İslandiya liderləri də iştirak edəcəklər.

## Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyır



**Ermənistan Azərbaycan ərazisini 86,6 min kv.km olaraq tanıyır, bura Qarabağ da daxildir.**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan mətbuat konfransında deyib.

O həmçinin, Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliyi məsələsinin Bakı ilə Xankəndi arasında müzakirə olunmalı olduğunu qeyd edib:

"Əgər biz Azərbaycanla bir-birimizi düzgün başa düşürüksə, o zaman Ermənistan qeyd olunan sərhədlər çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü, Bakı isə Ermənistanın 29 800 kvadrat kilometr ərazisini tanıyır".

*Seyfəddin Altaylı*

## DOSTLARIMLA SÖHBƏT

Bax:səh-4

## *DYP-dən moped və motosiklet idarə edən sürücülərə xəbərdarlıq*



**Bakı Şəhər Dövlət Yol Polisi (DYP) moped və motosiklet idarə edən sürücülərə xəbərdarlıq edib.**

İdarənin rəsmisi polis mayoru Araz Əsgərli Adalet.az-a bildirib ki, yaz mövsümü ilə əlaqədar havanın isti keçməsi bəzi moped və motosiklet idarə edən şəxslərin təhlükəsizlik qaydalarına məsuliyyətsiz yanaşmaqla xüsusən də motodəbilqədən müxtəlif bəhanələrlə istifadə etmədən idarəetmə halları çoxalıb:

"Əvvəla onu qeyd etməliyik ki, motodəbilqədən istifadə etməmək inzibati məsuliyyət formalaşdırmaqla yanaşı yol nəqliyyat hadisəsi zamanı təhlükəsizliyin təmin olunması riskini artırır. Bu da ən ağır yol nəqliyyat hadisələrində geri dönüşü olmayan faciələrə yol açır. Bütün moped və motosiklet idarə edən sürücülərə, eləcə də onların sərnişinlərinə nəzərdə tutulan qaydalara ciddi riayət etməyi, özlərinin və sərnişinlərinin həyat və sağlamlığını biganə qalmamağı xahiş edirik".

"Motodəbilqədən istifadə etməyən sürücüləri İnzibati Xətalar Məcəlləsinin 329.2-ci və 338.4.4-cü maddələrinə əsasən, 40 manat, sərnişinləri isə 338.3-cü maddəyə əsasən, 30 manat məbləğində cərimə olunmaqla məsuliyyətə cəlb edilməsi qanunla nəzərdə tutulur. Gündəlik həyat tərzimizdə hərəkət iştirakçısı kimi təhlükəsizlik mədəniyyətinin ən yüksək səviyyədə təbliğatının məhz məsuliyyətli davranış sərgiləməklə ətrafdakı insanlara nümunə olduğunu unutmamağı bir daha hər bir şəxsdən xahiş edirik!", - DYP sərmisi vurğulayıb.

## *Putin:* «Rusiya müharibəni sona çatdırmağa çalışır»



**"Rusiya müharibəni sona çatdırmağa çalışır".**

Adalet.az TASS-a istinadən xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin deyib. "Müharibəni başladan Rusiya olmayıb", - o, bildirib. V.Putinin sözlərinə görə, rus xalqının milli düşüncəsi indi daha da güclənib.

Qeyd edək ki, Rusiya ilə Ukrayna arasında genişmiqyaslı müharibə ötən il fevralın 24-də başlayıb.

## Yeni dəhşətli pandemiyanın anonsu verildi



**Tayvan növbəti pandemiyanın episentri ola bilər. Bu fikri İsveçrə Mətbuat Klubunun Cenevrədə təşkil etdiyi mətbuat konfransı zamanı adanın səhiyyə naziri Syue Tszuy-yuan deyib.**

"Qorxuram ki, Tayvan növbəti pandemiyanın episentri olacaq. Bunun bütün dünya üçün dəhşətli nəticələri gözlənilir", - deyə qurumun rəhbəri bildirib.

Onun belə bir proqnoz verməsinin səbəbləri açıqlanmır.

Xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatı mayın 5-də COVID-19 pandemiyasının statusunu, mayın 11-də isə dünyada meymunçiçəyi ilə bağlı fövqəladə vəziyyət rejimini ləğv edib.

## Şuşada çox sayda tunellər aşkarlandı




**"Şuşa şəhərində çox sayda tunellər aşkarlanıb".**

Adalet.az xəbər verir ki, bunu açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru, professor Abbas Seyidov deyib.

O bildirib ki, arxeoloqlar həmin ərazilərə təcili şəkildə ezam olunublar:

"Mütəxəssislərimiz onların mahiyyətini, dövrünü araşdırıblar. Biz bütün digər məsələlərlə bağlı məlumatı yəqin ki, 1-2 aydan sonra ictimaiyyətlə bölüşəcəyik".

## GÜNÜN LƏTİFƏSİ



Kürəkən qayınanasına sms yazır:

**- Sizin istehsal etdiyiniz məhsul (qızını nəzərdə tutur) zaydır, heç bir işə yaramır. Nə yemək bişirə bilir, nə də paltar ütüləyir.**

Qayınana cavab yazır:

**- Məhsul neçə il bundan əvvəl satıldığına görə istehsalçı məsuliyyət daşımır.**

# Prezident sərəncamlar imzaladı



**Dövlət Miqrasiya Xidmətinin işçilərinin say həddi artırılıb.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.

Dövlət Miqrasiya Xidmətinin işçilərinin say həddi 655 ştat vahidindən 757 ştat vahidinə qaldırılıb.

***

**Prezident İlham Əliyev Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif ediliblər:

**Allahverdiyev Rəşad Zabid oğlu**
**Allahverdova Sevda Rafiq qızı**
**Balayev Mehyəddin Mövlud oğlu**
**Cəlilov Elnur Xəliş oğlu**
**Darafarin Sadiq Rəhim oğlu**
**Əliyev Elburus Fətulla oğlu**
**Xuruci Mirzə Mürşüd oğlu**
**İbrahimov Rəhim Əlihüseyn oğlu**
**İsayeva Nəzakət Sədir qızı**
**Kərimli Kənan Cabar oğlu**
**Qənbərova Eyzangül Fətullah qızı**
**Seyidova Aytən Kamal qızı**
**Tağıyev Məmməd Abuzər oğlu**
**Yusifov Namiq Polad oğlu.**

Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında uzunmüddətli səmərəli xidmətinə görə Şahbəddin Cabbar oğlu Musayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

***

**Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Hüseyn qızı Axundova 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

# İlham Əliyev İordaniya Kralını təbrik edib

**Prezident İlham Əliyev İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

"Əlahəzrət,

İordaniya Haşimilər Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm".

# İlham Əliyevə təbrik məktubları gəlir

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin. Ölkəniz sosial və iqtisadi sahələrdə böyük uğurlar əldə edib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində fəal rol oynayır. Rusiya-Azərbaycan münasibətləri müttəfiqlik qarşılıqlı fəaliyyəti səviyyəsinə yüksəlib, müxtəlif istiqamətlərdə konstruktiv ikitərəfli əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Əminəm ki, biz birgə səylərlə dost xalqlarımızın rifahı naminə tərəfdaşlıq əlaqələrinin bütöv kompleksinin gələcək inkişafını təmin edəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzu edirəm".

***

**Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə məktub ünvanlayıb.**

Məktubda deyilir:

"Milli bayram - Müstəqillik Günü münasibətilə Sizi və bütün azərbaycanlıları Belarus xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Siz bu bayramı dahi və müdrik siyasətçi, müasir Azərbaycanın banisi və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin geniş qeyd edildiyi bir vaxtda qarşılayırsınız. Ölkənizin dinamik inkişaf edən iqtisadiyyatı, regionda açar rolu, beynəlxalq aləmdə artan nüfuzu Sizin atanızın əsasını qoyduğu və tərəfinizdən uğurla davam etdirilən, güclü, suveren dövlətin qurulmasına yönəlmiş yaradıcı kursun düzgünlüyünün danılmaz sübutudur. Qəti əminəm ki, Minsk və Bakının qarşılıqlı maraqlara və ənənəvi etibarlı dostluq münasibətlərinə əsaslanan strateji tərəfdaşlığı bundan sonra da möhkəmlənərək yeni forma və istiqamətlər üzrə zənginləşəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram".

***

**Rumıniyanın Prezidenti Klaus Verner İohannis Prezident İlham Əliyevə məktub ünvanlayıb.**

Məktubda deyilir:

"Ölkənizin milli bayramı - Müstəqillik Gününün qeyd olunması mənə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi, rifah və əmin-amanlıq arzularımı çatdırmaq imkanı verir.

Dövlətlərimiz arasındakı sıx və möhkəm münasibətlər strateji maraqlara söykənir. Bu baxımdan ölkəniz Cənubi Qafqaz regionunda Rumıniya üçün etibarlı tərəfdaşdır. Bu yaxınlarda Bakıya səfərim dövlətlərimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün konkret addımlarla bağlı razılığa gəlmək baxımından çox gözəl fürsət oldu. Səmimi qarşılanmaya və Zati-alinizlə ətraflı müzakirələrə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, biz həm strateji tərəfdaşlıq çərçivəsində mövcud imkanlardan yararlanmaqla, həm də enerji və nəqliyyat kimi sahələrdə regional layihələri inkişaf etdirməklə inkişaf üçün mövcud potensialı istiqamətləndirə və gücləndirə biləcəyik.

Eyni zamanda, Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun davamlı inkişafına dəstəyini davam etdirəcəkdir".

# "Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq"

**Prezident İlham Əliyev Litva Respublikasına rəsmi səfəri çərçivəsində Vilnüs şəhərində keçirilmiş Azərbaycan-Litva biznes forumunda iştirak edib. Prezident forumda çıxış edərək bildirib ki, "Bir il ərzində ölkə rəhbərlərinin ikinci dəfə biznes forumda çıxış etməsi faktı ölkələrimizin biznes subyektləri və sahibkarları arasında təmaslara verilən əhəmiyyətin göstəricisidir".**

Ölkə rəhbərimiz bildirib ki, "Birgə iqtisadi komissiyanın oynadığı rol biznes dairələrinin səylərini əlaqələndirməkdən, potensial əməkdaşlıq üçün mühüm imkanları dəyərləndirməkdən və tərəfdaşlıq üçün çərçivənin yaradılmasından ibarətdir.İki ölkə arasında əməkdaşlıq potensialı kifayət qədər böyükdür. Bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik. Hər iki ölkədə - Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialı var".

"Azərbaycanda enerji təhlükəsizliyi mövcuddur. Lakin, Azərbaycan ixrac məqsədləri üçün daha çox təbii qaza qənaət etmək və elektrik enerjisinin istehsalı üçün təbiətin günəş və külək enerjilərindən istifadə etmək niyyətindədir"- deyən Prezident İ.Əliyev bildirib ki, "Ötən ilin iyulunda Avropa Komissiyası və Azərbaycan Enerji sahəsində



Strateji Tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunu imzaladılar. Onun əsasında 2027-ci ilə qədər Avropaya təbii qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə Avropaya təbii qaz təchizatımız 8 milyard kubmetr olmuşdur, bu il isə 12 milyard kubmetr olacaq və 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılacaq.Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün nefti, təbii qazı və elektrik enerjisini ixrac edir. Ölkəmiz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac etməyi planlaşdırır".

Logistika, şəbəkələr və daşımalarda böyük əməkdaşlıq potensialı olduğunu vurğulayan Prezident bildirib ki, "Daşımalar sektorunu yalnız tranzit gəlirləri potensialı ilə məhdudlaşmır. Burada, o cümlədən kiçik və orta müəssisələr üçün marşrut boyunca istehsal qurmaq, biznes təmasları yaratmaq, xidmət göstərmək fürsətidir.Avropanın enerji xəritəsi əsasən, Azərbaycanın təşəbbüsləri sayəsində kəskin şəkildə dəyişib.Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq. Neft və qaz boru kəmərləri tamamilə yeni vəziyyət yaradır.Bakının dəniz limanı infrastrukturuna böyük yatırımlar edilir. Xəzərdə daha çox yük daşıya biləcək əlavə gəmilərin tikintisinə investisiyalar qoyulur. Çox böyük daşımalar imkanları, xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcək".

Ölkə rəhbərimiz çıxışı zamanı xüsusi olaraq vurğulayıb ki,Azərbaycan iqtisadiyyatı sabitdir: "Ölkəmizdə ünbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Əsas hədəf şaxələndirmədir. Ölkəmiz iqtisadiyyatı şaxələndirəcək və enerji sektorundan asılılığı azaldacaq.

İqtisadi sabitlik uğurlu əməkdaşlığın təminatıdır. Azərbaycanın xarici borcu çox aşağıdır, ümumi daxili məhsulun 10 faizindən azdır. Milli valyutamız sabitdir. Dövlət Neft Fondumuzda topladığımız valyuta ehtiyatlarımız və Mərkəzi Bankın ehtiyatları xarici borcu on dəfədən çox üstələyir".

**Nicat Novruzoğlu**

# "Əməkdaşlığın genişləndirilməsi üçün önəmli addımlar atılacaqdır"

**Azərbaycan Prezidenti İlham Əliyev Litva Respublikasında iki günlük rəsmi səfərdə olub. Mayın 22-də - rəsmi səfərin ikinci günü Prezident İlham Əliyev və Litva Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər.**

Azərbaycan və Litva arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edən Prezident İlham Əliyev bildirib ki, "Aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır. Siyasi müstəvidə əldə edilmiş razılaşmalar bütün digər sahələrə də öz müsbət təsirini göstərir".

Ölkə rəhbərimiz qeyd edib ki, "Əməkdaşlığın genişləndirilməsi üçün önəmli addımlar atılacaqdır. Gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək. Biznes qurumlarının birgə fəaliyyəti ticarət dövriyyəsinin artırılmasına gətirib çıxaracaq. Hər iki tərəfdən çox böyük maraq var və keçən ilin may ayında Prezident Nausedanın Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda Litva-Azərbaycan biznes forumu keçirilmişdir".

İlham Əliyev bildirib ki, "Litva ilə ikitərəfli əməkdaşlıq eyni zamanda, Avropa İttifaqı-Azərbaycan çərçivəsində də önəmli rol oynayır. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. İxrac edilən qazın həcmi ildən-ilə artır".

Perspektivli əməkdaşlıq istiqamətləri barədə bəyanat verən Azərbaycan Prezidenti bildirib ki, "Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı olan işlər paralel şəkildə aparılır. Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir".

"Qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür"-deyən prezident qeyd edib ki, "Müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir. Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmi ildən-ilə artır.

Müasir infrastrukturumuz buna imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. Birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olacağıq".



Bəyanatında işğalın acı fəsadlarına da toxunan İ.Əliyev bildirib ki, "Azərbaycan torpaqları uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək. Sülh anlaşmasının imzalanması qaçılmazdır. Azərbaycan öz tərəfindən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərir. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir".

Qeyd edək ki, Vilnüsdə prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş" və "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı" sənədləri imzalanıb.

**Nicat Novruzoğlu**

# XİN Ararat Mirzoyana cavab verdi

**22 may 2023-cü il tarixində Böyük Britaniyanın Avropa regionu üzrə dövlət naziri Leo Dokerti ilə mətbuat konfransı zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən növbəti dəfə səsləndirilmiş qərəzli fikirləri qətiyyətlə pisləyirik.**

Adalet.az xəbər verir ki, bu barədə XİN-dən məlumat verilib.

"Azərbaycanın "Laçın" sərhəd buraxılış məntəqəsi təsis etməsinin guya yolu bağladığı, bölgədə humanitar problemlər meydana gətirdiyi, Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyətində çətinliklər yaratdığı, bunun "etnik təmizləmə siyasətinin" tərkib hissəsi olduğu barədə əsassız iddiaları Ermənistan rəsmilərinin dəfələrlə təkrarlaması bu ölkənin reallıqları saxtalaşdırmaq cəhdidir.

Keçid məntəqəsindən həm erməni sakinlərin, həm Beynəlxalq Qızıl Xaç Komitəsinin, həm də Rusiya sülhməramlı kontingentinin şəffaf və nizamlanan şəkildə hər iki istiqamətdə keçdiyi bəllidir.





Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycan ərazilərini işğal altında saxlaması, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirməsi, eləcə də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin çağırışlarına zidd olaraq işğala son qoymaması və öz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmaqdan imtina etməsi BMT TŞ üzvü Böyük Britaniyaya yaxşı məlumdur. Beləliklə, Ermənistan tərəfi beynəlxalq ictimaiyyəti öz rəvayətləri ilə çaşdırmaq səylərindən əl çəkməlidir. Bununla yanaşı, Azərbaycan ərazisinə beynəlxalq missiya göndərilməsinin Ermənistan tərəfindən hələ də təşviq olunması, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə Azərbaycan hökumətinin dialoquna hər vəchlə mane olması Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilir.

Ermənistan bölgədə sülh və əminamanlıq tərəfdarıdırsa, bu kimi müdaxilələrə son qoymalıdır.

Azərbaycan ərazisində erməni hərbi əsirlərin olması iddiasına gəldikdə qeyd edək ki, Azərbaycan müharibə zamanı ələ keçirilmiş hərbi əsirləri bir çox hallarda təmənnasız olaraq Ermənistana geri qaytarıb. Müharibədən sonra ölkəmizin ərazisində hərbi təxribatlar törətmək məqsədilə Ermənistan tərəfindən göndərilmiş bir qrup erməni hərbçilərə gəldikdə, onların hərbi əsir olmadığı Ermənistan rəhbərliyinə məlumdur. Azərbaycanın xoş niyyət nümayiş etdirərək bu qrupdan olan şəxslərin də demək olar yarısını Ermənistana geri qaytarmasına baxmayaraq, Ermənistan tərəfi yolunu azaraq Ermənistana keçmiş 2 nəfər Azərbaycan hərbçisini qurama məhkəmə işi ilə geri qaytarmaqdan imtina edir və bununla etimad quruculuğu səylərinə zərbə vurur.

Ermənistanı bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına xələl gətirən təhlükəli ritorikadan çəkinməyə, əsassız yerə Azərbaycanı ittiham etmək, beynəlxalq ictimaiyyəti yayındırmaq cəhdlərini davam etdirmək əvəzinə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırırıq", - deyə məlumatda qeyd olunub.

# "İran rejiminin onu özünə düşmən hesab etməsi heç şübhə doğurmur..."

**Xəbər verdiyimiz kimi ABŞ-da Güney Azərbaycan Televiziyasının (Günaz TV) rəhbəri Əhməd Obalıya və oğlu Dəniz Obalıya qarşı sui-qəsd edilib.**

Adalet.az-a açıqlamasında "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev hadisəni belə şərh edib:

"Yəni güman o istiqamətdədir. Çünki Əhməd Obalı uzun illərdir Günaz TV-nin yaradıcısı və rəhbəridir. Onun bütün fəaliyyəti məhz İran Azərbaycanına yönəlmişdi. Çox sanballı bir şəxsdir, böyük işlər görürdü və çox yaxşı bir televiziya yaradıb. Amma bununla belə ideoloji cəhətdən İran rejiminin onu özünə düşmən hesab etməsi heç şübhə doğurmur. Ona görə burda gözlənti və düşüncə ondan ibarətdir ki, ölkənin daxilində olduğu kimi, xaricdə də bu, İranın jurnalistlər qarşı etdiyi hücumlardan biridir. İndi hadisəni törədən şəxslərin həbs edilməsi barədə məlumatlar var, güman edirik ki, Amerikada bu proses, araşdırma başa çatacaq. Allahdan Əhməd Obalı və oğluna şəfa diləyirik".



**Vasif Əlihüseyn**

*Səxavət Məmməd*

# Siyasi bəyanat, yoxsa bir parça imzalı, möhürlü kağız?



*Siyasi bəyanat yalnız romantiklər üçün keçərlidir. İmzalı, möhürlü kağız isə hər kəs üçün.*

*Əliqələmli diplomat, yoxsa əlisilahlı əsgər?*

*Tarix göstərir ki, əlisilahlı məsələni həll edir, ən sonra əliqələmli imza atır.*

*Ermənistan Baş naziri Nikol Paşinyan ətrafa müsbət enerji saçır, öpücük dağıdır. Ağrı dağının Türkiyə ərazisi olduğunu bəyan edir, şagirdlərə başa salır ki, bizim ən hündür zirvəmiz Araqatdır. Qarabağın Azərbaycanın tərkib hissəsində olduğunu az qalsın hər fürsətdə deyir.*

*Paşinyan hər dəfə belə danışdıqca bizim cəmiyyətdə çoxları feyziyab olur. Bir o qalıb, ekranda qol açıb oynasınlar. Məişət cəmiyyətiyik axı.*

*Paşinyan Ağrı dağı ilə bağlı fikir səsləndirəndə Türkiyədə bunu mövzu edən belə olmadı. Bir-iki nəfər götürüb yazdı ki, boş-boş danışma, nağılını özünə saxla, get konstitusiyanı dəyiş. İmzalı, möhürlü kağız!*

*Türkiyə cəmiyyəti ilə bəzən özümüzü müqayisə edirik, tanıdığımızı düşünürük. Tamamilə bir-birinə yad cəmiyyətlərik, onlar siyasiləşib, biz isə məişətin içərisində itib batırıq.*

*Biz də siyasi cəmiyyət olsaydıq, deyərdik ki, eyy, Paşinyan, öncə qanunlarını dəyiş, konstitusiyanızı və priambula hissəsini dəyiş, söz, dediklərinə inanacağıq. Necə ki Türkiyə demir bu sözləri de. Türkiyə tələb edir ki, konstitusiyadan çıxar!*

*Paşinyanın dediklərini fərqli yozanlar da var. Paşinyan öz cəmiyyətini hazırlayır, xalqının düşüncəsini dəyişməyə çalışır. Ermənistanı və erməniləri bu günə qədər ayaqda saxlayan onların ideologiyası və kilsədir. Paşinyan müharibədən sonra növbədənkənar seçkilərə getdi və qazandı. Sizcə, Paşinyan seçkiyə getdiyi kimi referenduma əminliklə gedə bilər? Sözdür də, danışır.*

*Ermənistanla Azərbaycan arasındakı danışıqlar, sülh heç bir masanın marağında deyil. Üç masanın üçü də Zəngəzur dəhlizini, yaxud dəhlizdən pay götürməyin dərdindədir. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlanmasa və böyük güclər razılığa gəlsə, guya o yol təhlükədə olacaq? Ukrayna ilə Rusiya müharibə edir, kəmərlərin nə dayandığını, nə də partladıldığını eşidirik. İşlə eşqi, müharibə ilə alveri qarışdırmaq olmaz.*

*Üç masanın üçündə də hər şeydən danışılır, yalnız Qarabağdakı qeyri-qanuni silahlılar xaric.*

*Tarix də, müharibədən sonra baş verən proseslər də onu göstərir ki, masada uğur qazanmağın yolu sahədə uğur qazanmaqdan keçir. Azərbaycan mümkün qədər sahədə təzyiqlərini artırmalıdır. Əgər bu baş verməsə, masalar da çox olacaq, masalar ətrafına yığılmalar da, bəlkə, dəhliz də açılacaq, ancaq Qarabağ olduğu kimi qalacaq.*

# "Media savadlılığı və dezinformasiya ilə mübarizə" mövzusunda keçilən təlim proqramı yekunlaşıb



**22-23 may tarixlərində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə təhsil işçiləri və media nümayəndələri üçün "Media savadlılığı və dezinformasiya ilə mübarizə" mövzusunda keçilən təlim proqramı yekunlaşıb.**

Adalet.az xəbər verir ki, iki gün davam edən təlim proqramı çərçivəsində "The European Alliance" Xəbər Agentliyinin baş katibi Alexandru Giboi və İsveçrənin "Universit? Svizzera italiana (USI)" Universitetinin Media menecmenti, media iqtisadiyyatı və media və mədəniyyət sənayesi üzrə professoru Matthew Hibberd "Sosial media dünyasında təhsil", "Rəqəmsal savadlılıq və Media Savadlılığı: əsas problemlər", "Sosial texnologiya dünyasında jurnalistika" və digər mövzularla bağlı öz təcrübələrini bölüşüblər.

Proqramın bağlanış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli təlimin əhəmiyyətini qeyd edərək bildirib ki, media savadlılığı bacarıqlarının artırılmasının məqsədi məlumat istehsalı və istehlakı proseslərində savadlılıq anlayışının müasir dövrün tələblərinə uyğunlaşdırılmasını, ölkə üzrə media savadlılığı göstəricilərinin yüksək səviyyəyə çatdırılmasını, eləcə də sağlam media mühitinin inkişafını və cəmiyyətdə məlumat təhlükəsizliyini təmin etməkdir.

Sonra təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

# Politoloq: "O, başa düşür ki, Ərdoğanın son atdığı addımlar..."

**"Artıq dünən açıqlanan məlumatlara görə Sinan Oğanla Rəcəb Tayyib Ərdoğan arasında bir görüş keçirilib. Bu görüşdən sonra dünən Ərdoğan çıxışı zamanı bildirdi ki, Oğanın zəlzələ və təbii fəlakətlərlə bağlı bir qurumun yaradılması istəyi oldu. Ərdoğan bu təklifi məqbul saydıqlarını bildirdi"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov Türkiyədə keçirilən prezident seçkilərində Sinan Oğanın Rəcəb Tayyib Ərdoğanı dəstəkləməsinə münasibət bildirərkən deyib. Politoloq bunun müsbət bir addım olduğunu bildirib:

"Sinanın Oğanın Rəcəb Tayyib Ərdoğana dəstək verməsi çox müsbət bir addımdır. Seçkilərdə bir faiz belə səs olsa, bu, Ərdoğanın qələbə qazanması üçün kifayət qədər yetərli olur. Sinan Oğanın Məhərrəm İncə və Kamal Kılıçdaroğlu qarşısında Ərdoğana bu cür dəstək verməsi xüsusi ilə önəmlidir. Kamal Kılıçdaroğlu HDP və PKK-yla açıq iş birliyində olduğunu özü etiraf edib. Sinan Oğanın isə prinsipial olaraq türk milliyyətçi olması və ortaya bu cür mövqe qoyması xüsusilə önəmlidir. O, başa düşür ki, Ərdoğanın son atdığı addımlar birbaşa türk dünyasının möhkəmlənməsinə yönəlib.

Bu baxımdan hesab edirəm ki, Sinan Oğanın Ərdoğana səs verməsi ehtimalı daha çox idi və bu artıq reallığa çevrildi. Hesab edirəm ki, 28 mayda da Sinan Oğan və onun tərəfləri öz səslərini Rəcəb Tayyib Ərdoğana verəcəklər və bu, seçkinin taleyini həlledici məqam olacaq".

# Sinan Oğanın Rəcəb Tayyib Ərdoğana dəstək vermə qərarına dünya mətbuatından reaksiya

**İlk turda 5,17 faiz səs toplayan Sinan Oğan prezident seçkilərinin ikinci turunda prezident Ərdoğanı dəstəkləyəcəyini deməsi əks-səda doğurub.**

Adalet.az xəbər verir ki, dünya mətbuatı bu qərara geniş yer verərkən, bir çox xəbərlərdə Ərdoğanın son gedişi ilə 2-ci raundda üstünlüklü mövqeyə sahib olduğunu bildirib.

"CNN International" "Türkiyə prezident seçkilərində Ərdoğanı dəstəkləyir" başlığı ilə oxucularının qarşısına çıxıb.

"The New York Times" yazır ki, "Oğan Ərdoğana əlavə dəstək verdi. 20 ildir Türkiyə siyasətinin dominant fiquru olan Ərdoğan Türkiyənin növbəti beş il üçün daxili və xarici siyasətini formalaşdıracaq və o, ikinci turda qalib görünür".

**Vasif Əlihüseyn**



*Rüstəm Hacıyev*

# Rusiya elitasında ciddi qarşıdurma

**"Vaqner" şəxsi hərbi şirkətinin yaradıcısı Yevgeni Priqojin, "orkestrinin" Baxmutdakı əməliyyatları barədə Telegram-kanalında məlumat yayıb.**

**"Musiqiçilərim" Baxmutda 260 metr irəliləyib və 180 kv.m ərazini nəzarətə götürüb. "Putinin aşpazının" sözlərinə görə, ukrayna hərbiçiləri şəhərin yalnız 1.28 kv.km-ni əllərində saxlayırlar. Lakin daha əlverişli mövqelərdə yerləşdikləri üçün, ukrayna hərbiçilərini mühasirəyə almaq mümkün deyil.**

**Biznesmen bildirir ki, Rusiya hərbi desant qüvvələri "düşmənə əlverişlü mövqelərə yerləşməsi üçün şərait yaradıb". "Mən əminəm ki, bu strateji manevr müharibə tarixinin kitablarına düçəcək və düşmənə geniş imkanlar yarafan "qəti sıçrayış" adlandırılacaq. "Gerasimov sıçrayışı"- deyə Yevgeni Priqojin Rusiyanın müdafiə nazirliyini və Baş qərərgah rəisi Gerasimovu bacarıqsız əməliyyat hazırlamaqda günahlandırıb. Putinin dostu əlavə edib ki, "Gerasimovun uğursuz qəfil sıçrayış" strategiyası imkan vetmir ki, "Vaqner" döyüşçüləri Baxmutda ukraunalı hərbiçiləri mühasirəyə alsınlar. Rusiya müdafiə nazirliyi ilə "Vaqnerin" yaradıcısı və rəhbəri Yevgeni Priqojin arasında yaranan münaqişə artıq açıq müstəviyə çıxıb. Qeyri-qanuni hərbi birləşmənin yaradıcısı, artıq məsələni Rusiya Dövlət Dumasına çıxarmaq niyyətindədir. Priqojin Dumada Ukrayna müharibəsində Rusiyanın qalibiyyətinə mane olan oliqarxların və deputatların adlarını çəkmək istəyir. Rusiya Prezidentinin ən yaxınlarından sayılan və hətta deyilir ki, Putini bu müharibəyə başlamağa təhrik edən Yevgeni Priqojin Rusiya elitası üçün ən əlverişsiz adam kimi tanınır. Bununla yanaşı o, təhlükəli gücə malik olduğu üçün, hətta ən nüfuzlu siyasətçilər və oliqarxlar üçün də qorxulu yuxuya çevrilib.**

**Priqojinin təhdidləri Rusiyaya ziyan vuran, korrupsiyaya uğramış deputatları və yüksək vəzifəli məmurları ən yüksək səviyyədə qorxuya salıb. Məlum olub ki, çox yaxın zamanlarda Priqojini Ukraynada gedən müharibə ilə əlaqədar çıxış etmək üçün Dumaya dəvət edəcəklər. "Putinin aşpazı" parlamentdə Rusiyada özlərinə sərvət toplamış, müharbənin gedişinə maneçilik törədən, qarşıya qoyulan məqsədlərə çatmağa imkan verməyən siyasətçilərin və oliqarxların adlarını açıqlayacaq. Artıq ilk ciddi siqnal səslənib. Yevgeni Priqoji özünün Telegram-kanalında Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyquya məktubunda onu Artyomovskiyə çağırıb və vəziyyətə yerində qiymət vetməyi tələb edib.**

**Priqojin əvvəllərdə müdafə naziri Şoyqunun hərəkərlərindən narazı olduğunu bəyan edib və hətta onu ağır söyüşlərlə təhqir etməkdən belə çəkinməyib. "Vaqnerin" rəhbərinin bu cür açıq şəkildə müdafiə naziri Sergey Şoyqunu və Baş qərərgah rəisi Gerasimovu ittiham etməsi yəqin ki, Rusiya prezidenti Vladimir Putinin razılığı ilə baş verir. Çox güman ki, Priqojinin xarakterini bildiyi üçün, qarşıda Şoyqunu "Vaqner hərbi şirkətinin" rəhbəriylə gərgin qarşıdurma gözləyir.**

**Yeri gəlmişkən Qərb dövlətləri "Vaqner" hərbi birləşməsini terrorçu təşkilat kimi tanımağa hazırlaşır.**

# *"Rusiya Moldovanı bir neçə saata işğal edər?!"*

**Rusiyanın "Parlament qəzeti"nin keçirdiyi mətbuat konfransında, Federasiya Şurasının Beynəlxalq əlaqələr komitəsinin sədr müavini Vladimir Cabbarov bəyan edib ki, Moldova NATO-ya doğru meyl edərsə, Dnestryanı bölgəsi qarşıdurmanın yeni arenası ola bilər.**

Komitə sədri müavinin sözlərinə görə, Moldova ilə Ukraynanı güc baxımından müqayisə etmək olmaz. Heç Kiyev Rusiyaya qarşı əks-hücum planında heç nə edə bilmir, bu baxımdan Moldova bir neçə saat ərzində təslum olar. Parlamentari Moldova ilə mübaqişə başlayarsa NATO-nun onlara kömək edəcəyinə də inanmadığını bildirib.

Rusiya Ukraynaya hücum etməmişdən əvvəldə "Ukraynanı bir neçə gündə təslum olmağa məcbur edəcəyik", "Bir həftədən sonra Kiyevdə hərbi parad keçirəcəyik", "Rus ordusu dünyanın ən güclü ordusudu" və s. kimi sayıqlamalarla yekə-yekə danışırdı. Əslində isə Kremlin ruporları, təşviqatçı KİV-ləri nə qədər şişirtsələr də, müharibə Rusiyanın hərbi gücünün deyidiyi kimi olmadığını göstərdi. Bir neçə gün də deyil, heç bir neçə həftəyə də deyil, bir il üç aydır bütün güclərini sərf etməklərinə baxmayaraq, hələ də istəklərinə çatmayıblar və çatacaqlarına da ümidləri yoxdur.

Amma görünən odur ki, imperiya xisləti bu xalqın qanına hopub. Anlamaq istəmirlər ki, yüz illərlə əsarətləri altında saxladıqları xalqlar artıq azadlıq əldə edərək, pis-yaxşı öz müstəqilliklərini qazanıblar.

Ukrayna müharibəsi göstərir ki, inperiyadan ayrılan xalqların heç biri asanlıqla müstəqilliklərini itirmək fikirində deyillər. Rusiyanın siyasətini həyata keçirənlər bir dəfəlik anlamalıdırlar ki, yalnız qonşularla bərabərhüquqlu, qarşılıqlı xoş münasibətlər qurmaq onların da xilas yolu ola bilər.

## *Xüsusi təyinatlıların gizli əməliyyatları*



**The Guardian, Action on Armed Violence araşdırmalar qrupuna istinadən yazır ki, Böyük Britaniyanın xüsusi təyinatlıları 2011-ci ildən başlayaraq gizli olaraq 19 ölkədə, o cümlədən də Rusiyada əməliyyatlarda iştirak ediblər. Araşdırmaçıların əldə etdikləri məlumatlara görə, Britaniyanın Xüsusi aviadesant xidməti (SAS), Xüsusu qayıq xidməti (SBS) və Xüsusi kəşfiyyat polku (SRR) heç bir xəbərdarlıq etmədən gizli olaraq Ukraynada, Filippində, Rusiyada, Estoniyada, Fransada, Livanda, Pakistanda Suriyada və Sudanda xüsusi əməliyyatlarda iştirak ediblər.**

Hesabat müəllifləri təsdiq edirlər ki, Britaniya hərbi birləşmələri, 2012-ci ildən Suriyadakı əməliyyatlarda üsyançı qruplaşmalara kömək etməklə daha aktiv iştirak ediblər. Xüsusi təyinatlılar bu yaxınlarda, 2023-cü ildə Sudanda baş verən hadisələrlə bağlı diplomatların və onların ailələrinin xilas etmə əməliyyatlarında iştirak ediblər.

**Rüstəm Hacıyev**

Abutalıb Səmədov
"Alyans" strateji araşdırmalar mərkəzinin sədri



# Siyasətçi ola bilməyənlərdən "siyasi məhbus" düzəltmək cəhdləri

**"Mən utanıram bəzən, utanıram deməyə (ki) mən partiya sədriyəm, mən siyasətçiyəm!"**

**Azərbaycan Yüksəliş partiyasının sədri Anar Əsədlinin böyük siyasi xadim ədasıyla, çox böyük iddia ilə dediyi bu sözlər təsadüfən qarşıma çıxdı.**

**Video kiçik olduğundan sona qədər baxdım və söylədikləri marağıma səbəb oldu.**

**Sözün düzü cəmi bir dəfə onunla debatda olmuşdum və o mənə siyasətdə təsadüfi adam təəssüratı bağışlamışdı.**

**Həmin debatda onun daha çox ümumi söz yığınından ibarət olan, heç bir fakta, informasiyaya söykənməyən "fikirlərini" dinləyərkən Azərbaycan siyasətinə "bilik sahibi olmadan fikir sahibi olmaq" istəyən iddialı bir gəncin gəldiyini düşünmüşdüm.**

**Bir dəfə də şəhərin otellərinin birində təşkil etdiyi "dəyirmi masa"ya getmişdim və onun xeyli xərc çəkib ərsəyə gətirdiyi tədbirdə çıxış edib heç nə deməməsinə təəccüblənmişdim.**

**Partiyalar bu cür tədbirləri özlərini və liderlərini təbliğ etmək, yüksək səviyyəsini nümayiş etdirmək üçün təşkil edirlər adətən.**

**Müzakirə konkret mövzu ətrafında olduğundan, ümumi söz yığını ilə baş girləməyin mümkünsüzlüyünü anladığından belə etdiyini düşünmüşdüm və onun barəsində siyasətdə "təsadüfi adam" qənaətim bir az da möhkəmlənmişdi.**

**Bütün bunlardan sonra Anar Əsədlinin böyük siyasi xadim ədası ilə "siyasətçiyəm deməyə utanıram"- bəyanatını verməsi məndə ona qarşı maraq oyatmaya bilməzdi.**

**Bəlkə doğrudan da Azərbaycan siyasətinə yeni nəfəs gətirəcək nəhəng bir siyasətçi gəlib və biz onunla eyni vaxtda yaşamağın nə qədər böyük "xoşbəxtlik" olduğunu hələ anlaya bilməmişik?**

**Bəlkə onun xarizmasından, savadından, natiqliyindən çəkinən müəyyən adamlar Anar Əsədlinin həbsinə nail ola biliblər və partiyadaşları məhz bu səbəbdən onu "siyasi məhbus" adlandırır və dünyada tanınmış siyasi xadimlərə bənzədirlər?**

**Bütün bu suallara cavab tapmaq üçün onun çıxışlarını izləmək və haqqını təslim etmək qərarına gəldim.**

**Ancaq cəmi bir videosunu-"Pressklub"tv-də bir neçə ay əvvəl dediklərini diqqətlə izlədikdən sonra digər çıxışlara baxmağa heç bir marağım qalmadı və anladım ki, vəziyyət mənim düşündüyümdən də bərbad imiş.**

**Anladım ki, qarşımda oxumağı, öyrənməyi bacarmayan və sevməyən, ancaq özünü xalqa nəyin bahasına olursa-olsun "dərin biliklərə"malik adam kimi sırımağa çalışan, xalqa "kələk gəlmək" istəyən bir insan əyləşib və heç bir məsuliyyət hiss etmədən minimum anlayışa belə malik olmadığı məsələlərdən ağlına gələni danışmaqdan qətiyyən çəkinmir.**

**Mənimlə debat zamanı ondan diqqətə layiq cəmi bir informasiya eşitmişdim.**

**Sözün düzü həmin gün A.Əsədlinin 2021-ci ildə Ermənistanla Gürcüstanın ticarət dövriyyəsinin 10 milyard dollar olduğunu xüsusi əda ilə söyləməsinə təəccüblənmişdim və məsləhət görmüşdüm ki, evə gedəndə bu məsələni bir daha araşdırsın.**

**Çünki həmin il Ermənistanın xarici ticarət dövriyyəsinin cəmi heç 10 milyarda çatmırdı, 8.3 milyard idi və burada Gürcüstanın payı 400 milyondan bir az artıq idi.**

**A.Əsədli "Pressklub"tv-dəki çıxışında da əvvəlcə mənimlə debatda olduğu kimi məlum məsələləri uzun-uzun danışdı və sonra danışığına mötəbərlik vermək üçün "dərin" biliyini nümayiş etdirməyə keçdi.**

**Onun dediklərini dinlədikcə Azərbaycan siyasətinin hansı duruma düşdüyünü görüb dəhşətə gəlməmək mümkün deyildi.**

**İnsan bilmədiyi, heç bir anlayışa malik olmadığı məsələlər haqqında heç bir məsuliyyət hiss etmədən, üstəlik özünə vurğunluğunu qətiyyən gizlətmədən, həm də "hər şeyi bilən oğlan" ədası ilə necə rahatlıqla danışırdı?**

**Deyirdi ki, "Türkiyədə Cumhuriyyət Xalq Partiyasının (CXP) sədri olmaq çox asandır, heç nə eləmirsən, 30 beyin mərkəzi hər şeyi hazırlayıb qabağına qoyur".**

**Üstəlik, CXP-nin pul dərdi də yoxdur, çünki, dövlət yardımından başqa "Türkiyə İş Bankasında partiyanın 25% payı var və hər il 25% gəlir CXP-yə gedir".**

**A.Əsədlinin CXP-yə işləyən beyin mərkəzlərinin sayı və gördüyü iş barədə dedikləri kifayət qədər mübahisəli olsa da dərinə getməyək və üstündən keçək.**

**Partiya sədrinin qabağına hazırlanan araşdırmalar qoyulandan sonra onları öyrənmək kimi işin ən çətin hissəsinin başlandığını da çox qabartmayaq.**

**Kim bilməsə də Anar Əsədli ciddi materialları oxumağın nə qədər çətin, ağır məşğuliyyət olduğunu hamıdan yaxşı bilməlidir və çox güman ki, bilir.**

**Əgər çətin olmasaydı hər dəfə özünü "bilikli göstərmək əzabına" qatlaşmaq məcburiyyətində qoymaz, ciddi məsələlər barədə hökm verməzdən əvvəl özünü çətinə salıb nəsə oxumağa, nəsə öyrənməyə çalışardı.**

**Heç olmasa böyük Atatürkün xatirəsinə hörmət əlaməti olaraq İş bankasında CXP-nin payı və aldığı kar barədə danışmazdan əvvəl onun vəsiyyətini oxuyardı.**

**Oxusaydı bilərdi ki, həmin bankda Atatürkə məxsus 28%(25% yox) pay CXP-yə keçsə də partiyaya ordan 1 quruş da gəlir verilmir.**

**Dövlətin və xalqın maraqlarını hər cür siyasi iddiaların üstündə tutan Böyük Atatürkün vəsiyyətinə görə 28%-lik hissələrdən gələn gəlir hər il CXP-yə yox, Türkiyə Tarix və Dil Qurumlarına verilir. Məlumatsızlığı və məsuliyyətsizliyi ilə Atatürkün ruhunu incidəndən sonra Anar Əsədli keçdi "Transxəzər" neft(?) kəməri layihəsinə və növbəti hökmünü verərək bəyan etdi ki, "Şuşa bəyannaməsi qədər Azərbaycanın dövlət olaraq ən mühüm qələbəsini Aşqabad bəyannaməsində" görür.**

**Bir neçə Aşqabad bəyannaməsi olduğunu çox güman ki, bilmədiyindən hansını nəzərdə tutduğunu dəqiqləşdirmədi və başladı "Transxəzər neft kəməri" layihəsinin qlobal əhəmiyyətini izah etməyə.**

**Dedi bu "neft kəmərinin işə düşməsi Rusiyanı bölgədən çıxaracaq və dünənə qədər bu layihəyə mane olan Rusiya daha heç nə edə bilməyəcək".**

**A.Əsədlinin söylədiyi hər kəlmədən aydın olurdu ki, nə bu layihədən, nə bölgədəki durumdan, nə də "Transxəzər" qaz(neft yox) kəmərinin perspektivindən ən bəsit anlayışı belə yoxdur.**

**Anlayışı yoxdur, çünki oxumağı, öyrənməyi qətiyyən sevmir.**

**Eyni zamanda az-çox oxuduğunu da bizim bir çox siyasətçilərimizdə olduğu kimi "anlamaq problemi" var.**

**Oxumasa da, ciddi məsələləri anlamasa da, üstəlik, bu qüsurlarını yaxşı bilsə də "savadlı", "dərin bilikli" görünmək, özünü cəmiyyətə "intellektli lider" kimi təqdim etmək istəyi ilə də "bacara" bilmir.**

**Məhz bu səbəbdən debat zamanı iddia etdi ki, "Transxəzər" layihəsi işə düşdükdən sonra Türkmənistan və Qazaxıstan qazı həmin kəmər vasitəsilə Türkiyəyə gələcək və oradan da Avropaya göndəriləcək.**

**Sürətini qətiyyən azaltmadan ABŞ-dakı Türkiyə səfirliyində keçirilən görüşdən də danışdı, "bizim siyasilər belə şeylərə fikir verməzlər"-deyərək özü ilə qürurlanmaq imkanını da əldən buraxmadı və Azərbaycanın "ən dərin" siyasətçilərindən biri olduğunu xüsusi qabartmağa çalışdı.**

**Və bəyan elədi ki, İsrail qazı da Türkiyədən keçib gedəcək Avropaya.**

**Aydın görünürdü ki, Türkiyəni Avropa ilə birləşdirən cəmi iki qaz kəmərinin olduğunu, onların da tam gücü ilə işlədiyini, yəni, əlavə qaz ötürmək imkanına malik olmadığını adam anlamaqda çətinlik çəkir.**

**Söhbət Avropaya ildə 16 milyard kub metr qaz ötürmək imkanına malik olan "Türk axını" və 10 milyard kub metrdən bir az artıq ötürücülük qabiliyyəti olan TAP boru kəmərlərindən gedir.**

**Cənub Qaz dəhlizinin bir hissəsi olan ikinci kəmər təkcə Azərbaycan qazını ötürmək imkanına belə malik deyil.**

**Əgər təcili investisiyalar qoyulmasa və TAP boru kəmərinin ötürücülük qabiliyyəti artırılmasa Azərbaycan Avropaya ildə 20 milyard kub metr qaz vermək öhdəliyini yerinə yetirə bilməyəcək.**

**İsrai qazını Avropaya çatdırmaq üçün 2019-cu ilin martında Kipr, Yunanıstan və İsrail arasında "Şərqi Aralıq dənizi" boru kəməri barədə saziş imzalanıb. İtaliya və Avropa birliyi də ona dəstək verib.**

**Layihəni əvvəl dəstəkləyən ABŞ-ın geri çəkilməsi ilə işlər düyünə düşüb və Türkiyə də bundan mümkün qədər yararlanmağın yollarını axtarır.**

**Eyni zamanda gözləmək istəməyən İsrail Misirə qaz kəməri çəkmək və ləngimədən Şərqi Aralıq dənizindəki "Leviafan" yatağından çıxan qazı maye qaza çevirərək satmaq və gəlir götürmək istəyir.**

**Çünki, bir az əvvəl dediyimiz kimi TAP boru kəmərinin ötürücülük qabiliyyəti Avropaya yalnız 10-12 milyard kub metr qaz satmağa imkan verir.**

**Məhz bu səbəbdən Azərbaycan prezidenti "Transxəzər" layihəsinə dəstək versə də "əsas işi tranzit ölkə deyil, enerji ehtiyatlarının sahibi görməlidir"- deyir.**

**Rusiya və İranın da bu layihəyə müqaviməti həmişə olub və bu gün də qalmaqdadır.**

**Üstəlik, Türkmənistandakı qaz yataqlarının əsas investoru olan Çin dövləti "Transxəzər" layihəsinin əleyhinədir və bu kifayət qədər ciddi problemdir.**

**Nəhayət, Əfqanıstan üzərindən Hindistana çəkilən və ötürücülük qabiliyyəti 33 milyard kub metr olan TAPİ qaz boru kəməri Türkmənistan üçün prioritet layihədir və bu səbəbdən "Transxəzər" layihəsi çərçivəsində yaxın vaxtlarda işlərin başlanması ehtimalı son dərəcə aşağıdır.**

**Bütün bu incəlikləri bilmədən, "Xəzərin statusu haqqında Konvensiya"nı öyrənmədən hansısa "Aşqabad bəyannaməsi" haqqında nağıllar uydurmaq və sözlərinin mötəbərliyini artırmaq üçün onu tarixi "Şuşa bəyannaməsi"nə bərabər tutmaq bir siyasətçi üçün yumşaq desək ən azı qeyri-ciddi davranışdır.**

**"Transxəzər" kəməri barədə "dərin mülahizələrini" bitirdikdən sonra Anar Əsədli "qızıl xırdalamağa" davam etdi və keçdi heç kimin bilmədiyi digər məsələlərə.**

**Onun "mütəfəkkir" ədası ilə söylədiyi cümlələrdən özünü olduğundan dəfələrlə savadlı, mötəbər göstərmək istəyi "fışqırır" və bu istər-istəməz insanda ikrah hissi doğururdu.**

**Arada "əngin biliyini" nümayiş etdirmək üçün Qarabağdan keçib əlüstü Kosovo məsələsinə də toxundu.**

**Bu məqamda qarşısında Kosovo probleminin dərin bilicisinin oturduğunu düşünən hörmətli aparıcı bu məsələdə irəliləyişə nail olunmasında Azərbaycanın rol oynaması barədə müəyyən gümanlarını səsləndirdi, sözgəlişi prosesi dəqiq bilmədiyini etiraf etməkdən də çəkinmədi.**

**Anar Əsədli təbii ki, onun kimi davranıb məsələdən xəbərsiz olduğunu etiraf etmədi, gülərək Azərbaycanın bu məsələdə iştirakını "oldu, oldu"-deyərək təsdiqlədi, deyəcək sözü olmadığından "o məsələyə toxunarıq"-deyərək "mən o problemi də dərindən bilirəm" təsəvvürü yaratmağa çalışdı və təbii ki, sonra heç nə danışmadı.**

**Ancaq onun "oldu,oldu"-deyərək Azərbaycanın bu məsələyə müdaxilə etdiyini təsdiqləməsi göstərdi ki, danışdığı digər məsələlər kimi bu problemdən də heç bir anlayışı yoxdur.**

**Çünki "Kosovo" problemindən xəbəri olanlar bilirlər ki, dünyanın böyük gücləri azı 15 ildir ki, bu məsələni yoluna qoya, hansısa ciddi irəliləyişə nail ola bilmirlər.**

**Biz dövlətimizin nüfuzu ilə nə qədər qürurlansaq da etiraf etmək məcburiyyətindəyik ki, Serbiya Azərbaycan-Ermənistan münasibətlərinə nə qədər təsir etmək imkanına malikdirsə, Azərbaycan da Kosovo-Serbiya məsələsinə təqribən o qədər müdaxilə etmək gücündədir.**

**Sözlərinə davam edən Anar Əsədli sonda hörmətli Rəcəb Tayyib Ərdoğanın siyasi ustalığından danışaraq söylədi ki, seçki kampaniyası zamanı o bir bölgədə(adını demədi) "bərabər yürüdük biz bu yollarda"mahnısını oxuyub( burda səsini nümayiş etdirmək imkanını əldən buraxmadı və mahnının bir parçasını oxudu) və 2 milyon artıq səs ala bilib.**

**Musiqi biliyinin zənginliyini qabartmaq üçün mahnının Sezen Aksuya mənsub olduğunu da qeyd etməyi unutmadı.**

**Türk xalqı musiqiyə nə qədər dəyər versə də bir mahnıya qulaq asıb onu səsləndirənə milyonlarla səs verəcək qədər aşağı səviyyədə deyil və heç vaxt olmayıb.**

**Özünü xalqla əlaqələr üzrə mütəxəssis sayan A.Əsədlinin reallıqla heç bir əlaqəsi olmayan bu cür bəyanatları türklərin zəkasını aşağılamaqdan başqa bir şey deyil.**

**Türkiyədə siyasi prosesləri diqqətlə izləyənlərə məlumdur ki, Rəcəb Tayyib Ərdoğan AK partinin az qala himninə çevrilmiş həmin mahnını ən azı 2000-ci ilin əvvəllərindən başlayaraq demək olar ki, Türkiyənin hər bölgəsində, təbii ki, Anar Əsədlidən daha yaxşı oxuyub və yəqin ki, bundan sonra da oxuyacaq.**

**Üstəlik mahnını müəllifi də Sezen Aksu deyil, türk sənət musiqisinin dəyərli nümunələrinin yaradıcısı olan Selçuq Tekaydır.**

**Siyasətçi hər şeyi bilməyə borclu deyil, ancaq danışdıqlarını bilmək məcburiyyətindədir.**

**Çox təəssüf ki, Anar Əsədlinin cəmi bir çıxışına baxandan sonra onun haqqında yanılmadığıma bir daha əmin oldum.**

**Ortada yaxşı təhsil almamış, oxumağa, öyrənməyə həvəsi olmayan, üstəlik az sayda oxuduqlarını, eşitdiklərini anlamaqda çətinlik çəkən, buna baxmayaraq böyük siyasətçi olmağa çalışan və bu məqsədlə yalanlar danışmaqdan qətiyyən çəkinməyən bir insan var.**

**Potensialı olmadığı halda nəyin bahasına olursa-olsun özünü mötəbər, samballı siyasətçi kimi cəmiyyətə qəbul etdirməyə çalışan bir insan.**

**Məhəmməd Hadinin- "Elmin, hünərin, mərifətin varsa buyur gəl"-müdrikliyindən nəticə çıxarmamış və bunun əksinin mümkünlüyünə özünü inandırmış bir insan.**

**Dünyanın hər yerində hər bir iqtidar özünə belə "müxalifət lideri" axtarır və tapanda da "öpüb gözünün üstünə" qoyur.**

**İndi heç bir axtarış aparmadan belə bir müxalifət lideri qazanan Azərbaycan hakimiyyəti nədən onu "siyasi məhbus"a çevirmək fikrinə düşməlidir?**

**Dövlətimizin "siyasət bazarında" müxalifət mövqeyində dayanan belə aşağı səviyyəli partiya liderləri kifayət qədər olsa da bunun hakimiyyətə nə ziyanı var?**

**Nə qədər çox olsa o qədər yaxşıdır.**

**Xalqımıza gəldikdə isə o bir şeyi bilməlidir ki, "nəyin bahasına olursa-olsun"-düşüncəsi ilə hərəkət edənlər, məqsədlərinə çatmaq üçün hər şeyi mümkün sayanlar insanların etibarından sui-istifadə etməkdən, onları aldatmaqdan heç vaxt çəkinməyiblər və bundan sonra da çəkinməyəcəklər.**

**Çünki, fasiləsiz yalanlar danışmaq, özünü olduğundan ağıllı, savadlı, dürüst, mötəbər göstərmək belələrinin həyat tərzinə çevrilib.**

**Etiraf etməliyik ki, bu cür yalançı, saxta adamların ən istedadlıları son nəticədə öz məqsədlərinə nail ola bilirlər.**

**Bu gün dünyada heç bir mənəvi dəyər tanımayan, hər cür şər-böhtan danışmağı həyat tərzinə çevirən və bu yolla xeyli uğur qazannmağa nail olan xeyli siyasətçi saymaq olar.**

**Ancaq mənəviyyatında ciddi problemlər olan "siyasətçilərin" böyük əksəriyyəti uğursuzluğa məruz qalmış, həyatı alınmamış, özünə yer tapmamış zavallılardır.**

**Yalançılara, xalqa kələk gəlməyə çalışanlara dəstək verib onlardan "zorən siyasətçi" düzəltməyə çalışmayaq!**

**Son nəticədə bədbəxt olacaqlar.**

**Siyasətdə yeri olmayanları, anlaşılmazlıq nəticəsində siyasətə gələrək keçmiş dostları ilə "maliyyə problemləri" yaşayanları "siyasi məhbus"a çevirməyə cəhd göstərməyək!**

**Onlar siyasətçi ola bilmədikləri kimi, "siyasi məhbus" kimi də qəbul edilməyəcəklər!**

**Son nəticədə indi qulağa xoş gələn bu cür bəyanatların zərbəsi ilk növbədə onların özlərinə dəyəcək və bu həqiqət nəhayət anlaşılanda "iş işdən keçmiş olacaq".**

**Sonda Anar Əsədlinin -"Mən utanıram bəzən, utanıram deməyə (ki) mən partiya sədriyəm, mən siyasətçiyəm!"- fikrinə qayıtmaq istəyirəm.**

**Məncə o özünü siyasətçi kimi təqdim etməyə utanmaqda tamamilə haqlıdır.**

**Ancaq təkcə başqalarına görə yox...**

**Hazırda dünyanın və eləcə də biz azərbaycanlıların diqqəti Türkiyədədir. Dediyimin sübutu 14 mayda təsdiqini tapdı. Sözün həqiqi mənasında 14 mayda Türkiyədə keçirilən şəffa və son dərəcə demokratik prezident seçkilərini dünya nəfəsini tutaraq izlədi.**

**Birinci turun konkretləşməməsi 2-turu labüd etdi. Beləliklə Türkiyədə prezident seçkilərinin ikinci turu mayın 28-də keçiriləcək. İkinci turda Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğan və "Altılı masa"nın namizədi Kamal Kılıçdaroğlu mübarizə aparacaq.**

# *<u>Mələkli oğlan:</u>* "Mən olan yerdə Azərbaycan sevgisi hər zaman olacaq"

İlk turda 5,17 faiz səs toplamaqla əsas açar fiqura çevrilən ATA İttifaqının namizədi Sinan Oğan mübarizəni dayandırdı. Çünki Oğan Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğanı dəstəklədiyini elan edib. O, keçirdiyi mətbuat konfransında bildirib ki, seçiclərindən hazırkı Prezident Rəcəb Tayyib Ərdoğana səs vermələrini istəyib.

Oxucularıma Kılıcdaroğlu haqqında müfəssəl məlumat verdiyim üçün onu yenidən müzakirə etməyə ehtiyac duymuram. Onsuzda artıq hamımız bilirik ki, Türkiyədə yaşayan bütün xristianlar, kürd terrorçuları və ermənilər ona səs verib. Ermənistan erməniləri də dizləri yerdə, əlləri göydə Kılıcdaroğlunun seçilməsini Allahdan arzu edir. Kılıcdaroğlu haqqında bu qədər.

Sinan Oğan kimliyi ən çox azərbaycanlıları maraqlnadırdı. "Azərbaycanlıdır" deyib durdular! Düzü ermənilər də çox çaba xərcləyirdi ki, demokratik düşüncəli bu siyasətçinin kökü gedib Azərbaycana çıxmasın.

### *İğdırlı, Qarslı azərbaycanlılar*

İğdır Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, daha sonra Azərbaycan Səfəvilər İmperiyasının tərkibində olub. Səfəvilərin tabeliyində olan bu vilayət nəhəng Osmanlı İmperiyasına qatılan sonuncu torpaqdır. 17 may 1639-cu il tarixli "Qəsri Şirin" müqaviləsinə görə İğdır Osmanlı hakimiyyəti altında qaldı. Şiddətli zəlzələdən sonra 1664-cü ildə indiki yerində İğdır şəhəri yaradılmışdır. Türk tarixçi alimlərinin araşdırmasında deyilir ki, Oğuz xan iyirmi dörd oğuz tayfasının iyirmi birincisi sayılan İç Oğuzların Üçoklar qolunun üzvü idi:" Şəhərin adı Oğuz Xanın altı oğlundan biri olan Dəniz Xanın böyük oğlu İğdir bəyin adından gəlir. Iğdır sözünün mənası yaxşı, böyük, məşhur və sahibdir. Yerli insanlar Iğdır adını İdir kimi tələffüz edirlər. Ermənicə: ????? İğdir, kürdcə ?dir, Azərbaycan dilində isə şəhərin adı İğdır kimi tələffüz olunur.

Daha sonra - XX əsrdə Ermənistan ərazisindən azərbaycanlıların kütləvi deportasiya əməliyyatı - 1905, 1918-1920, 1948-1956, 1987-1988-ci illər olaraq dörd mərhələyə bölünür. Bu tarixi proseslər nəticəsində bir çox azərbaycanlıların taleyinə Türkiyə ərazisində yaşamaq da nəsib oldu. Onların arasında əslən Qərbi Azərbaycandan olanlar da kifayət qədərdi. Türkiyə azərbaycanlıları əsasən İğdır və Qarsda məskunlaşıblar. 1990-cı ildə SSRİ-Türkiyə sərhədinin yaxınlığında 400,000-ə yaxın etnik azərbaycanlı yaşayırdı, ancaq başqa bir məlumatda Türkiyədə təkcə cəfəri məzhəbindən olan azərbaycanlıların sayının 1998-ci ildə təxminən 3,000,000 olduğu qeyd edilir.

Britannika Ensiklopediyasının 2000-ci ildə aparılan təxmini hesablamalara görə Türkiyə əhalisinin 1%-ni etnik azərbaycanlılar təşkil edirdi. 2013-cü ildə Türkiyədə 800,000 azərbaycanlı yaşayırdı. Azərbaycanlılar hal-hazırda İğdır şəhərindəki ən böyük 1-ci, Qarsda isə ən böyük 2-ci etnik qrupdurlar. İğdır bələdiyyələrinin sayı dörddür - İğdır şəhər bələdiyyəsi və 3 kənd bələdiyyəsi : Xəlfəli, Xoşxəbər, Mələkli .




### *Məleklinin Sinan Oğanı və Azərbaycan*

Mələkli İğdırın mərkəzi mahalında bir qəsəbədir. 1886-cı ilə olan məlumata əsasən Rusiya İmperiyasının Qars vilayətinin İğdır şöbəsinin İğdır kənd cəmiyyətinin Mələkli kəndində 1.869 nəfər əhali yaşayırdı, onların hamısını etnik tatarlar (azərbaycanlılar) təşkil edirdi. Burada 1913-cü ildə aparılan qazıntılar zamanı aşkar edilmiş Urartulara aid qəbiristanlıq da var.

Qəsəbə 1917-1920-ci illər arasında mövcud olmuş və Əli Əkbər Tufan tərəfindən qurulan "İğdır Milli Cümhuriyyəti"nin paytaxtı olub. 1923-cü ildə eyniadlı kənd statusu alıb. Əhali artımına görə 29 fevral 1972-ci il tarixli qərarla bələdiyyəyə çevrilib. Məlumatlar göstərir ki, hazırda kəndin 5minə yaxın əhalisi var.

Sinan Oğan həmin bu Mələkli kəndində (qəsəbəsi)14 mart 1969-cu ildə anadan olub. 1989-cu ildə Mərmərə Universitetini bitirib. 1991-ci ildə Sovet İttifaqının dağılmasından əvvəl Əbülfəz Elçibəylə görüşmüş və Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət Elçibəyin prezident aparatında çalışıb. 1993-2000-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində dekan müavini vəzifəsində işləyən Sinan Oğan 2000-ci ildə Türkiyəyə qayıdaraq Avrasiya Strateji Araşdırmalar Mərkəzində Qafqaz istiqaməti üzrə çalışıb.

Sinan Oğan Milliyyətçi Hərəkat Partiyasının İqdır bölgəsindən millət vəkilliyinə 1 nömrəli namizədi olub və MHP-nin S. Oğanın azərbaycanlıların səslərini qazanacağına əmin olmasından irəli gəlirdi. Sinan bəy 2011-ci ildə Türkiyə Böyük Millət Məclisinə keçirilən seçkilərdə qalib gələrək deputat mandatı qazandı.

Rus və ingilis dillərini mükəmməl bilən Sinan bəyin iştirakı ilə Türkiyədə 20 Yanvar, Xocalı soyqırımı, 1918-ci il mart qırğınlarının qurbanlarının xatirəsinə həsr olunan çoxsaylı tədbirlər təşkil olunub. Azərbaycan dövləti və xalqının maraqlarına daha ardıcıl və sistemli şəkildə müdafiə etməsi üçün Türkiyə Azərbaycan Dərnəyi (TAD) diaspor təşkilatını yaratmışdı. TAD-ın yaradılması ilə Azərbaycanın Türkiyədəki diasporu daha da güclənmişdi. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə sıx əməkdaşlıq edən TAD müntəzəm olaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı düşmənçilk siyasəti ilə bağlı beynəlxalq konfrans və seminarlar keçirib, bu tədbirlərdə müxtəlif ölkələrin parlamentlərinin nümayəndələri, dövlət və ictimai xadimləri, siyasi ekspert və tarixçilər iştirak ediblər.

O, 2023-cü ilin may ayında Türkiyədə keçiriləcək prezident seçkilərində ATA İttifaqının vahid namizədi kimi seçildi. O, namizədlik üçün tələb edilən 100 min imzanı toplamış və namizədliyi Yüksək Seçki Komissiyası tərəfindən təsdiq edilərək prezident seçkiləri üçün namizədliyi qəbul edilən 4-cü şəxs oldu. "Buna şübhə yoxdur ki, Sinan Oğan olduğu yerdə Azərbaycan sevgisi hər zaman olacaq" deyə duyuran Oğanı dövlətimiz dəyərli bilib. 4 iyul 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib.

Xatirladaq ki, Sinan Oğan ailəlidir və 2 övladı var.

***P.S.** Yenidən seçilməsi ilə Azərbaycana siyasi dəstək verəcək Ərdoğana səs və dəstək verdiyi üçün bəzi soydaşlarımız ( Qərbə, xristianlara, türk düşməni olan ermənilərə, yunanlara, PKK-lılara qoşularaq ) Sinan Oğanı tənqid etmələri gülünc olduğu qədər də təəssüfverici bir hissdir.Sən Allah papağınızı qabağınıza qoyub düşünün, Azərbaycan 4 tərəfdən düşmənlə qarşı-qarşıya qaldığı bir vaxtda bizə Azərbaycandan imtina etdiyini deyən Kılıcdaroğlumu lazımdır, yoxsa, qardaş Türkiyə və Azərbaycanı bir-birinə daha çox yaxınlaşdıran, bir-birinin təəssübünü çəkən iki dövləti bir -birinə sevdirən, sıx birləşdirən Ərdoğanmı lazım? Düşünün!*

**Əntiqə Rəşid**

## Yaponiya NATO-ya üzv olmağa hazırlaşmır



**Yaponiyanın baş naziri Fumio Kisida bu gün bəyan edib ki, Yaponiyanın NATO-ya daxil olması ilə bağlı planları yoxdur. Şimalatlantik alyansının ölkəsində nümayəndəliyinin açılması ilə bağlı isə hələ ki, qərar qəbul olunmayıb.**

"Yaponiyanın NATO-ya daimi üzvülüyi ilə bağlı planları yoxdur"- deyə Kisida parlamentin yuxarı palatasının plenar iclasında deputatların suallarına cavab verərkən bəyan edib. Onun sözlərinə görə, alyansın Yaponiyada nümayəndəliyinin açılması məsələsi müzakirə olunur, "lakin bununla bağlı hazırda heç bir qərar qəbul olunmayıb".

Yaponiyanın baş naziri qeyd edib ki, Tokio hazırki beynəlxalq vəziyyətin çətin anlar yaşadığı bir zamanda NATO dövlətləri ilə əməkdaşlığı möhkəmləndirməkdə davam edəcək.

Daha əvvəl bildirilirdi ki, NATO Tokioda ofis açacaq və bu Asiyada alyansın ilk nümayəndəliyi olacaq. Nümayəndəlik "Çinin Rusiya ilə əməkdaşlığının güclənməsindən narahatlıq keçirir" və bu mənada nümayəndəliyin regionda Yaponiya və aparıcı ölkələrlə məsləhətləşmələr aparılmasına təkan verəcəyinə ümid edir.

Bu arada ABŞ prezidentinin keçmiş köməkçisi Con Bolton NATO blokunun genişləndirilməsi təklifiylə çıxış edib. O, bəyan edib ki, Avstraliya, İsrail və Yaponiya alyansa dəvət edilməli və "NATO dünyəvi təşkilata çevrilməlidir".

**Rüstəm Hacıyev**

## Mehriban Zeynalova: "Ailə qazanc əldə etmək üçün hər gün işdə olanda..."



**"Məsələ ondadır ki, sosial şəbəkədən istifadə çox geniş yayılıb və bu, uşaqlar üçün əlçatandır. Valideyn isə hər dəqiqə buna nəzarət edə bilmir. Uşaqlar orda özlərini daha rahat hiss edirlər. Bu təkcə valideyn yox, ətraf və imkanlar məsələsidir"**

Bunu Adalet.az-a "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova Tovuzda 13 yaşlı qızın qaçması haqda danışarkən deyib. M.Zeynalova burda təkcə valideynləri ittiham etməyin doğru olmadığını bildirib:

"Uşaq üçün orda ətraf cəlbedici təkliflər verir. Ola bilir ki, nə uşağın, nə də valideynin bu imkanlar barədə məlumatı olmur. Belə məsələlərdə o mühiti öyrənmək lazımdır. Ətrafdakılar kimdir, ailənin özünün maddi durumu necədir, bütün günü işdədirmi? Ümumiyyətlə, telefonu da zərərli vərdişlər sırasına daxil etmək lazımdır. Narkotika kimi telefon asılılığı da ağır fəsadlar gətirir. Bu da zərərli vərdişlərdən biridir və bundan qorunmaq üçün bir proqram yaratmaq lazımdır. Yerlərdə bələdiyyələr, icra nümayəndəlikləri buna dəstək verə bilər. Valideyn əksər vaxt görürsünüz ki, ailəsinin rifahını yaxşılaşdırmaq üçün qazanc əldə etməyə çalışır. Onda da uşaq nəzarətsiz qalır. Ailə hər gün işdədirsə, onda biz onu ittiham edə bilmirik".

**Vasif Əlihüseyn**

## Azərbaycan 1920, Rusiya 1974, "nala-mıxa" vuran Paşinyan isə 1975-ci ilin xəritəsini təklif edir

**Uzun müddətdir sərhədlərin 1920-ci il xəritələri əsasında müəyyənləşməsi ilə bağlı həm Ermənistan vətəndaşları, həm də Azərbaycan vətəndaşları arasında qızğın müzakirələr gedir...**

Ötən il Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan bildirdi ki, rəsmi Bakı 1920-ci illərin xəritələrinin əsas götürülməsi istəyindədir. Məlumatlarda Ermənistan 1926-1929-cu ilin xəritələrinə əsasən delimitasiyasının aparılması istədiyi yazılırdı Bu illərdə Azərbaycan SSR-nin otlaq və əkin sahələri böyük ölçüdə Ermənistan SSR-yə verilib;

Daha bir məlumatda deyilirdi ki, Azərbaycan məhz 1921-cı ildə mövcud olan xəritə əsasında delimitasiyasının aparılmasını istəyir: Bu, Ermənistan SSR-yə otlaq sahəsi kimi verilən ərazilərin da qaytarılması ilə nəticələnə bilər.

Hər iki tərfə məlumdur ki, 1920-ci il xəritələri gündəmə gələrsə, Ermənistan Qərbi Zəngəzurdakı ən azı 9 kəndi də Azərbaycana qaytarmağa məcburdur. O kəndlərin qaytarılacağı təqdirdə isə Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirən yol birbaşa Azərbaycanın qanuni ərazisi altına keçmiş olacaq. Buna baxmayaraq Rusiya Ermənistan-Azərbaycan sərhədinin delimitasiya və demarkasiyası üçün 1974-cü ilin xəritəsindən istifadə edilməsini təklif edib

Adalet.az xəbər verir ki, bu gün isə Ermənistan Baş naziri Nikol Paşinyan Ermənistan-Azərbaycan sərhədinin delimitasiya və demarkasiyası ilə bağlı yeni açıqlama verib. O güman edir ki, iş 1975-ci ildəki SSRİ Baş Qərargahının xəritələrinə əsasən aparılacaq:"Rusiya tərəfi bir neçə dəfə bu xəritələrdən bəhs etmişdi."Ermənistanın mövqeyi dəyişməz olaraq qalır, o, SSRİ Baş Qərargahının 1975-ci ildəki xəritələrinə əsasən delimitasiya tərəfdarıdır. İrəvan delimitasiyanın nəticələrinə görə qoşunların güzgüvari şəkildə geri çəkilməsində israrlıdır. Bu, təhlükəsizliyi təmin edəcək. Bu vəzifə artıq beynəlxalq birlik tərəfindən formalaşdırılıb və bu, mühüm haldır. Bakının qoşunların çıxarılması ilə bağlı mövqeyinə gəlincə, hazırda heç bir irəliləyiş görmürük".

**Qeyd edək ki, 1929-cu ilin fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyəti Komitəsinin qanunsuz qərarı ilə Naxçıvanın 9 kəndinin və Kilit kəndinin torpaq sahələrinin bir hissəsi Ermənistan SSR-yə verilib: Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxaç, Almalı, İtqıran kəndləri, Ordubad dairəsinin Qorçevan kəndi, həmçinin, Kilit kəndinin əkin və otlaq sahələri; nəticədə Naxçıvanın ərazisi 5988 kvadrat kilometr azaldı.**

**Əntiqə Rəşid**

# Atmosferə normadan artıq zərərli qazlar atılır

## May ayının 1-dən iyunun 1-dək respublika ərazisində "Təmiz hava" aylığı keçirilir




**Heç kəsə sirr deyil ki, bu gün dünyanın ekoloji tarazlığı pozulub, atmosferə və təbiətə böyük ziyan vurulub. Təkcə bir faktı deyək ki, hər gün Bakı şəhərində atmosferə nəqliyyat vasitələrindən tonlarla zərərli qazlar atılır. Bu isə təmiz havamızı çirkləndirməklə yanaşı, həm də insanlarda sağalmaz xəstəliklər yaradır. Təbii ki, atmosfer çirklənməsinin qarşısının alınması üçün böyük Dövlət Proqramı var. Və bu proqramlar zaman-zaman həyata keçirilir. Belə tədbirlərdən biri də hər il Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə DİN-nin Baş Dövlət Yol Pollisi İdarəsinin birgə keçirdiyi "Təmiz hava" aylığıdır. Artıq bu tədbir bir ənənə halına çevrilib və birgə fəaliyyət nəticəsində atmosferin çirklənməsinin qarşısının alınmasında çox önəmli addımlar atılıb.**

Artıq may ayının 1-dən iyunun 1-dək yenidən adını çəkdiyimiz bu nazirliklərin birgə fəaliyyəti ilə respublika ərazisində "Təmiz hava" aylığına start verilib. Bu günlərdə hər iki qurumun və eləcə də kütləvi informasiya vasitələrinin iştirakı ilə Baş Dövlət Yol Polisi İdarəsinin Ekoloji Nəzarət üzrə Yol Patrul Xidməti Bölüyünün stasionar postunda belə bir tədbir keçirildi. Həmin tədbirdə bir daha aydınlaşdı ki, atmosferi ən çox çirkləndirən nəqliyyat vasitələri dizel yanacağı ilə işləyən sərnişin avtobusları və yük maşınlarıdır. Qəribə də olsa, stasionar postda tədbir zamanı saxlanılan sərnişindaşıyan və yük maşınlarının müayinəsi zamanı onların hamısında atmosferə normadan artıq zərərli qazların atılması faktları aşkarlandı. Aydındır ki, həmin nəqliyyat vasitələri dizel yanacağı ilə işləməklə yanaşı, həm də texniki cəhətdən nasaz idilər. Buna görə də bu sürücülər 50 manat civarında cərimə edildilər. Məsələn, 99-LC -125, 90-SF-674, 90-JU-846, 99-RF-896, 99-TK-610, 01-BK-675, 20-EO-945 nömrəli avtobus, mikroavtobus və yük maşınlarından texniki müayinə zamanı normadan artıq zərərli qazların atılması müşayət edildi. Hətta 20-EO-945 nömrəli sərnişin avtobusunda əyləc sisteminin işləməməsi faktı üzə çıxdı. Belə ki, həmin avtobus müayinə zamanı yerindən tərpəndi. Kimsə cəld tərpənib, həmin avtobusu birtəhər saxladı. Hansı ki, onun salonunda xeyli sərnişin var idi. Amma sürücü nasaz avtobusla sərnişin daşıyırdı. O, sürücüyə inzibati protokol tərtib edilməklə yanaşı, avtobus müvəqqəti duracağa aparıldı. Digər bir mikroavtobusun sürücüsü isə texniki nasazlıqla yanaşı, mikroavtobusun konstruksiaysında dəyişiklik eləmişdi.







Tədbirdə iştirak edən Baş Dövlət Yol Polis İdarəsinin Avtotexniki Müfəttişlik şöbəsinni baş inspektoru, polis polkovnik-leytenantı Toğrul Mustafayev dedi ki, bu cür tədbirlər may ayının 1-dən bütün respublika ərazisində keirilir. Biz də şöbənin əməkdaşı kimi bu tədbirlərdə yaxından iştirak edirik. Bugünkü tədbir də göstərir ki, aparılan maarifləndirmə işlərinə baxmayaraq, bir çox sərnişin daşıyan və yük maşınlarını idarə edən sürücülər nəqliyyat vasitələrini texniki cəhətdən nasaz saxlayırlar. Bu isə atmosferə normadan artıq zərərli qaz atmaqla yanaşı, həm də nəqliyyat vasitəsinin qəza törətməsinə şərait yaradır.



Ekoloji Nəzarət üzrə Yol Patrul Xidməti Bölüyünün taqım komandiri, polis kapitanı Rəşad Bayramov dedi ki, "Təmiz hava" aylığının keçirildiyi ilk gündən bütün nəqliyyat vasitələri stasionar postumuzda müayinədən keçirilir. Ən çox da atmosferə zərərli qazlar, sərnişin daşıyan və eləcə də yük daşıyan dizel yanacağı ilə işləyən nəqliyyat vasitələrindən atılır. Biz gün ərzində 60-70 belə nəqliyyat vasitəsini aşkar edirik. Onlara inzibati protokol tərtib olunur və 50 manat məbləğində cərimə edirlər. Əgər sürücü 10 gündən sonra o texniki qüsuru aradan qaldırmasa, həmin nəqliyyat vasitəsi saxlanılarkən yenə də sürücü barəsində inzibati protokol tərtib olunur. Bir sözlə, hər bir sürücü müəyyən olunmuş vaxtda texniki qüsuru aradan qaldırmalıdır ki, sonradan o, cərimə edilməsin.




Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirli də bu tədbirdə iştirak edirdi. Cənab kapitan dedi ki, keçirilən tədbirlər zamanı avtonəqliyyat vasitələrinin texniki sazlığının daim diqqət mərkəzində saxlanılmasının əhəmiyyəti barəsində sürücü və sahibkarlarla mütəxəssislərin iştirakı ilə maarifləndirici söhbətlər aparlırır, ətraf mühitə atılan tullantılarda müəyyən edilmiş normadan artıq çirkləndirici maddələr olan avtomobillərin idarə edilməsinə və onların istismara buraxılmasına yol verən şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görülür.

Bir daha sürücülərdən, eləcə də sərnişin və yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərdən istifadələrində olan avtomobil vasitələrinin texniki cəhətdən saz vəziyyətdə istismar etmələri xahiş olunur.

**Göründüyü kimi, hələ "Təmiz hava" aylığı iyun ayının 1-dən davam edəcək və eyni zamanda Baş Dövlət Yol Polisi İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə hər gün tədbirlər keçirir. Ona görə də sürücülər diqqətli olmalı, hər iki qurumun tövsiyyə və tapşırıqlarına əməl etməli, nəqliyyat vasitələrini texniki cəhətdən saz saxlamaqla atmosferə normadan artıq zəhərli qazlar atmamalıdırlar. Bu, ekologiyamızın, təbiətimizin və təmiz havamzın, o cümlədən insnaların sağlamlığının qorunması deməkdir.**

**FAİQ QİSMƏTOĞLU**

# Hərəkətin təhlükəsizliyi təmin edilir

**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 5-ci tağımının əməkdaşları "20 Yanvar" dairəsində və "Şamaxinka" istiqamətində bir qayda olaraq hər gün hərəkətin təhlükəsizliyini təmin edirlər. Belə ki, səhər və axşam saatlarında bu istiqamətdə sıxlıq yarananda əməkdaşlar qısa zaman kəsiyində o sıxlığı aradan qaldırır və hərəkət axınının təhlükəsizliyini təmin edirlər. Eyni zamanda, "20 Yanvar" dairəsindəki dayanacaqlarda oranı zəbt edən və avtobusların hərəkətinə maneçilik törədən taksilər mütəmadi olaraq ordan uzaqlaşdırılır və avtobusların dayanacaqda sərnişin düşürməsinə və götürməsinə normal şərait yaradır.**



Biz həmin ərazidə olarkən 5-ci tağımın əməkdaşı Hacıyev Elmir Rəhim oğlu və onun iş yoldaşları ilə görüşdük.

Onlar "20 Yanvar" dairəsində avtomobil axınının çox olduğu vaxtda hərəkəti tənzimləyir, çətin vəziyyətdə olan piyadalara kömək göstərir və onlara təyin olunmuş yerlərdən keçməyi tövsiyə edirdilər. Təbii ki, bu piyadalar üçün daha əlverişlidir.

5-i tağımın komandiri, polis kapitanı Nurlan Əliyev bildirir ki, əməkdaşlarımız kobud qayda pozuntularına qarşı çox ciddi mübarizə aparırlar. Amma bu istiqamətdə ən çox "dayanma, durma" qaydalarının pozulması faktları aşkar olunur. Eyni zamanda, sürücülərə izah edilir ki, sıxlıq zamanı onlar səs siqnalından istifadə eləməsinlər və bir-birinə hörmətlə yanaşsınlar. Sürücü mədəniyyəti yüksək olanda istər-istəməz yol-nəqliyyat hadisələri də azalır və hərəkət iştirakçılarının təhlükəsizliyi təmin edilir.

Ümumiyyətlə, səhər və axşam saatlarında xidmət apardığımız yollarda daha çox sıxlıq yaşanır. Biz həmin yerlərə əlavə naryadlar göndərir və mövcüd problemi qısa zamanda aradan qaldırır, hərəkətin təhlükəsizliyini və intensivliyini təmin edirik. Bir sözlə, xidmət apardığımız növbə ərzində ona çalışırıq ki, ağır qəzalar baş verməsin, ölüm və xəsarət alma halları olmasın. Bunun üçünsə yol polisi ilə yanaşı, sürücülər və hərəkət iştirakçıları da yol hərəkəti qaydalarına əməl etməlidirlər.

**EMİN FAİQOĞLU**

# Hasratyan: «1988-ci ildə «Artsax bizimdir» deyən xalq hanı, niyə susur?»

**Ermənistan Baş naziri Nikol Paşinyan mediaya verdiyi "Bəli, Ermənistan Azərbaycan ərazisini 86 min 600 kvadrat kilometr olaraq tanıyır, bura Qarabağ da daxildir" açıqlama erməniləri əslində mənən məhv edib.**





(Hasratyan paylaşımına bu fotonu əlavə edib)

Adalet.az xəbər verir ki, "mənən sındırılanlardan" biri də Qarabağdakı qondarma qurumun "silahlı qüvvələrinin informasiya və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Senor Hasratyan öz facebook səhifəsində bununla bağlı paylaşım edib:

"1988-ci ildə Ermənistanın şərq tərəfində azadlıq hərəkatı genişləndə Ermənistan Milli Azadlıq Ordusu "Artsax bizimdir..." dedilər.

90-cı illərin müharibəsində, biz düşmənə öz iradəmizi tətbiq edərək, illər boyu Artsax Ermənistan Milli Ordusu üçün birlik, qürur və ləyaqət simvolu oldu.

Sonra da düşmən gəlib gözünü qırpmadan minlərlə əsgərimizi məhv etdi və ərazilərimizi aldı. Bu gün manqurt biri "Azərbaycanın "86,6 min kv. km ərazisini tanıyan və ora Dağlıq Qarabağa da daxildir"-deyərkən xalq buna nədənsə susur, biganədir...

Biz beləyik... Cəmi üç onillik ... yorğun və nəfəsi tükənmiş bir xalq... Sonra da "dünya ədalətsizdir..." deyirik, əslində ədalətsiz olan dünya deyil, biz öz taleyimizə qarşı vicdansızıq, biganəlik olmasaydı indi millət dünənin qəhrəmanlarını yox, ölkəni bu vəziyyətə gətirən əclafları rədd edərdi".

Qeyd edək bu həmin Senor Hasratyandır ki, bu ilin yanvarında statuş paylaşaraq yazmışdı ki, düşməni məcburən inandırmalıyıq ki, tezliklə Şuşada, Əsgəranda və ya Hadrutda olacağıq. Ya diplomatik yolla, ya da silahlarımızla:

"Şuşada Vazgenin düşmən tərəfindən məhv edilmiş heykəlini yenidən inşa etməliyik və Əsgəran rayonunun girişində xaçkar abidəsini bərpa etməliyik. Yalnız bu halda erməni xalqına ümid dolu bir gələcək bəxş edə bilərik. Qarabağ ermənilərinin arzularını həyata keçirmək üçün düşməndən daha məqsədyönlü və ardıcıl addımlar atmalıyıq. Yoxsa düşmən bizi və xalqımızı bu nəcib hisslərdən məhrum edəcək" .

***P.S.*** **Əli hər şeydən üzülən S. Hasratyan indi də keçən keçmişini yığıb ortaya...**

**Əntiqə Rəşid**

*Seyfəddin Altaylı*

# DOSTLARIMLA SÖHBƏT



***1985-ci ildə TRT Türkiyənin Səsi Radiosunun Azərbaycan verilişləri redaksiyasına rəhbər olduqdan sonra mərhum ağabəyim Müzəffər Özdağ ilə tez-tez görüşməyə başladım. Onu daha öncədən tanıyırdım, ancaq aramızda o qədər də səmimiyyət yaranmamışdı, çünki görüşlərimiz müəyyən yığıncaqlarda ayaqüstü söhbətlərlə axıra çatmışdı. Ankarada işə başladıqdan sonra görüşlərimiz intensivləşmişdi. 1991-ci ildə üzvü olduğum Azərbaycan Kültür Dərnəyinin Azərbaycanla bağlı siyasətinə müxalif olduğuma görə "Azərbaycanı Tanıtma Dərnəyi"ni dostlarımla yaratmışdım. Müxalif olmağımın səbəbi də AKD-nin Azərbaycanın daxili işlərinə qarışmaq istəməsindəndi. Onlara "Bizim məqsədimiz Azərbaycanın müstəqil olmasıdır. Xalqımız süverənlik qərarına yetişmişdirsə, xalq öz rəhbərini seçəcəkdirsə biz ancaq qardaş dövlətin möhkəmlənməsi və qardaş xalqın azad, firavan yaşaması üçün onlara kömək olmalıyıq" düşüncəsi idi. Azərbaycan Milli Hərəkatının lideri mərhum əbülfəz Elçibəyə hədsiz sevgi və hörmət bəsləyirdim. əminəm ki o da mənə hədsiz sevgi bəsləyir və etimad edirdi. Milli Hərəkat zamanı ona və Hərəkata bütün gücümlə dəstək oldum, dostlarım buna şahiddir. Türkiyədə və Avropadakı dostlarımı daim bu hərəkata dayaq olmağa yönləndirdim, ancaq Azərbaycan xalqının kimi seçəcəyi məsələsinə qarışmadım, qarışmağa nə ixtiyarım, nə də salahiyyətim vardı. Bu gün də eyni düşüncədəyəm.***

***Azərbaycanla bağlı düşüncələrimi və səmimiyyətimi bildiyinə görə mərhum prezidentimiz Heydər Əliyev "Dünya Azərbaycanılarının Birinci Qurultayı"nda məni həm redaksiya heyətinə, həm yüz nəfərlik əlaqələndirmə şurasına həm də prezidentimiz İlham əliyevlə birlikdə idarə heyətinə seçdirmişdi. Bir sözlə dünən nə idimsə bu gün də eləyəm***

***Ermənilər 1988-ci illərdən başlayaraq ruslardan gördükləri dayaq ilə Azərbaycan torpaqlarına təcavüz edir, hücum çəkdikləri kəndlərdə, şəhərlərdə soyqırımlar törədirdi. Belə bir zamanda mərhum Müzəffər Özdağ ilə sıx-sıx görüşür və öhdəmizə düşən işləri görürdük, mən cəmiyyət xəttində o da dövlət nəzdində. "Müstəqil Azərbaycanla Həmrəylik Təşkilatı"nı yaratmışdıq, rəhbəri Müzəffər Bəy mən də təşkilatın katibi təyin olunmuşdum. Ailəsinə, oğulları Ümit Özdağ və Savaş Özdağa da çox yaxın biri, daşıdığım milli mentalitetə görə ailənin sevimlisi idim.***

***Müzəffər Bəyin ailəsi əslən Kumuk-Qıpçaq köklü idi. Rusların Qafqazı işğal etdikləri və soyqırım törətdikləri zaman üzlərini Türkiyəyə tutaraq Anadoluya köçən bir ailənin evladı kimi məskunlaşdıqları Kaysəri şəhərinin Pınarbaşı qəsəbəsində dünyaya gəlmiş, hərbi məktəbi və hərbi akademiyanı həmçinin Ankara universiteti hüquq fakültəsini bitirmişdi. General Camal Gürsəlin rəhbərliyində 27 may 1960-cı ildə həyata keçirilən hərbi çevriliş zamanı qurmay yüzbaşı kimi iştirak etmiş, yaradılanMilli Birlik Komitəsində vəzifə icra etmiş və komitə müəyyən səbəplərə görə dağıdıldığından Tokioya sürülmüş, oradan qayıtdıqdan sonra Alparslan Türkeş ilə birlikdə Cümhuriyyətçi Köylü Millət Partiyasına daxil olub millətvəkili olmuş və 2002-ci ildə dünyasını dəyişmişdir.***

***Mərhum Müzəffər Bəyin mənim yetişməmdə böyük əməyi vardır və ömrümcə onu unuda bilmərəm. Ona həmişə "mənəvi ata" deyə xitab edirdim. Dəfələrlə "Türk dünyası bir bədən, onun başı Türkiyə, boğazı Azərbaycan və gövdəsi də Asiya Türklüyüdür. Bu gün o boğaza sancılmış paslı erməni xəncəri çıxarılıb atılmalı və Türk dünyası coğrafi olaraq bütövləşməli, bir-birini çox yaxşı tanımalıdır" deyirdi.***

***Oğlu Ümit Özdağ o Tokioda sürgündə olduğu zaman dünyaya gəlmiş, təhsilini Almaniyada Münxen Ludwig Maximilian unirversitetində almış, Qazi Universitetində magistr bitirərək burada müəllim işləmiş dossent sonra da professor unvanını almış, Avrasiya Strateji Araşdırmalar Mərkəzinin yaranmasında iştirak etmiş, 21-ci Yüzil Türkiyə İnstitutusunu qurmuş, bu gün də bu vəqfin də rəhbərliyini yeritməkdədir.***

***Sinan Oğan İgdir vilayətinin Mələkli kəndindəndir. Ailəsi Azərbaycan köklüdür. Həddən artıq yaxından tanıdığım və sevdiyim bir insandır. Əmisi Ənvər Oğan mənim orta məktəbdə və lisədə tarix müəllimim olub. Sinanın qohumları Beytullah və Akif Oğan ilə altı il eyni sinifdə oxumuşuq, kəndlərində tanımadığım çox az insan vardır. Sinan Bey, Marmara Universiteti məzunu, Moskva Beynəlxalq əlaqələr Universitetinin Siyasət Elmi bölməsində doktorluq unvanını almış, Azərbaycanda işləmiş, Rusiya-Ukrayna Araşdırmaları şöbəsini idarə etmiş, Türksam adlı təşkilatı qurmuş və rəhbərliyini yeritməkdədir.***

***Əziz dostlarım, bu gün Türkiyə aydınlıq və qaranlıq olan iki tərəfdən birini seçmək məcburiyyətində buraxılmışdır. Bunda da ən böyük oyunu Amerika ilə Rusiya oynamışdır. Bu iki imperialisd dövlətin zərbələri ilə İraq və Suriyanın başına gətirilən bəlalar, milyonlarla ocağın söndürülməsi, milyonlarla insanın qaçqın düşüb Türkiyəyə yönəldilməsi və indiyə kimi yalnızca Suriyalılar üçün 150 milyard dollardan artıq vəsaitin xərclənməsi (bunu cümhurbaşqanı ərdoğan açıqlamışdır), əfqanıstandan çəkilən Amerikanın xüsusi səyləri ilə hərbi təlimdən keçirdikləri iki milyondan artıq əfqanlı gəncin Türkiyəyə soxulması və Türkiyənin də buna boyun əyməsi, Suriyada PKK-ya bir kürd dövləti yaradılması yolunda on minlərlə tırla yollanan silah-sursat, tank, həlikoptər və bu kürd dövlətinin qurulması üçün göstərilən canfəşanlıq Türkiyəni sevən ziyalıları dərin düşüncələrə yönəlməyə vadar edir. Bir tərəfdə bunlar olarkən digər tərəfdə "Mən Türkiyənin bayrağına nifrət edirəm, Türk adı məni narahat edir, o ad hər dövlət qurumundan götürülməli, Türkiyə adı dəyişdirilməlidir" deyən Hüda-Parın rəhbəri və yoldaşlarının millətvəkili seçilib məclisə soxulması qarşısında nə edilə bilərə Dərin-dərin düşünməkdən və olacaqlara çarə axtarmaqdan savayı nə edilə bilərə***

***Ümit Özdağ və Sinan Oğan Türk dünyasını və xüsusən də Azərbaycanı könüldən sevən iki qiymətli şəxsiyyətdir. Ümit Bəy partiyasının adını Qarabağda qazanılan zəfərə görə "Zəfər Partiyası" qoymuşdur.***

***Azərbaycanlı dostlarımız əmin və arxayın olsunlar. Ümit Özdağın və Sinan Oğanın olduğu yerdə Azərbaycanın xilafına heç bir iş görülə bilməz.***

***Su axacaq sunurunu tapacaqdır...***

## "Valideyn övladıyla doyumlu bir vaxt keçirsə, hansısa oğlana.."

**"Əvvəla onu deyim ki, kiçikdən-böyüyə hər kəsi mobil telefon, sosial şəbəkələr ailəsindən ayırıb. Artıq övladlar telefonla ailələrdən ayrılıblar, övladların da, ailələrin də öz dünyası var"**

Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Psixoloq azyaşlı qızların telefonda tanış olmaq və evdən qaçmaq probleminə də toxunub: "Ailələrdə qızın sevgi, diqqət, qayğı aclığını ata, dostluq, sirdaş, başa düşməsini isə ana doldurur. Təəssüflər olsun ki, bizdə analar öz problemini, dərdini, evdə həyat yoldaşıyla olan söhbətini bilmədən qızlarla bölüşür və onları özlərinə dərd ortağı edirlər. Amma qarşısında qızlar onlarla dost olmurlar. Hər bir qızın və oğlanın bir dövrü var ki, o, əks cinslə danışmaq istəyir, özünü önəmli hiss edir, sosial şəbəkədə kiminləsə tanış olur və buna olan reaksiyalar isə valideynlər tərəfindən normal olmur. Tutaq ki, valideyn görür ki, qızı bir oğlanla danışır onunla empati qurub, yaşını nəzərə alıb hansa məsləhəti verməkdənsə, ona ciddi qadağalar qoyur, telefonu əlindən alır, nədənsə məhrum edir və daha çox qızı və yaxud oğlanı o tərəfə maraqlandırır. Əgər valideynlər bu ehtiyacların da normal dozada olduğunu bilsə və onlarla vaxt keçirsə, doyumlu bir həyat yaşayan qız heç bir oğlanla qoşulub qaçmaz. Demək ki, xoşbəxt deyil. İndi haqqında danışdığımız 13 yaşlı qızda isə bir uşaq obrazı var. Yəni valideynlərlə bir söhbət aparmaq lazımdır".

**Vasif Əlihüseyn**

# *Yazıçı Seyran Səxavət:* "Füzuli Təhsil Şöbəsinin müdirinin atası Şaumyan..."

**Son 2-3 ayda bəzi media orqanları Füzuli rayon Təhsil Şöbəsinin müdiri Ramella Məmmədova haqqında ictimaiyyətə müxtəlif səpkili məlumatlar ötürür. Bunlardan ən vacibi və hazırda azərbaycanlılarda qıcıq yaradacaq biri də R. Məmmədovanın atasının adının "Şamuyan " olmasıdır. Bir araşdırmaçı -jurnalist olaraq fakt çox diqqətimi çəkdi və öz profilimdə Füzuli rayonundan olan soydaşlarıma sorğu ünvanladım: "Doğrudanmı,bəzi saytların yazdığı kimi Ramella xanımın atası Şaumyan adlı bir ermənidir?" Sorğumuza ilk cavab verən sevimli yazıçı Seyran Səxavət oldu.**





Adalet.az tanınmış yazarın fikirlərinin nöqtə -vergülünə toxunmadan sizin diqqətinizə çatdırır. Seyran müəllim bildirir ki, Ramella xanımı şəxsən tanımır, heç vaxt qarşılaşmayıblar Amma onun atası Şaumyanı yaxından tanımışam:

"Allah rəhmət eləsin, çox ləyaqətli və nəzakətli türk oğludur, yerini , sözünü bilən adam idi. Şahinin(dəyişdirilmiş adı) adının belə qoyulması onun anadan olduğu dövrdə - Stalin hökümətinin türk millətindən olan ziyalıları, sovet rejiminin mahiyyətini anlayan və etiraz edən siniflərin yox edilməsi, represiyaya məruz qalması dövründə olub. Valideynlər Sovet hökümətinin başında duranların türk düşmanlığını anlayır və özlərini də, övladlarını da qorumaq üçün bu üsuldan istifadə ediblər.

Digər bir tərəfdən sovet təbliğatı elə inkişaf edib, elə geniş vüsətlə yayılmışdı ki, azərbaycanlılar hamını dost-qardaş kimi qəbul etmişdi. Yadınıza gəlir" Kür, Araz, Ararat, gözəldi bu həyat, Qardaş olub Hayastan Azərbaycan" mahnısı...

Azərbaycanda 31 mart soyqırımının əsas təşkilatçısı olan, qatil S. Şaumyanın adını daşıyan 74 kolxoz, sovxoz, rayon, qəsəbə, küçə, prospekt vardı. DQMV-nin mərkəzi olan Xankəndi şəhərinə bu erməninin adı verilmişdi. Stepanakert! Hətt Bakı şəhərinin ən böyük rayonu olan Xətai uzun illər (1932-ci ildən 1990-cı ilədək) Şaumyanın adını daşıyıb. Aşağı Ağcakənd kəndinin əvvəlki adı Şaumyanovsk olub. Şaumyanın adına şəhər, kənd, küçə salmağa, ona heykəl qoymağa mərkəzi komitə, xüsusən Moskva tələb edirdi. Dərsliklərə salınırdı bu qatil . Təbliğat o qədər güclü idi ki, övladının adını Vİlen, Sovxoz, Sovet, Kommunst, Marks, Vladimir , Komsomol, Traktor, Kombayn, Kolxoz, Oktyabr, Bolşevik, Prikaz qoyanlar vardı. Sovet təbliğatının məhsulu deyildisə, bu nə idi?

Qanımızı tökən, xalqımızı qıran Stepan Şaumyanı düz 70 il qəhrəman kimi bizə sevdirən də o rejim olub. O dövr elə idi. O dövrdə kim erməniyə düşmən kimi baxıb ki? Kimi süfrəsinin başında erməni oturtmayıb ki? Qaldı da, Ramella xanımın bir təhsil şöbəsinin rəhbəri kimi necə işləməsinə, Azərbaycanın bütün təsil şöbələri kimi, Azərbaycan təhsil sisteminin əməkdaşı kimi öz işinin başındadır.

Şahin adını 1988-ci ildə sovet hökümətinə etiraz əlaməti olaraq özü dəyişdi. Amma bir də təkrar edirəm Şahin(Şaumyan) türk oğlu türkdür və həm də ləyaqətli insan olub!"

Qeyd edək ki, Məmmədova Ramella Şahin qızı 15 noyabr 1958-ci ildə Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olub.

1965-ci ildə Qoçəhmədli kənd orta məktəbinin I sinfinə gedib,1975-ci ildə həmin məktəbi bitirib.1977-ci ildə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Filologiya fakultəsinə qəbul olub.1982-ci ildə həmin institutu bitirib və 1983-cü ildən Füzuli rayon 4№-li orta məktəbdə müəllim vəzifəsində çalışıb. 2000-ci il dekabrın 1-dən ATİAHİ-nin Füzuli rayon komitəsinin sədr vəzifəsinə təyin edilib. 2008-ci ildə Respublikanın Əməkdar Müəllimi fəxri adına layiq görülüb.2016-cı il yanvarın 15-dən Füzuli rayon Təhsil Şöbəsinin müdiri vəzifəsində işləyir.

***P.S.* Füzuli rayon Təhsil Şöbəsinin müdiri xanım Ramella Məmmədovanı yaxından tanıyanlar rayon adamlarından bir neçəsi də bizimlə əlaqə saxlayaraq bildirdi ki, o vətəni, dövləti, xalqı uğrunda hər əziyyətə qatlaşmağı bacaran əqidə adamıdır.**

**Əntiqə Rəşid**

# *"Biz şəhid tədbirində olanda anaların ürəyi dağa dönür..."*

**"Şəhid Emin İsmayılovun 22 yaşı tamam olması münasibətilə mən də məclisdə iştirak etdim. Bəstəkar Ruslan Səfəroğlu tərəfindən dəvət olunmuşdum. Ruslan Səfəroğlunun şəhid Emin haqqında yazdığı bəstəsini ifa etdim. Şəhidimizin anası Məlahət xanım çox gözəl insandı, onu da çox gözəl tanıyıram"**



Bunu Adalet.az-a açıqlamasında Xalq artisti Gülyanaq Məmmədova deyib. Müğənni daim şəhid tədbirlərində iştirak etdiyini və bunu bir vətəndaş borcu olduğunu bildirib: "Bundan öncə şəhid Raminin tədbirində də olmuşam. Yəni harda şəhid tədbiri varsa, çalışıram orda anaların yanında olum. Ancaq mahnılarımla çalışıram şəhid analarımıza təsəlli verəbilim. Onların yarası, acısı çox böyükdür. Biz o tədbirlərdə iştirak edəndə qəlbləri dağa dönür ki, şəhid balamın tədbirinə onu sayıb gələn müğənnilər var. Ona görə də bunu özümə borc bilirəm. Ruslan Səfəroğlu, mən və Gülyaz xanım şəhid ailələrinə dəstək olmağa çalışırıq. Amma bəzən olur ki, vaxtım olmur, çatdıra bilmirəm. Yəqin ki, bundan şəhid analarımız inciməz. Bu aralar çoxlu şəhid mahnıları oxumuşam. Şəhid Rauf üçün Sevinc Tofiqqızının mahnısını, Yaqut Almazın şəhidlərə həsr etdiyi bəstələrini, Gülşən Rafiqqızının şəhid Elçinə yazdığı bəstəsindən oxumuşam".

Qeyd edək ki, şəhid Emin Tahir oğlu İsmayılov 21 may 2001-ci ildə Nəsimi rayonunda anadan olub. Ailəsi əslən Cəbrayıl rayonundandı. 2020-ci il Vətən müharibəsi zamanı Emin Kəlbəcər istiqamətində gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra ölkə başçısı tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medallarıyla təltif olunub.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif Əlihüseyn**

# Ədəbiyyatımızın ELÇİNİ

## (Elçin Əfəndiyevin doğum gününə)

**Azərbaycanın ədəbi mühitinə və bədii sözün izləyicilərinə bəlli olan bir gerçəklik var. Həmin gerçəklik də ədəbiyyatımızın cəfakeşi, yaradıcılarından ən öndə gedənlərindən və tanıdanlarından olan Elçin müəllimin doğum günü ilə bağlıdı! Yəni, həm dolaysı, həm də birbaşa demək istəyirəm ki, bu il Elçinsevərlər özlərini ədibin yubley notunda kökləyiblər. İstər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda Elçin müəllimi oxuyanlar Azərbaycan yazıçısının həyat və yaradıcılığı özləri üçün daxilən yeniləyirlər.Bu yubley sanki bizim yaddaşımıza bir göstəriş verib və biz də həmin zəruri göstərişə uyğun olaraq yazıçı Elçini ilk hekayəsindən bu günümüzə qədər cilidlənən kitablarını vərəqləyirik...**



Elə buradaca xatırladım ki, mənim özümə görə yazmaq vərdişim, üslubum var. Adətən kiminsə barəsində yazı yazmağa başlayanda sözün hardan başlayıb harda bitəcəyini düşünmürəm. İçimdə, ağlımda olanları bir-birinin ardınca söyləyib yazımın məramını, məqsədini ortaya qoyuram. Və təbii ki, ürəyimin səsi, ağlımın hökmüylə yazdığım bu yazılarda qəhrəmanıma, yazımdakı obraza münasibətimi də olduğu kimi sərgiləyirəm. Necə deyərlər, özüm hansı haldayamsa, yazım da elə onun ifadəsinə çevrilir.Düşündüyüm, dərk etdiyim nədir, necədir onu yazıram...Özgə arşını ilə , kimin nə deyəcəyi ilə yox , öz arşınımın məndəki təsdiqlənmiş nəticəyə söykənib yazıram... Amma...

Amma bu gün ağlımda bir əmma var! Düşünürəm ki, mən bu yazı yükünün altından çıxa biləcəmmi? Və mən Elçin müəllimin yubleyi ilə bağlı oxucu sözünü dilə gətirməklə ölçülərdən kənara çıxmıram ki?

Bu məqamda bir zəruri qeyd etməliyəm - Bəli, bu yazını yazmaq mənim üçün çox çətindi. Çünki artıq Elçin müəllim məni tanıyır, Şuşaya,yəni Vaqif poeziya bayramlarına səfərdə onunla həmsöhbət olmaq, telefonla fikir bölüşmək xoşbəxtliyim və fürsətim olub! Bax, bu səbəbdəndi ki, hörmətli Elçin müəllimin doğum günündə bir oxucu, bir jurnalist və nəhayət, həm də bir şair kimi fikir söyləmək mənə çox çətindir.

Lakin daxili istəyimin mənə diqtəsi ilə bu yazını xalq yazıçısı Elçin Əfəndiyevin oxucusu olaraq onun doğum gününə ünvanlayıram. Və bir yazımda da vurğuladığım kimi, hələ doğulduğum Tuğ kəndində, orta məktəbdə oxuduğum illərdən tanıyıb sevmişəm Elçin Əfəndiyev yaradıcılığını. Xüsusilə onun unudulmaz xalq yazıçımız İlyas Əfəndiyevin oğlu olduğunu biləndən sonra ürəyimdə qəribə bir hiss baş qaldırmışdı. Özüm-özümə sual verirdim ki, görəsən iki yazıçı bir evdə mövzuları, yazdıqlarını müzakirə edirlərmi? Bir-birlərilə iki qələm adamı olaraq hansı mövzularda mübahisələri olur? Məni qınamayın. Bu bir orta məktəb şagirdinin, bir cavan oğlanın tam səmimi duyğularından doğan sual idi. İllər keçdi və mən Elçin Əfəndiyevi həyatda da görməyə başladım. Müxtəlif tədbirlərdə çıxışlarını dinlədim. Xüsusilə İlyas Əfəndiyev cənnətə köçüb haqqa qovuşandan sonra İlyas müəllimlə bağlı keçirilən tədbirlərin böyük əksəriyyərtində iştirak etdiyimdən mən Elçin müəllimi orada yaxından görürdüm. Hətta bir dəfə şair dostum, qardaşım, ailəvi bağlılığım olan Çingiz Əlioğlu Milli Dram Teatrın foyesində tamaşaya gələn Elçin müəllimlə əhvallaşanda məni də yaxınlaşıb görüşməyə dəvət edir. Bir az ehtiyatla Elçin müəllimə yaxın gəldim və salam verdim. O da əlini uzatdı... Bax, bu mənim Elçin müəllimlə Şuşa ziyarətimizə qədər olan üzbəüz yeganə görüşüm idi...

Elçin Əfəndiyev mənim üçün gözəl novellaların, xüsusilə "Baladadaşın ilk məhəbbəti"nin müəllifidi... Elçin müəllim mənim üçün "Bir görüşün tarixçəsi", "Ox kimi bıçaq", "Mahmud və Məryəm"... " "Bayraqdar", "Toyuğun diri qalması", "Gümüşü furqon", "Dolça" ,"Ağ dəvə", "Ölüm hökmü", " Baş" romanını müəllifidi... Elçin müəllim ayrı-ayrı şəxslər barəsində xatirə yazıların müəllifidi... Hansı ki o yazılar - xatirələr barəsində söhbət açılan şəxsləri bizlərə yenidən və həm də ətraflı şəkildə tanıdır...Elçin müəllim mənim üçün düşündürməyi və inandırmağı bacaran səhnə həyatı verdiyi obrazların müəllifidir... Elçin müəllim mənim üçün həm də ədəbi düşüncəylə fəlsəfi düşüncəni bir-birinə calaq edən yox, bir-birində ifadə edən yazıçı alimdi... nasir, həm də filosofdu... Ona görə də onun oxuduğum əsərlərini demək olar ki, hamısında mən hər bir sözün arxasında ikinci və bəzən də üçüncü sözün dayandığını görürəm. Sözlər qat-qatdı, bir -birinin arxasında dayanan insanlar kimi. Oxuduğun anda sənə adi görünür. Sonra həmin O görüntü səniyavaş və sakitcə özünə tərəf çəkir və başlayırsan gördüyünün ardınca getməyə. Gedib sonsuzluğa yox, işığa çatırsan. Sözün məbədində qaynayan o bulağın gözündə bütün rənglərin, bütün gözəlliklərin və həyatla insanın mücadiləsinin şahidinə çevrilirsən. Burda söhbət daha çox yaşatmaqdan, yaratmaqdan gedir.

Dağıtmaq, məhv etmək istəyinə qarşı çıxmaqdan gedir. Və nəhayət, Elçin müəllimin bir nasir, bir dramaturq, bir ədəbiyyatşünas kimi oxucu önünə çıxardığı hər bir fikir, hər bir əsər dərhal müzakirə ünvanına çevrilir. Çünki təzə tərdi... Çünki hamının dediyi formada yox, məhz Elçinin dediyi formada ortaya qoyulubdu. Bu, özünəməxsusluqdu! Bu mənə görə həm də Elçinşünaslıqdı! Mən Elçin Əfəndiyevin oxucusu olaraq özüm üçün bir gerçəkliyi də müəyyənləşdirmişəm və o gerçəkliyi özümün haqqım kimi qəbul etmişəm. Bu gerçəklik də mənə görə, bundan ibarətdir ki, Elçin Əfəndiyev pafos yazıçısı deyil. Elçin Əfəndiyev gerçəyin, yəni oxucunun yazıçısıdı! Və mən sevinirəm ki, bu gün Azərbaycan söz məkanından kənara çıxaraq Azərbaycan ədəbiyyatını tanıdanların önündə Elçin Əfəndiyev də var!

Bu yer onun həm haqqıdır, həm də oxucularının ona verdiyi missiyadır! Bu gün Azərbaycan ədəbiyyatının öncüllərindən biri olan Elçin Əfəndiyev bizim üçün, Azərbaycan üçün, ədəbiyyatsevərlər üçün yazıb yaradır.

Bu gün ömrünün 80-ci baharını-yayını yaşayan və yazıb-yaradan Elçin müəllim barəsində ən yüksək mərtəbələrdə, səviyyələrdə fikir bildirilir...münasibət ifadə olunur..təbriklər deyilir, yazılır...Bunların hamısı da birmənalı olaraq Elçin müəllimin halal haqqıdır! Düşünürəm ki, bir vətəndaş , bir yazıçı xoşbəxtliyi Elçin müəllimin ömürlüyünü bəzəyib! Bu xoşbəxtlik də onun Şişanı, Füzulini, bütün Qarabağı işğaldan azad görməsidi! Doğum gününüz də, bu xoşbəxtliyiniz də mübarək olsun, əziz Elçin müəllim!

***P.S.* Çox hörmətli Elçin müəllim, inanın ki, sizə ünvanladığım bu kiçik yazı istəklərimin tam səmimi ifadəsidir. O sizə layiq olmasada, hər halda, mən oxucunuz kimi yaradıcılığınızla bağlı düşündüklərimi çatdırmağa çalışdım...**

**Əbülfət MƏDƏTOĞLU**

# BAYRAM AĞRIDAĞIN "VEDİNAMƏ"Sİ



***Nizami CƏFƏROV,***
***akademik***

**Bayram Ağrıdağın keçən əsrdə dəfələrlə deportasiyaya məruz qalmış, gəlmə ermənilərin siyasi havadarlarının köməyi ilə öz doğma yurd-yuvalarından perik salınmış Vedibasar camaatına həsr etdiyi "Vedinamə" kitabına "Ata yurdum Vedibasar" və "Sarıbabaya salam" poemaları, eləcə də həmin mövzuda şeirləri daxildir.**

Kitab şairin anasına sonsuz məhəbbətinin ifadəsi olan təsirli şeirlərilə başlayır:

*Qəfil düşsəm əgər çətinə, dara,*
*Ümid bəsləmirəm nə dost, nə yara.*
*Müqəddəs ruhundu dərdimə çara,*
*Mənim qoruyanım bir Allah, bir Sən,*
*Ay ana, hər zaman ürəyimdəsən!*

Bu şeirlər bir də ona görə kitab - əsərin təbii girişi sayıla bilər ki, ideya-məzmunca yalnız ana mövzusu ilə məhdudlaşmır, ana yurd barədəki təəssüratlara qədər genişlənir. Və bu mövzunun arxasınca Vətən gəlir:

*Səndən özgəsini heç öyməmişəm,*
*Həqiqət önündə göz döyməmişəm,*
*Heç zaman heç kimə baş əyməmişəm,*
*Başımı tək sənə əyirəm, Vətən!*
*Mən sənə ürəyim deyirəm, Vətən!*

Sadəcə məzmunu yox, forması - təsirli alliterasiya, assonans ahəngdarlığı ilə də ürəyə yatan bu misralar, heç şübhəsiz, xalq şeirinin bitib-tükənməz yaradıcılıq imkanlarının özünəməxsus poetik çalarları olan ifadəsidir:

*Anam bəxş elədi nurlu dünyaya,*
*Vətənim çatdırdı sayğıya-saya,*
*Gülə məhəbbətim yüksəltdi Aya -*
*Öz anam, Vətənim, bir də öz Gülüm,*
*Mənim müqəddəsim, yarım, sevgilim.*

Hər cəhətdən görünür ki, şair bir tərəfdən ictimai ideyalarını (və ideallarını) qələmə alırsa, digər tərəfdən fərdi duyğularını da dilə gətirir. Bu isə onun şeirlərinə, ümumən yaradıcılığına sosial pafosla yanaşı, yüksək səmimiyyət aşılamaqla poetik təhkiyəsini həm məzmun-mündəricəli, həm də cəlbedici, təsirli edir. Onun təhkiyəsində xalq ədəbiyyatında olduğu kimi, keçmişlə bu gün, bu günlə gələcək assosiativ vəhdətdədir:

*Alovlansın qəlbdə közün,*
*Dərdə əlac - şair sözün.*
*Ağlamaqdan görmür gözüm,*
*Qələm, götür yaz dərdimi.*

*Həm Vedi, həm də Qarabağ,*
*Çəkib sinəmə çarpaz dağ,*
*Təbriz dərdi ən ağır dağ,*
*Heç də bilmə az dərdimi.*




*Hərdən yada salsalar da,*
*Hər gün dilə alsalar da,*
*Ovutmaz, hey çalsalar da,*
*Nə kaman, nə saz dərdimi.*

Şair əmindir ki, Azərbaycan xalqının gələcək taleyini həll edən, onu dünəndən sabaha aparan müqəddəs bir qüvvə - şəxsiyyət var ki, o da bu il 100 yaşını qeyd etdiyimiz Ulu Öndərdir:

*Dediyin ədalət zəfər çalıbdı,*
*İlhamın düşməndən qisas alıbdı,*
*Zəngəzur arzusu hələ qalıbdı,*
*Sən ey Haqq yolçusu, ey Peyğəmbərim!*
*100 yaşın mübarək, Ulu Öndərim!*

Ulu Öndər bəyan etmişdi ki, müstəqilliyimiz əbədidir, sarsılmazdır, dönməzdir... Və Azərbaycan dünyaya günəş kimi doğacaq!..

"Ata yurdum Vedibasar"ın əvvəlindəki ata şeirləri Bayram Ağrıdağın ana şeirlərinin davamı olaraq da diqqəti cəlb edir. Poemanın proloqunda şair yazır:

*Açdın neçə sirr-tilsimi,*
*Çaldın qəlbdə sarı simi.*
*Abbasqulu Şadlı kimi*
*Saya gəlməz ərənin var,*
*Ata yurdum Vedibasar!*

*...Gül-çiçəklər hər yaylağın,*
*Əzəmətli neçə dağın,*
*Coşqun çayın, "Gur bulağ"ın*
*Nəğmə olub qəlbdə coşar,*
*Ata yurdum Vedibasar!*

*... "Milli dərə" onlarla yurd,*
*Çatma, Mirzik, Şırlan, Bayburt.*
*Hər igidi bir şir, bozqurt,*
*Oğuzlardan bir yadigar,*
*Ata yurdum Vedibasar!*

Şair o qədər də böyük olmayan bir şeirdə Vedibasarın onlarla yurd yerinin adını çəkməklə bir daha elan edir ki, onun (və mənsub olduğu icmanın, cəmiyyətin, xalqın!) heç zaman pozulmayacaq müfəssəl etnoqrafik - tarixi yaddaşı var.

Poemanın "Qəhrəmanlar yurdu", "Vedibasar alimləri", "Vedibasar yazarları" başlıqlı hissələrində şair Vedibasardan çıxmış ayrı-ayrı şəxslərdən söhbət açsa da, "Vedibasar camaatı"nda vedililərin ümumi obrazını yaradır:

*Palazlara bürünmədi,*
*İlan kimi sürünmədi.*
*Heç vaxt "yazıq" görünmədi,*
*Qürurludur əsli-zatı,*
*Vedibasar camaatı.*

*Sığınıbdır bir Allaha,*
*Ümidləri var sabaha.*
*Ayrılığa dözmür daha,*
*Yəhərləyib kəhər atı*
*Vedibasar camaatı.*

Poema epiloqla sona çatır ki, burada Vedibasara müraciət - Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda mübarizəyə çağırış gələcəyə inam, etibardan irəli gəlir:

*Dığalardan olmaz ağa,*
*Xəbər göndər sola-sağa.*
*Arxalanıb Ağrıdağa*
*Eli ağır dərddən qurtar,*
*Ata yurdum Vedibasar!*

"Sarıbabaya salam" poeması məşhur üslubda - Şəhriyar üslubunda qələmə alınmışdır.

Doğrudur, birinci poemada da Şəhriyar ruhu duyulur, ancaq həmin ruh ikinci poemada, əgər belə demək mümkünsə, öz əksini bilavasitə tapmışdır:

*Düşərdi hay-haray hərdən obaya,*
*Girişərdik hayla dava-davaya,*
*Əl atardıq daşa, ağac, yabaya,*
*Əzişdirib hayın burnun ovardıq,*
*"Çaqqallar"ı ittək yurddan qovardıq.*

*...Anam sadə, halal zəhmət adamı,*
*Doymayırdı yüz yol alsa qadamı.*
*Bişirirdi qəndlə "noğul", "badam"ı,*
*Hamıdan çox məni əzizləyərdi,*
*Fəxarətlə "alim oğlum" deyərdi.*

*... "Tat hörrəsi" dərdə min dərman idi,*
*Babamın hər sözü bir fərman idi...*
*Qonşulara "qurban" idi, "can" idi,*
*Öz payını hər kəs gəlib alardı,*
*Nənəmə də bircə "sağ ol" qalardı.*

"Proloq"la başlayıb "Epiloq"la bitən poemada "Kəndimiz", "Uşaqlığım, ilk gənclik illərim", "Məktəbimiz, müəllimlərimiz", "Sinfimiz, camaatımız", "Ağrımız, acımız" fəsillərinin hər biri həm zəngin informativliyi, həm də eyni zənginlikdə emosional təəssüratı ilə seçilir. Və poema bu misralarla yekunlaşır:

*Sarıbaba, haylar sənə baxdı xor,*
*Xalisaya satqın xain qurdu tor.*
*Qəlbimizə ağır dərddən doldu qor,*
*Erməninin betər olur gəlməsi,*
*Dillərində "hayes, türkes?" kəlməsi.*

*...Sarıbaba, sənə məhəbbətimi,*
*İzhar etdim ilqar, sədaqətimi.*
*İtirmədim heç vaxt dəyanətimi,*
*Kim deyir ki, qəlbdə odum sönəcək?*
*Bir gün ölsəm, ruhum sənə dönəcək!..*

*...Sarıbaba, payla xışı, yabanı,*
*Çağır köməyinə eli-obanı.*
*Bu üzdən harayla "Heydərbaba"nı,*
*Səslə ərənləri havarla, hayla,*
*Qoy birləşsin "o tay"ımız "bu tay"la.*

Kitaba daxil edilmiş digər şeirlər Bayram Ağrıdağın təsəvvüründəki Vedibasar obrazını daha da dolğunlaşdırır. Və beləliklə, şairin "Vedinamə"si ideya-estetik mükəmməllik qazanmış olur.

**Əlbəttə, müəllif hər nə qədər kitabını iki poema və şeirlərdən ibarət toplu kimi təqdim etsə də, quruluşu (və yaratdığı poetik təəssürat) elədir ki, o, bütöv bir əsər olaraq dərk (və qəbul) edilir.**

# KAMİL İNSAN ÖRNƏYİ

**Bəli, o, bir örnəkdir - yurda bağlılığın, vətənsevərliyin, dostuluğun, ziyalılığın, el adamı olmağın, bir sözlə, kamil insan olmağın örnəyi! Sözü ilə əməli bir olmağın örnəyidir, Qarapapaq Borçalı KİŞİsidir! Həm də cəmiyyətə ləyaqətli övladlar bəxş etmiş ata kimi örnəkdir. Vətənin və yurdun, ana Vətəndən aralıda dilimizin keşikçisi olub, SÖZümüzün qeyrətini çəkib, onu urvatdan düşməyə qoymayıb.**

Mən onu əvvəlcə imzasından tanımış, şeirlərini sevə-sevə oxumuşam. Hər dəfə Məməd Coşqun adı çəkiləndə, yaxud imzasını görəndə xəyal məni təxminən əlli il öncəyə - yeniyetməlik və ilk gənclik illərimə aparır. Onda orta məktəbdə oxuyurdum. Hərdən ədəbiyyat dərsində müəllimlərimiz "Ən çox sevdiyiniz şair kimdir?" - deyə, sorğu aparanda ilk olaraq adını dilimizə gətirdiklərimizdən biri mütləq bu gün çoxlarının özünə ustad saydığı, həqiqətən də ustad şair olan Məməd Coşqun olardı. O zaman Gürcüstanda dilimizdə nəşr olunan bir neçə rəsmi qəzet var idi və biz bu mətbuat orqanlarındakı ədəbiyyat səhifələrini səbirsizliklə gözləyərdik. Sonradan tale elə gətirdi ki, bu böyük ürəkli qələm sahibi ilə yaxından tanış oldum, yaradıcılığını daha yaxından izləmək imkanım yarandı. Əgər əvvəllər həyata baxışımızın formalaşmasında əsasən şeirləri rol oynayırdısa, bu tanışlıq və yaxınlıqdan sonra bir ziyalı kimi şəxsi nümunəsindən çox şey öyrəndim.



Məməd Coşqun 85 illik ömrünün az qala 70 ilini Gürcüstanda yaşayan soydaşlarımıza xidmətə həsr edib, və özü də təkcə bədii yaradıcılıqla məşğul olmaqla kifayətlənməyib. Daim xalqın içində, hadisələrin mərkəzində olub, həm də daşıdığı vəzifədən irəli gələn ictimai fəallığı ilə diqqəti cəlb edib.

Onun həyat və fəaliyyətini bir qəzet məqaləsinin verdiyi imkanlar daxilində tam dolğunluğu ilə işıqlandırmaq çətindir. Çünki onun fəaliyyəti çoxşaxəli olub və bunların hər biri haqqında saatlarla danışmaq, irihəcmli yazılar yazmaq olar. Borçalılar və eləcə də Azərbaycanda yaşasa da, buradakı soydaşlarımızla müntəzəm əlaqəsi olan yaşlı və orta nəslin nümayəndələri onu təkcə istedadlı şair kimi yox, həm də ötən əsrin ortalarından (təxminən 60-cı illərdən sonra) Gürcüstanda Azərbaycan dilli mətbuatın inkişafında müstəsna xidmətləri olan cəsur bir jurnalist kimi tanıyırlar. 25 ilə yaxın Dmanisi (Başkeçid) rayonunda çıxan "Trialeti" qəzetində çalışıb, redaksiyanın Azərbycan bölməsinə rəhbərlik edib. Mətbuatın sərt qayda-qanunlarının hökm sürdüyü Sovet dövründə partiyanın mərkəzi və yerli təşkilatlarının orqanı kimi işıq üzü görən qəzetlərdə adət-ənənlərimizin, folklorumuzun təbliği, folklor örnəklərinin toplanması və qəzet səhifələrində buna geniş yer ayrılması həqiqətən böyük fədakarlıq tələb edirdi və bəzən bu kimi işlərin hansı çətinliklərlə, nələrin bahasına başa gəldiyini o dövrdə mətbuatla az-çox əlaqəsi olanlar yaxşı xatırlayır.

Onun Borçalıda jurnalist kadrların yetişməsində böyük rolu olub. Və onu özünə ustad sayanlar təkcə bu gün jurnalist fəaliyyəti ilə məşğul olanlar deyil, Borçalının, xüsusən də Başkeçidin yetirməsi olan neçə-neçə şair də onu özünün ustadı hesab edir. Bu "Ustad" xitabı onun halal haqqıdır! Çünki o, çoxlarının ilk qələm təcrübəsi olan şeirlərini rəhbərlik etdiyi qəzetdə çap edib, yaradıcılıq yolunda xeyir-dua verməklə yanaşı, həm də XX əsrin 70-80-ci illərində Tiflisdə fəaliyyət göstərmiş "Dan ulduzu" və "Çeşmə" ədəbi dərnəklərinin yaradıcılarından və bu yolda hər cür çətinliklərə mətanətlə sinə gərənlərdən olub.

Bu gün böyük fəxarətlə deyə bilərik ki, XX əsrin 60-cı illərindən sonra Gürcüstanda Azərbaycan ədəbiyyatının təşəkkülündə Məməd Coşqunun müstəsna xidmətləri var. Əgər ədəbiyyatımızın Borçalı qolu Azərbaycanın ədəbiyyatşünas alimləri tərəfindən ayrıca sistemli olaraq elmi araşdırmaya cəlb olunsa, o zaman bir şair, ədəbiyyat adamı, XX əsrin ortalarından bu yana borçalıların həyatında baş vermiş mühüm hadisələrin təkcə şahidi yox, həm də iştirakçısı olmaqla Borçalı tarixinin salnaməçisi, Borçalıdakı ədəbiyyatımızın canlı ensiklopediyası olan Məməd Coşqun böyüklüyü, Məməd Coşqun ucalığı daha aydın görünər.

Borçalıda hər adama ağsaqqal deməzlər. Məməd Coşqun isə, hər cür rəsmi və qeyri-rəsmi titullardan üstün olan bu adı hələ cavanlıqdan qazanan el adamı, ağsaqqal və ictimai xadimdir.

Və hərdən mənə elə gəlir ki, bu gün 85 yaşını qeyd etdiyimiz Məməd Coşqun elə 50 il bundan öncə də bu yaşda idi - dəyərli məsləhətləri, özündən cavanlara xeyir-duası, xeyirdə-şərdə daim xalqın arasında olması, haqqı-nahaqqa qurban verməməsi, bir sözlə, əsl el adamı olması ilə.

Və bu gün isə mənə elə gəlir ki, Məməd Coşqun 30-35 yaşlarında bir gəncdir - tükənməz həyat eşqi və gəncliyə xas yaradıcılıq enerjisi ilə!

**Zaman-zaman çox şey öyrənmişik bu örnək KİŞİdən! Bu gün də öyrənməkdəyik. Bundan sonra da ustad kimi bizlərə örnək olmaqda davam etməsi üçün ona uca Yaradandan sağlam və uzun ömür arzulayıram!**

**Musa Nəbioğlu**
**Əməkdar mədəniyyət işçisi**



*Əbülfət MƏDƏTOĞLU*

# TƏKLİYİMLƏ SÖHBƏT

## Sözün işıqlı anı

**Ürəyimdən səssizlik keçir. Sakit, heç kimin olmadığı mobil, elektron, daha nə bilim nələr,nələr olmayan bir guşə... Sadəcə su şırıltısı, yarpaq, ot xışıltısı, bir də quşların səsi. Yetər ki, bunlar mənim ayaqda olduğumu, yaşadığımı, mövcudluğumu xatırlatsın.Yəni bunların mövcudluğu və mənim bunlarla təmasım artıq özü-özlüyündə yaşadığımı,düşündüyümü büruzə verir. Və mən də həmin o düşüncələri sadəcə indi xəyal edirəm,ürəyimdən keçirirəm ki, kaş, o sakit guşəni heç olmasa bir saatlıq haqq edə bilim,onu mənə bağışlasınlar... o bir saatlıq anı yaşamaq imkanı, dəstəyi versinlər...**

**Düşünə bilərsiniz ki, bu nə çətin işdi ki, bunu özünə dərd edirsən. Amma məntiqlə yanaşanda onda görürsən ki, hər kəsin istəyi çin olana qədər hansı çətinliklərdən keçir. Hətta bir stəkan bulaq suyunu içmək üçün də (Bakıda marketlərdə satılan bulaq suyundan getmir söhbət, bulağın gözündən içilən sudan danışıram mən- Ə.M.) həmin o bulağın yanına gedib çıxmaq bilirsiniz də nə deməkdi? Bilmirmirsinizsə, xatırladım. Bu həm vaxt deməkdi, bu həm maddi durum deməkdi, bu sağlamlıq, bu fiziki durum və nəhayət,bu həm də kimlərinsə izini, xeyir-duası deməkdi. İndi gördünüzmü, bir ovuc bulaq suyu içmək üçün bir dünya məsrəf, bir dünya səbəb var. Gəl indi onları aş görüm,necə aşırsan? Gəl indi bunları çöz görüm necə çözürsən? Ona görə də düşünməkdən,ürəyimdən keçənləri dilimə, sözümə gətirməkdən ehtiyat edirəm. Çünki doğru anlaşılmaya bilər, doğru yozulmaya bilər.Və nəhayət, bu dürüst anlaşılmazlıq hansısa qəlbi zədələyər, hansısa ruhu incidər.Onda necə deyərlər, Kərəmi də ağlamaq tutar...**

**Yeri gəlmişkən, bax elə bu mövzuyla bağlı yaşadığım bir məqamı xatırlayıram. Deməli,bir şeir yazmışdım. Onu indi sizə də təqdim edəcəm, sonra həmin məqama qayıdarıq.**

***İki əllə yapışıb***
***Saxlamaq istəyirəm...***
***Vaxtın hətta əl-qolun -***
***Bağlamaq istəyirəm...***

***Dondurmaq gəlib keçir***
***Vaxtı bəzən könlümdən...***
***İstəmirəm çəkilsin -***
***Sənli vaxtlar önümdən...***

***Bu istəklə sonadək***
***Yaşayaraq mən ölsəm...***
***Diriləcəm, ürəkdən -***
***İstəyimi sən bölsən!..***

**Bəli,bu şeirlə bağlı bir ürək dostum mənə bildirdi ki, söhbət hansı istəyindən gedir.Sual mənə yaman toxundu. Ona görə də birbaşa cavab verdim:**

**-Məgər mənim dirilməyimin hansısa bir istəklə bağlılığı var?**

**Bu cavabın ardınca ikinci bir cavab da gəldi dilimə və dedim:**

**-"Nəsimi" filmi yadındadı? Orda bir məqam var: Şəms deyir ki, "Dövlət bəyin ölüsü də gözəldi!" Bəlkə, mənə sual ünvanlayanda sən də bunu düşünürdün?**

**O gülümsədi və dedi:**

**-Sən gecələr yat, Dövlət bəy!**

**Hər şeyi başa düşdüm, mövzudan yayınmağı da,ironiyanı da. Amma öz-özümə həm də düşündüm ki, dərin hisslərə qapılmağın bəzən tuş gəldiyi elə nöqtələr olur ki, orda hətta meh də, şeh də adamın xətrinə dəyir.Ona görə də dərində üzmək başqadı, dərin hisslərə qatılmaq tamam başqa. Birində boğulmaq təhlükəsi, birində ağrımaqacısı...**

*******

**Yaşananlar o vaxt şirin və yaddaqalan olur ki, onu xatırlayanda ürəyin ağrımır. Özündən, yaşadıqlarından,ümumiyyətlə, dünənindən incimirsən, küsmürsən,bezmirsən və dünəninə də, özünə də acımırsan. Bu mənada mənim dünənimdən incidiyim məqamlar heç də az deyil. Amma neyləyim ki, hər dəfə dizimə dəyən daşlar ağlımı özümə qaytarmır. Axırda dizim daşdan bezir, daş da dizimdən. Və hər ikisi"eh" edib başını bulayıb çəkilir öz işinin arxasına.**

**Buna görə də həm doğmalar, həm simsar olanlar, məni mənim kimi duyan sənin özün də hər dəfə məni qınayırsan, mənə nəsihət edirsən, məsləhət verirsən, ağıllı olmağa, özümü toparlamağa çağırırsan. Mən isə ağıllana bilmirəm. Deyəsən südlə gələn sümüklə çıxacaq axırda. Yəni normal, səmimi yanaşıb qayğı-diqqət ayırdığım insanın divarın o üzündəki mövqeyi, yanaşması, hətta açıqlamalar verməsi "qulağı" olan yerin yaratdığı fürsət hesabına çoxda gizlin qalmır, açılır üstü, bəlli olur hər şey. Bax, onda ürəyim ağrıyır, özümü qınayıram. Amma bu da bir an çəkir. Çünki mən təbiətən tamam fərqli baxmışam dünyaya.Bunun da əsas səbəbi müəllimlərim olub - həm məktəbdə, həm də həyatda. Hər zamanda onların öyrətdikləri, onlardan öyrəndiklərim əlimdən tutub və o sarsıntıları,o ürəyimə dəyənləri büküb bir kənara qoymaqda mənə kömək olublar. Və mən yenə öz yolumla, öz axarımla getmişəm, gedirəm... onlar da yenə öz axarlarıyla, öz yollarıyla gedirlər. Bu yollar kəsişən deyil. Bu yolların bəxtinə paralellik yazılıb.**

**Ona görədə paralel olanın bir-birindən qurtulması üçün hansısa birinin sıradan çıxması lazımdı.Bu da Allahın ixtiyarındadı. Mən də Allahın işinə qarışmağı nə bacarmıram, nə dəbu barədə heç düşünmürəm də. Sizə də məsləhət görmürəm. İstəyirəm ki, bu həyatın bütün rənglərini, bütün çalarlarını gözünüzün önünə gətirib necə var elə qəbul edəsiniz.**

**Reallığa, gerçəyə sığınasınız, onu önə çəkəsiniz, onun yanında olasınız. Bax onda görəcəksiniz ki,bu dünyanın "qaradaş"ı də göyərməsə, üstündə ot göyərdir. Axı, iradə Allahındı!Hökm onundu!**

**Şəxsən mən bir az pafoslu, bir az böyük görünsə də, əlimi ürəyimin üstünə qoyub deyirəmki, bəli, məni necə, hardan vursanız da, onun ağrısı Allahımın və Sənin sayəndə bir məlhəm tapır. Və çəkilib bir təkliyə, bir kimsəsizliyə düşünürəm. Düşünürəmki, içimdəki təkliyin diktəsi də Tanrıdan gəlir.**

*******

**Deməli,bütün bu dediklərimdən, bu yazdıqlarımdan və sizin eşidib oxuduğunuzdan belə bir nəticəyə gəlirəm:**

**-Həyatda kimin necə olmasından asılı olmayaraq, qədəri yazan Allahdı! Ruzini verən Allahdı! Dərdi də dərd çəkənə verən yenə Allahdı!**

**Siz özünüz bu nəticəni silib ata da bilərsiniz, öz işinizdi. Amma mən güvəncim olanAllaha və Sənə üz tutub həmişə dediyim, etiraf etdiyim və bu yazıda da yazdığım o nəticəyə zaman-zaman yaxınlaşmışam, zaman-zaman özümü o nəticənin bax də inam və inanc olsa, siz onu mənim kimi qəbul edəcəksiniz...**



*Vaqif Bəhmənli*

### Üzük

O vüsal günləri hayana düşdü,
Var imiş könlümü qırmağın sənin.
Nə vaxtdan bu üzük payına düşdü: -
Alışıb yanaydı barmağın sənin...

Səni bəxş etdilər nə bilim kimə,
Mənim sevməyim də bir günah imiş.
Həsrətin zəhərli gülləymiş demə,
Bu kövrək ürəyim nişangah imiş.

Nəfəsim alışıb gör necə yandı.
Yalvarram, o qızdan aralan, üzük!
Bəxtimə dolanan qızıl ilandır,
Sənin barmağında saralan üzük.

Tutub ürəyimi qərib bir giley,
Kədəri quzeyin daşı boydadır.
Gözümdə sozalıb, kiçilib hər şey,
Dünya da üzüyün qaşı boydadır.

Köçdüm gözlərinə günün birində,
Varlığım qəlbində durmadımı bəs?
Sənin o nişanlın bəbəklərində
Mənim nişanəmi görmədimi bəs?

Daş yerə çırpılıb əzilmişəm mən,
Ağrı qatar-qatar əzikdən keçər.
Yaman incəlmişəm, nazilmişəm mən
Varlığım sap kimi üzükdən keçər.

Bir haray bənd olub könülə, gözə,
Təmiz məhəbbəti günah sayıblar.
Səni bir oğlana, bir könülsüzə
Məni də kədərə nişanlayıblar...

### Eşq

Başımı xəyalın qatır birtəhər
Yoxdu qaynamağım daha heç kimlə.
Mən sənin eşqinlə qalxıb hər səhər,
Axşam da...yatmıram sənin eşqinlə.

Nə bilim küçədə, yolda, yuxuda,
Yenə görərəmmi? Ürək yeyirəm!
Sənin eşqinlədi içdiyim su da,
Mən sənin eşqinlə çörək yeyirəm!

Unudub dost doğma qardaşlarımı
Bu eşqin qəminə qardaş oluram.
Çəkirəm başıma göz yaşlarımı
Mən sənin eşqinlə sərxoş oluram.

Eşqində gücə bax, bilsə də yoxdu
Öləni diriltmək hökmü Allahda
Çağa tək güldürür qəhr olan bəxti,
Məni gah öldürür,dirildir gah da.

İndi billəm nəymiş eşq odu canda
Ona kim baxırmış, nəfə baxırmış.
Məcnun çöl gəzəndə, Kərəm yananda
İsa da çarmıxda kefə baxırmış!

Allah, sən bilirsən nələrə dözdüm
Bu sevda yolunu tutana kimi.
Dəli dalğalara baş vurum, üzdür
Eşqin dəryasında batana kimi.

### Sevdanın çətin yolu

Göstərdi hökmünü boranlar, qarlar,
Sitəm sipər çəkdi, qəm sıra tutdu.
Dikindən təkinə buzladı dağlar,
Şüşə könlümüzü sırsıra tutdu.

Baxmadı şaxtaya...
uçdu cüt ürək,
keçdi ayrılığın uzun içindən.
Buz buza çırpıldı çaxmaq daşı tək,
qığılcım ayrıldı buzun içindən!

Dar günün sahibi Allahdı yenə
Bir qarlı yol verdi bizə də, şükür!
Yaralar sarıyan qar tənzifinə,
Cana can calayan buza da, şükür!

... Sonra tonqal odu dağladı qarı,
Odumuz buzların bağrını yardı.
Əriyib sel oldu dağların qarı,
bu dəfə də bizi daşqın apardı!

### Belə yaxşıdı

Bir yol da saymayıb qohum-qardaşı
nə qədər pərdə var, vurub yıxasan,
Alıb qoltuğuna sevdalı başı
çıxanda aradan elə çıxasan
boş yaxan keçməyə ələ, yaxşıdı! -
Qardaş, qadan alım, belə yaxşıdı.

Gözlərin dikilə guman yerinə,
daha atmayasan oxu heç kimə.
Qaşını çatanda kaman yerinə,
çölləri gəzəndə ceyran eşqinə
toruna düşdüyün tələ yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Hər gün ayaqlasın, iz də qocalır,
bəsdi dirədiyin küncə qəlbini!
Oğlan da qocalır, qız da qocalır...
Qərib bir quş olub qönçə qəlbini
açasan bir qərib gülə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

İstə, ya istəmə, gecələr bitər,
Anbaan azalar canında odun.
Bu qəribə qismət tamama yetər -
Bir qərib dünyada bir qərib qadın
dərdindən can verib ölə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Tanrının nə qədər gizlinləri var;
Qoy bu da ehmalca bəxtə yazılsın.
"Biz kimsə görmədik" -
söyləsin yollar,
Başına gələnlər yuxu yozulsun,
düşməsin dillərdən dilə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Bu da ildə bir yol bərk aclığındı -
Dönəsən doymayan, ya doyan kimi.
Görəsən darvaza sən açdığındı,
qapın aralıdı...
sən qoyan kimi,
adlayan olmayıb hələ, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

Kürkünü asasan sivri qarmağa
Getməmiş qürbətin ətri canından,
Arvadın yüyürə qaz yandırmağa,
Deyə: - Nə durmusan xoruz banından?
Sonra da üzünə gülə, yaxşıdı,
Qardaş, qadan alım, belə yaxşıdı.

### Varlı adam

Sərvət, dövlət deyib canı üzmədim,
yeridim yolumu sədaqət ilə.
Könül divarıma mərmər düzmədim,
üzlədim silinməz məhəbbət ilə.

Qocaya zamanın fəryadı dedim,
körpə çöhrələrə, duadı, dedim...
sirli bir damlaya dəryadı, dedim -
heç işim olmadı kəmiyyət ilə.

Rəsmini çəkənim şirəli çəkdi;
qayıdıb üstündən nur əli çəkdi...
Tanrımı hamıdan irəli çəkdim -
tül pərdə saxladım cəmiyyət ilə.

Məkrə, paxıllığa ilan söylədim,
kələyə ən qorxunc dalan söylədim...
Kim mənə qurama, yalan söylədi
ağzını qapadım həqiqət ilə.

Sözümdən söz çəkib demə kəmsərəm -
başımın daşıdı zalım, qansoran...
Xain süfrəsində tikə kəsmərəm,
nəsil qanlısıyam xəyanət ilə.

Başmaqçı odur ki, başına gələ,
sanma ki, söz dedim xoşuna gələ.
Üstümə fillərin qoşunu gələ
mənə bata bilməz bu qüvvət ilə.

Əlləri var olsun körpü cızanın -
altında qaynayır məhşər qazanı.
Sözümdə puç varsa, Tanrı cəzamı
versin özü bilən bir qiymət ilə.

### Asilik

Bəsdir daha yaşadım ağac-uğac ağlıyla,
Bir az adam olmalı...
alıb -aldatmalıyam.
Yaş odun sırımalı aranlıya-dağlıya,
birisinə atmalı,
birini satmalıyam.

Dərisinə bükürkən xilqət qurdlu canını
Bəsdi oldum dərisiz Nəsiminin müridi!
toz bürüdü naqisi, qartmaq tutdu canını,
mənim şümşad bədənim təmizlikdən çürüdü.

Olsun otun, çiçəyin, suyun dili dərbədər;
Ruzu qazanmaq olmur biyan, yovşan diliylə.
Vergi müfəttişinin dilini bilsəm yetər,
quştək ötmək gülüncdü
Şah Süleyman diliylə.

Gördüm etibarını açıb-solan güllərin,
Qısır söyüdlər ilə sevişməyin nə adı?
Hazır ətdi,
ceyrana sıxım qızıl gülləni,
bir yol xoşbəxt eyləyim evdə uşaq, arvadı!

Halalın miqdarı az,
donluğum ondan betər,
darı-darı gül, gözüm, didən haram dən umur.
Bəsdi çinar olduğum, ərəl olduğum yetər-
Quruçayın yatağı suyu gözümdən umur!

Gözdə su yox, ağladım
ağacların yerinə,
Şitilə su dartmaqdan ovcum qabar bağladı.
Budaqlar budamaqdan suluq getdi dərinə,
Haçan tut ipək cırdı,
nar yaramı bağladı?

Daha bəsdi yaşadım xəyal-xöşək barımla;
hesabı qeyridən yox, özümdən sormalıyam.
Böyürtkən kolu kimi açıq tikanlarımla
həyasız dəvələrin üzünü cırmalıyam.

Ota, əncərə getdi,
bir quş ömrün yazına,
Bu gün payız,
sabah qış...
gora tərpənir çənəm.
Ey qələm tutan kişi,
asi olub yazına
mən daha bitkilərə qul olmaq istəmirəm.

Üstəlik havalı baş
baş qoşmadı azana,
orda,
haqq dünyasında
gur-gur yanır ocaqlar...
Son indidən bəllidi,
adam olsam qazana,
ağac olsam qazanın altına basacaqlar!

### Belə

Ömür ki od aldı, əriyir şam-şam -
yağı yalavaca paylanır cam-cam,
Fələyin qolunda səhəngdi adam -
sonda qopur qulpu, lüləyi belə...

Qafil o kəsdi ki, çörəkdən qaçır,
Eşqin yeri dardı, ürəkdən qaçır...
Mehdə hünər hanı? -
Kürəkdən qaçır,
Şəlləmə belinə küləyi beləəə...

Fələk pəsdah açır sınıq təkərlə,
Novdanda dən yoxsa, hərlə, ha hərlə...
Un olub ələnir can zərrə-zərrə
Kafər, fırlatmazlar ələyi belə!

Ürəyi at verdi... Allah, min, dedi -
Çapırsan...
görmürsən tər içindədi? -
Allahın verdiyi yaman gündədi;
Adam əldən salmaz ürəyi belə!

Sözün şövqü dəysə qızıl qanayar,
Kəlməni ləldən çək, qızıldan ayır!
Mürəkkəb ayrı şey, qızıl qan ayrı
Qandı şax saxlayan lələyi belə...

Can ona sadağa, baş ona peşkəş,
Xas aşiq qul olmaz ötərgi eşqə!
Kimsəyə dil vermə Tanrıdan başqa,
Buraxma evinə mələyi belə!

### Şuşa

Dağı dağ üstdə duran dağlı səməndərdi Şuşa,
Necə bəs dil-dil ötür gül-gül açan dərdi Şuşa?

Qol açıb hər yetənə; pis nəzərə gəldi yəqin -
Partlamışlar uladı: gör nə qəşəng yerdi Şuşa!..

Qaldırıb dik başına zatıqırıq qor-qoduğu,
Tullayıb dar dərəyə dərdləri min mərdi Şuşa!

O xəcil, axdı təri, qan bələnən köynəyini
Xarı-bülbül gülünün yarpağına sərdi Şuşa?

Bəlkə nərd taxtasıdı yek Cıdırın tas sinəsi -
Fəndgir əllərdə gəzən şeşli-beşli zərdi Şuşa?

Tanrıya asi olub qövr eləsəm hiddətdən,
Deyərəm, dərd yuvası, otlu-sulu şərdi Şuşa!

Əhdi Vaqiflə idi, peymanımız qəbrə qədər...
Bəs hanı? Gərdəyini düşmənəmi verdi Şuşa?

### Şair

Tanrıdan savayı anlamaz heç kim
sevgi göylərindi...
yer eşqi olmur.
Yerə, göyə sığmır şairin eşqi,
Eşqdən yarananın bir eşqi olmur!

Yerə, göyə sığmır şairin eşqi,
Şairin
dünyaya dəyən eşqi var,
yaxası bərq vuran cilvəli püşkü
Bir də ki...
qapqara geyən eşqi var!

...Təki yar dilinin qılıncı dəyə,
təbibə yollanmaz çaradan ötrü.
İlan tək atılar qızıl gülləyə,
Canı qurban verər yaradan ötrü.

Şairin dünyada bir eşqi olmur,
Payız eşqini say, yaz eşqini say.
Baxıb sonalamaq, ya seçki olmur,
Atəş eşqini say, buz eşqini say.

...Şairdə qanad var;
yüksəlir, enir
dərin dərəyə də,
qəlbi dağa da.
Şair adam vursa,
Allah bəyənir,
Şair
sevgi qatır əclaflığa da!

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCUSU, SİYASƏTÇİ VƏ PUBLİSİST M.Ə.RƏSULZADƏ



*Göyərçin ABİDQIZI*
*Filologiya üzrə fəlsəfə doktoru*

**Böyük bir tarixin ən şərəfli dövrü 105 il öncə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və 3 rəngli bayrağımızın ilk dəfə Azərbaycanın səmasında dalğalandığı dövrdür. Şanlı bir ölkənin istiqlalı və müstəqilliyi, xalqın sevinci böyük bir bayram idi. 23 ay davam edən bu tarix, ölkənin ən dəyərli övladlarının, ən dəyərli ziyalılarının aktiv çalışmaları, xalqın mariflənməsi və inkişafı yolunda gecə-gündüz demədən düşünən beyinlər düşmənlərdə daha sonra "nifrətə" çevriləcək bir qısqanclıq yaradırdı. Bu qısa zamanda sahib olduğumuz azadlığımızı, müstəqilliyimizi başımız üzərində dalğalanan 3 rəngli ay ulduzlu bayrağımızı borclu olduğumuz görkəmli şəxsiyyətlər var ki, onlardan biri də M.Ə.Rəsulzadədir.**

XX əsrdə Azərbaycanın, eləcə də Türk dünyasının "azadlığı", "istiqlaliyyəti", "inkişafı" uğrunda misilsiz xidmətlər göstərmiş Məhəmməd Əmin Rəsulzadə və bir cox ziyalıların yara-dıcılığında milli istiqlal ideyaların öyrənilməsi hər zaman aktualdır. Bu ədiblər Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdir. Onların yaratdıqları əsərlər Azərbaycan xalqının milli sərvətidir.

Lakin kommunist rejiminin Türkiyədən qorxub-çəkinməsi, Türkiyə ilə, türkin ədəbiyyatı və mədəniyyəti ilə əlaqəsi olan bu ziyalıları hər vasitə ilə təqib və məhv etmək, bolşevik psixologiyasının, eləcə də o dövrdə Azərbaycanda at oynadan erməni millətçilərinin qarşısına qoyduğu əsas məqsəd idi. Türkə qarşı yönəlmiş bu misli görünməmiş iyrənc hərəkatın nəticəsində xalqın ən görkəmli ziyalıları pantürkizm damğası ilə ölümə məhkum edilib, Sibirin soyuq cəhənnəmində əzablar içində məhv edilmişdi.

M.Ə.Rəsulzadə, tariximizin ən görkəmli və böyük şəxsiyyətlərindən olub, milli istiqlal hərəkatına başçılıq etmişdir. O, 1904-cü ilin sonlarında "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatının banilərindən və 1904-1905-ci illərdə 6 nömrəsi çap olunan "Hümmət" adlı qəzetin əsas naşirlərindən biri idi. 1906-cı ildə nəşri dayandırılan "Hümmət" qəzeti "Təkamül" adı ilə dekabr ayında yenidən çap olunmağa başlayır.

Bu dövrdə M.Ə.Rəsulzadənin ictimai-siyasi fəaliyyəti yaradıcılıq fəaliyyəti ilə birləşərək xalqına xidmət etməyə yönəlmişdir.

XX əsrin əvvəllərində bədii yaradıcılığın bir çox janrlarında qələmini sınamış M.Ə.Rəsul-zadə şeirlər, hekayələr yazmış, dramaturgiya ilə məşğul olmuş, tərcümələr etmiş, xatirələrini qələmə almışdır. Müəllifin müxtəlif illərdə qələmə aldığı "Müxəmməs" (1903), "Qara pul" (1906), "Növhə" (1906), "Həsbi-hal" (1907), "Saillərə" (1908), "Hürriyyət" (1909), "İsmayıl Qasprinskiyə" (1911), "Mayıs duyğuları" (1955) kimi xalqı azadlığa və istiqlala səsləyən şeirləri ilə Azərbaycan ədəbiyyatında milli-azadlıq mövzusunun əsasını qoyur.

"Qaranlıqda işıqlar", "Nagəhan bəla", "Yeni lisançılar və türkçülər", "Dil ictimai bir əməl-dir", "Bir xan" pyeslərinin də mövzusunu milli oyanış və istiqlalın təbliği təşkil edir.

Bu əsərləri ilə də ədib "Azərbaycana muxtariyyət", milli-istiqlal hərəkatı ilə bağlı olan fikirlərini Azərbay-canda yaymağa nail olur.

M.Ə.Rəsulzadə 1908-ci ildə Çar üsul-idarəsi tərəfindən həbs olunacağını anlayır və ölkəni tərk edib İrana getməyə məcbur olur. Cənubi Azərbaycanı qarış-qarış gəzən M.Ə.Rəsulzadə Təbrizdə xalqımızın milli qəhrəmanı Səttar xanla görüşür və Avropa təhsili görmüş bir qrup İran ziyalısı ilə birlikdə "İran demokrat partiyası"nın əsasını qoyur. O, "İrane Nou" və "İrane Ahat" qəzetlərinin baş redaktoru olur. 1909-cu il avqustun 24-də fəaliyyətə başlayan gündəlik və müstəqil "İrane Nou" qəzeti 1910-cu ilin yayında bağlansa da, payızda, oktyabrın 26-da artıq partiyanın rəsmi orqanı kimi fəaliyyətini bərpa edir. M.Ə.Rəsulzadənin məqalələri, şeir və publisistik yazıları bu qəzetdə ardıcıl dərc olunur. O, öz qələmi ilə İranda Avropatipli jurnalist sənətinin əsasını qoyur. Seyid Həsən Tağızadə qeyd edirdi ki: "Modern Avropa qəzet formasını ilk dəfə İrana gətirən M.Ə.Rəsulzadə olmuşdur".

Ədəbi-publisistik fəaliyyətini davam etdirən M.Ə. Rəsulzadə 1911-ci ilin oktyabrında "Müsəlman demokratik Müsavat partiyasına" rəhbərlik edir. Bu dövrdə M.Ə.Rəsulzadənin "Cəmaət idarəsi" və "Bizə hansı hökümət faydalıdır?" kitabları çap olunur.

1917-ci ildə Müsavatın birinci qurultayında Məhəmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçilir. Bu qurultaydan sonra Azərbaycada "Azərbaycana muxtariyyət" şüarı altında milli hərəkat başlayır.

M.Ə.Rəsulzadə 1918-ci ilin may ayında "Azərbaycan Milli Şurası"na sədr seçilir və mayın 28-i Azərbaycan istiqlaliyyəti bütün dünyaya elan olunur.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təntənəli açılışında M.Ə. Rəsulzadə qeyd edir:

"Biz o zaman, bizim üçün ən yaxşı məsələni Azərbaycan muxtariyyətini müdafiə edirdik, biz onda sağ və sol tərəfdən amansız tənqidə məruz qalmışdıq. Sağdan bizə deyirdilər ki, azərbaycanlılıq şüarı ilə siz müsəlmanları parçalayırsınız, türkçülük bayrağı qaldırmaqla - Allah qorusun, siz İslamın əsasını sarsıdırsınız.

Soldan isə bizi məzəmmət edirdilər ki, Azərbaycan muxtariyyətini tələb edərək biz vahid demokratik cəbhəni yarırıq. Buna baxmayaraq, "Müsavat" partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi və bayrağını yüksəyə qaldırmısdır".

1920-ci ildə M.Ə.Rəsulzadə siyasi fikirlərinə görə həbs olunur. O zaman Bakıda olan İ.V.Stalin Rəsulzadənin həbsdə olduğunu öyrənir və özü şəxsən həbsxanaya gedib M.Ə.Rəsulza-dəni azad edir. Bununla İ.V.Stalin 1905-ci ildə onu ölümdən qurtaran M.Ə.Rəsulzadəyə vicdan borcunu ödəmiş olur. O, M.Ə.Rəsulzadəni özü ilə birlikdə Moskvaya aparır və RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin edir.

"Stalin elə bilirmiş ki, M.Ə. Rəsulzadə öz rifahı üçünmü, ölüm qorxusundanmı, gec-tez onun təklif etdiyi vəzifələrdən birini qəbul edib bolşeviklərlə əlbir işləyəcək.

O da böyük yığıncaqların xitabət kürsülərindən lovğalıqla bütün dünyaya müraciətlə deyəcək: "Görürsünüzmü, sovetlər elə yaxşı bir quruluşdur ki, M.Ə. Rəsulzadə kimi tanınmış müsavat lideri də öz əqidəsindən dönüb sovet hökumətinə pənah gətirmişdir". Lakin o, kifayət qədər təsəvvür edə bilmirdi ki, M.Ə. Rəsulzadə əqidəsinə görə siyasətçi olmuşdu.

Bu böyük ictimai xadim üçün Azərbaycanın mənafeyi, ölkənin taleyi ilə müqayisədə vəzifə, şan-şöhrət, şəxsi rifah duygusu bir heç idi".

Moskva Şərqşünaslıq İnstitutunda fars dilindən də dərs deyən M.Ə.Rəsulzadənin 1922-ci ildə "Noviy Vostok" jurnalında Məzdəkizm hərəkatından bəhs edən "Qədim İranın kommunistləri" adlı məqaləsi onun mühacirətə getməsinə səbəb olur.

Azərbaycan milli istiqlal hərəkatı fəallarından biri, ədəbiyyatşünas-publisist Əbdülvahab Yurdsevər xatirəsində yazır: "Müsavat" partiyasının gizli mərkəzi komitəsinin ən mühüm qərarlarından biri M.Ə.Rəsulzadəni Moskvadan qaçırmaq olmusdur.

1922-ci ildə Türkiyəyə gələn M.Ə.Rəsulzadənin İstanbulda yaşadığı 1923-1931-ci illərdə "Azərbaycan respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti", "Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik", "İnqilabi sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və Bolşevizm" və "Qafqasya türkləri", Parisdə fransız dilində "Azərbaycan və istiqlaliyyəti" və rus dilində "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kimi əsərləri məhz bu dövrdə çap olunur.

Həmin ildə onun redaktorluğu ilə "Azəri türkü" (1928-1931), sonra isə "Odlu yurd" (1929-1930) jurnalları və həftəlik "Bildiriş" (1929-1931) qəzeti də nəşr olunur. 1931-ci ildən M.Ə.Rəsulzadənin mühacirəti Avropa ölkələrində davam edir.

Onun redaktorluğu ilə Berlində ayda üç dəfə nəşr edilən "İstiqlal" (1932-1934) qəzeti və "Qurtuluş" (1934-1938) jurnalı çap edilirdi.

Görkəmli ədəbiyyatşünas M.Ə.Rəsulzadənin 1933-cü ildə Berlində çap olunan "Azərbaycan respublikası haqqında bəzi qeydlər" kitabı, 1936-cı ildə çap olunan "Çağdaş Azərbaycan ədəbiyyatı" məqaləsi, 1938-ci ildə Berlində alman dilində "Azərbaycan problemi" və 1939-cu ildə Varşavada polyak dilində çıxmış "Azərbaycanın hürriyyət savaşı" kitabları dünyada Azərbaycana qarşı böyük maraq doğurur.

1938-ci ildən Polşa hökumətində məsləhətçi qismində çalışan M.Ə. Rəsulzadə 1940-cı ildən Rumıniyaya köçərək orada yaşamağa başlayır. Onun 1943-cü ildə İstanbulda nəşr olunmuş "İslam-türk ensiklopediyasının" 1-ci cildində "Azərbaycan ləhcəsi" adlı məqaləsi çap olunur. 1947-ci ildə Ankaraya köçən M. Ə. Rəsulzadənin 1949-cu ildə "Azərbaycanın kültür gələnəkləri", "Çağdaş Azərbaycan ədəbiyyatı" (1950-ci il) və "Çağdaş Azərbaycan tarixi" (1951-ci il) kitabları işıq üzü görür.

1941-ci ildə dahi Nizaminin 800 illik yubileyi münasibətilə Rumıniyada tamamlanmış və 1951-ci ildə Ankarada nəşr olan "Azərbaycan şairi Nizami" adlı monoqrafiyası (Müəllifin özünün də qeyd etdiyi kimi, "müharibənin doğurduğu çətinliklər üzündən çapı gecikmişdir") işıq üzü görür. Hər şeydən əvvəl M. Ə. Rəsulzadə, Nizaminin türklüyü ilə bağlı məqamları açmaqla "yalnız dil faktoru, ruhən türkləklə bağlı olan Nizami sənətini fars mədəniyyətinə daxil etmək üçün əsas ola bilməz" fikri ilə dünya nizamişünaslığına bir çox yeniliklər gətirir.

M.Ə.Rəsulzadə Nyu-Yorkda ingilis dilində nəşr olunan "Ukrayna" toplusunun 1951-ci il 3-cü nömrəsinin 7-ci cildində "Azərbaycan respublikası" məqaləsini, Londonda ingilis dilində nəşr olunan Britaniya ensiklopediyasında "Müsavat partiyasının yaranması tarixi və Azərbaycan Demokratik Respublikasının təşəkkülünə aid" məqaləsini, ikinci Dünya müharibəsindən sonra Türkiyədə nəşr olunan "Türk ensiklopediyası"nda Azərbaycana aid məqalələr nəşr etməklə, vətənindən uzaqda olsa da xalqına xidmət edir.

**Ankarada yaşadığı dövrdə o, "Türk tarix qurumu" və "Türk dili qurumu" ilə yaxından əməkdaşlıq etmişdir. 1952-ci ildən Ankarada nəşr olunan "Azərbaycan" jurnalında xalqımızın tarixi və ədəbiyyatı haqqında silsilə məqalələr yerləşdirilmişdir. O, ikinci dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan "Qafqaz" (1932-1938) və fransızca buraxılan "Prometey" (1928-1939) jurnallarında məqalələrlə çıxış etmişdir. Uzaqda da olsa Azərbaycanla yaşayan, onun problemləri və həqiqətlərini olduğu kimi dünya ictimaiyyətinə çatdıran ədib, 1955-ci il Ankarada üç dəfə "Azərbaycan!" deyərək həyatla vidalaşır.**

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

**№ 20 (2344) 26 may 2023-cü il**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Qırx dörd günün möhtəşəm qələbəsi

**Azərbaycan tarixinin şanlı səhifələri çox olub və bu tarix bizə sanki bir dərs keçib. Dərs keçib ki, dövlət güclü olanda, onun başında müdrik və uzaqgörən siyasi şəxsiyyət olanda həmin ölkə ən çətin andan çıxmağı bacarır, özünün dövlətçiliyini, ərazi bütövlüyünü qoruyur. Təbii ki, dövlət həm də o vaxt güclü olur ki, onun arxasında xalq dayanır. Xalqın qoruduğu və sevdiyi rəhbəri isə nə xarici, nə də daxili düşmənlər məhv edə bilir.**

Bəli, Azərbaycan da belə bir tarixi an yaşayıb. Aydındır ki, ölkəmizin 20 faiz torpaqları nə az, nə çox düz otuz il erməni işğalı altında olub. Amma nə dövlət rəhbəri, nə də Azərbaycan xalqı bununla heç vaxt barışmayıb. Hətta beynəlxalq güclər və dünyanı idarə edən ölkələr nə qədər çalışsalar da dövlət başçımıza heç bir təsir göstərə bilməyib və bizə hər hansı bir sənədi imzalatdırmağı bacarmayıb. Çünki Azərbaycan dövlətinin rəhbəri öncə Ulu Öndər Heydər Əliyev, sonra da Prezident İlham Əliyev olub və hər iki böyük siyasətçi gələcəyi yaxşı görürdü və bu istiqamətdə ölkəmizin iqtisadi, hərbi, sosial gücünü artırmaq üçün çox böyük işlər görmüşdülər. Əlbəttə, Azərbaycan nəhəng dövlətlərin yanında kiçik bir ölkədir. Amma kiçik bir ölkənin çox böyük uzaqgörən siyasi şəxsiyyətləri var idi. Bayaq dediyimiz kimi, bu, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev idi.

Artıq zaman yavaş-yavaş bizi torpaqlarımızın işğaldan azad olunması gününə yaxınlaşdırırdı və biz zaman-zaman 2020-ci il sentyabrın 27-ə bir az da yaxınlaşırdıq. Erməni silahlı qüvvələri qudurmuş və yenidən atəşkəsi pozmuşdular. Elə gün, elə saat olmazdı ki, onlar cəbhə bölgəsində atəşkəsi pozaraq, ərazilərimizi atəşə tutmasınlar. Hətta Tovuz istiqamətində və eləcə də Tərtər, Ağdam istiqamətində ermənilərin dəfələrlə hücumu olmuşdu. Amma bunların qarşısı qüdrətli Azərbaycan Ordusu tərəfindən çox yüksək səviyyədə alınmış, onlar geri çəkilmişdilər. 2016-cı il aprel döyüşlərində Füzuli, Ağdam, Tərtər istiqamətində Azərbaycan Ordusu strateji yüksəklikləri ələ keçirmiş, min hekiarlarla ərazimizi erməni işğalından azad eləmişdilər. Ancaq bütün bunlar da ermənilərə dərs olmurdu. Onlar yenə bizə "ağız" atır və tez-tez atəşkəsi pozurdular.



Təbii ki, dövlət başçısı bütün bu vəziyyəti diqqət mərkəzində saxlayırdı. Səbrlə, təmkinlə hərəkət edirdi. Ermənilərin atəşkəsi pozması və tez-tez cəbhə bölgəsində ağır artilleriyadan istifadə edərək, insanlar arasında vahimə yaratması Prezident İlham Əliyev tərəfinən beynəlxalq kürsülərdə səsəlnir, onların təcavüzkar planları ifşa olunaraq BMT-nin, ATƏT-in və dünya ictimaiyyətinin diqqətinə çatdırılırdı. İdeoloji cəhətdən çox böyük üstünlük əldə edən Azərbaycanın tay bu qədər səbr göstərməyi yetərdi. Ona görə də 2020-ci il sentyabr ayının 27-də Ordumuz Füzuli və Cəbrayıl istiqamətində əks hücuma keçdi. Ermənilərin 30 il düzəltdikləri müdafiə sistemləri darmadağın edildi. Onlar deyirdilər ki, heç bir ordu bizim müdafiə sistemimizi yarıb keçə bilməz. Amma Azərbaycan Ordusu onların 30 il yaratdığı mifi bir neçə günün içində alt-üst elədi, erməni əsgərlərini pərən-pərən saldı, öz gücünü onlara göstərdi. Bir neçə gün ərzində Füzulinin və Cəbrayılın 8 kəndi erməni işğalından azad olundu.

Həmin döyüşlər zamanı mən də jurnalist olaraq Füzuli rayonu istiqamətində fəaliyyət göstərirdim. O anlarda dəstə ilə hərəkət edən Azərbaycan Ordusunun zabitlərinin və əsgərlərinin necə nikbin olduğunu və döyüşə yüksək ovqatla getdiklərinin şahidi idim. Və həmin anlarda dəstə ilə hərəkət edən hərbi maşınları və texnikaları minlərlə sakinlər əhatə eləmişdilər. Onlar Azərbaycan əsgərinə arxa durur, kimisi maşında döyüşə gedən əsgərlərimizə çörək, yemək, meyvə, siqaret verir, kimisi də isti geyimlər, mineral və şirəli suları döyüşə gedən əsgərlərimizə paylayırdılar və əsgərlərimiz də deyirdilər ki, biz ölümə yox, torpaqlarımızı azad eləməyə gedirik və 3 gün də neçə-neçə kəndimiz erməni işğalından azad olundu.

Heç yadımdan çıxmaz, sentyabr ayının 30-da Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə qəhrəmanlıq göstərərək, tankla hücuma keçən Elçin Tehran oğlu Süleymanov neçə kəndimizin azad olunmasında öz sözünü demişdi. Elçin həm də mühasirə şəraitində olan bir neçə əsgərimizi xilas etmiş və onlara köməklik göstərmişdir. Belə döyüşlərin birində Elçin Sülemanov qəhrəmancasına həlak olmuşdu. Elçin son nəfəsinə qədər döyüşmüş və Cəbrayılın bir neçə kəndinin azadt olunmasında erməni mövqelərini tankla darmadağın dağıtmış və axırda da şəhid olmuşdur. Sözümüzün canı odur ki, 44 günlük İkinci Qarabağ Savaşında biz Elçin Süleymanov kimi qəhrəman oğullarımızın hesabına topaqlarımızı erməni işğalından azad elədik. Cənab Prezident İlham Əliyev də 44 günlük İkinci Qarabağ Savaşı ilə bağlı çıxışlarında həmişə bir fikri xüsusilə vurğulayır ki, torpaqlarımızı erməni işğalından Azərbaycan əsgəri azad elədi və onların hər biri aslan kimi döyüşdülər. Bəli, bu Azərbaycan Prezidentinin Azərbaycan əsgərinə verdiyi ən böyük dəyər və qiymətdir və təsadüfi



deyildir ki, müharibənin ilk günlərində şəhidlərimiz olarkən cənab Prezident çox kövrəlib və onların ailəsinin dərdinə şərik olduğuun bildirib. 44 günlük müharibədə Azərbaycanın Zəfər yolunu heç bir qüvvə dayandıra bilmədi. Bu barədə də Azərbaycan Prezidenti İham Əliyev dəfələrlə deyib ki, biz nə qədər xahişlər və təziyqlər olsa da, heç kəs bizi tutduğumuz yoldan döndərə bilməz və heç bir xarici dövlət Azərbaycanın işinə burun soxa bilməz.

Azərbaycanın 44 günlük Qarabağ Savaşında qazandığı qələbə çox möhtəşəm bir qələbə idi. Çünki bizim arxamızda ermənilərinki kimi havadarlarımız yox idi. Belə ki, erməniləri həm Avropa ölkələri, həm də Rusiya müdafiə edirdi və uzun illər çalışırdılar ki, Qarabağ problemi yerində saysın və dondurulsun. Düz 30 il onlar bu problemi həll etmək əvəzinə, uzatdılar. Amma Azərbaycan 44 günlük möhtəşəm döyüşlə 20 faiz torpaqlarımızı öz gücü hesabına işğaldan azad elədi.

**Artıq bizim qələbəmizin hərbi sirləri dünyanın inkişaf etmiş qabaqcıl ölkələri tərəfindən təhlil edilir, araşıdırlır və öyrənilir. Və bizim də qələbəmizin ən böyük sirri Prezident İlham Əliyevin Ali Baş Komandan kimi möhtəşəm qətiyyəti, addımları və Azərbaycan Ordusunun qüdrətli, güclü olması idi. O, Ali Baş Komandanın və o Ordunun qarşısında heç bir qüvvə dayana bilməzdi. Allah Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevi və Azərbaycan Ordusunu qorusun!**

**FAİQ QİSMƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# SEÇİLƏN ŞAİRİN SEÇİLMİŞ ŞEİRLƏRİ

**Dünyanın bir çox qəribə işləri var. Bu qəribəliklər bəzən sənət aləmində də özünü göstərir. Bir də görürsən, yazdığı əsərlərin oxucu yanında bir o qədər də çəkisi olmayan bir yazarı kimsə elə tərifləyir, elə təbliğ edir ki, qulaq asanda buna təəccüb edirsən. Bunun əksinə olaraq, bəzən, yazdığı əsərlərilə oxucu qəlbini riqqətə gətirən bir sənətkar kölgədə qalır, onun əsərlərinin adamlar arasında yayılmasına bir o qədər də həvəs göstərilmir. Bu da onunla nəticələnir ki, əlaqədar təşkilatlar yaxşıların qiymətləndirilməsinə bəzən biganə yanaşırlar.**

Mən bu cür ikili yanaşmaya yaxşı baxmıram. Necə yaxşı baxım ki, bir-birindən gözəl şeirlər yazan Sahib Əliyev kimi şair, yaşının səksən beş illiyində belə, Azərbaycan Yazıçılar Birliyindən ona ünvanlamış təbrik məktubundan başqa, heç bir əlaqədar təşkilatdan adicə "sağ ol" da almadı.

Bəli, bu, belədir. Lakin nəzərə almaq lazımdır ki, Sahib Əliyev həqiqətən də istedadlı şairdir. Bu istedadla da gündən-günə inkişaf edir, bir-birindən gözəl şeir və poemalar, hekayə və publisik əsərlər yazır. Həmin əsərlərlə də o, vətənin və xalqın qabağında başıuca gəzə bilir. Bunu şairin "Son şeirlərin seçilmişləri" kitabı da aydın sübut edir.

Bu kitab bir daha göstərir ki, Sahib Əliyev daim axtarır və tapdığı mövzulara yüksək poetik nəfəs verir. Şairin qələmindən çıxan hər bir şeir oxucuya bədii zövq verməklə, onu yüksək insanlıq ruhunda tərbiyə edir, vətənə, torpağa daha dərindən bağlayır.

Şairin yazdığı şeirlərin hər biri yüksək tərbiyəvi xarakter daşıyır. Özü də bir dəfə oxunmaqla, yaddaşlara həmişəlik həkk olunur.

Yeri gəlmişkən, kitabda gedən iki şeir haqqında danışmaq istəyirəm. Birincisi "Fırlanır ki, Yer" şeiridir.

Aydındır ki, Yer gecə-gündüz öz oxu ətrafında fırlanır. Əlbəttə, bunun maraqlı elmi təhlili var. Lakin şair Yerin fırlanmasını həyata, insanlara qayğı kimi əlaqələndirir və bununla da insanlarda Yerə daha böyük sevgi yaratmağa çalışır:

*Gecə də, gündüz də*
*fırlanır bu Yer -*
*Bu, onun əzəli xasiyyətidi...*
*Durub, öz-özünə fırlanmaq, axı,*
*Deyirlər, yüngüllük əlamətidi.*

*Bəs niyə, görəsən,*
*"yüngüllük edir"*
*Çəkisi hesaba sığmayan bu Yer?..*
*Mənə elə gəlir, fırlanır ancaq -*
*Dəyişsin havasın dağ, yamac, su, yer.*

*Sağa fırlananda*
*Cənuba düşür -*
*Boyanır Günəşin şəfəqlərinə.*
*İsti bir az bizi karıxdıranda,*
*Fırlanır - Şimalda düşək sərinə.*

*Yağış da gətirir,*
*qar da gətirir*
*Fırlana-fırlana dərəyə, düzə.*
*Gecə də, gündüz də fırlanır bu Yer,*
*Yaşamaq tərzini öyrətsin bizə.*

Şairin fikrincə, Yer, əsasən, ona görə fırlanır ki, qoynunda yaşatdığı insanlar daha rahat olsun və daha firəvan ömür sürsünlər. İş belə olanda, insanların əhval-ruhiyyəsi qat-qat artır və nəticədə, onlar daha yüksək həvəslə qurub-yaratmağa səy göstərirlər. Bu, həmçinin, Yerin öz hörmətini də yüksəldir, göylərə qaldırır.

Haqqında danışmaq istədiyim ikinci şeirin adı isə "Sən elə eylə ki, ey Yer kürəsi"dir. Fərq burasındadır ki, bu şeirdə məqsəd Yer kürəsinin insan üçün vacibliyindən danışılmaqla,onun insanlara verdiyi bəzi fəsadlar da yada salınır. Şair fəsadların baş verməməsi üçün Yerə məsləhət görür:

*...Şənlənək,sevinək biz yol gedəndə,*
*Arzular qoy açsın min cürə çiçək .*
*Sən elə eylə ki, ey Yer kürəsi,*
*Sevinclə oynasın həmişə ürək!..*

Kitabda tərbiyəvi xarakter daşıyan bu və ya buna oxşar şeirlərin sayı çoxdur və bunların hər biri haqqında uzun-uzadı danışmaq olar.

Sahib Əliyevin müxtəlif vaxtlarda müxtəlif nəşriyyatlar tərəfindən buraxılmış çoxlu kitabları var. Bununla yanaşı, onun üc cilddən ibarət "Seçilmiş əsərləri" də mövcuddur. Əslinə qalanda, bu yeni kitab oxuculara "Seçilmiş əsərləri"n dördüncü cildi kimi də təqdim oluna bilərdı. Çünki burada son kitablardan götürülmüş ən yaxşı şeirlər toplanmışdır. Lakin şair yeni kitabının adını "Son şeirlərin seçilmişləri" qoymuşdur. Bunun da, əslində, heç bir mənfi cəhəti yoxdur. El arasında deyildiyi kimi "ya Həsən keçəl, ya da keçəl Həsən". Əsasən, tüstüsü düz çıxsın.

Nə yaxşı ki, tüstü düz çıxır. Yəni kitabda hər şey yerli-yerindədir. Kitabı vərəqlədikcə, vətən və torpaq eşqilə, doğma el-oba sevgisilə yazılmış şeirlər adamı heyran edir. Bu heyranlığa təbiəti tərənnüm edən şeirləri də əlavə etsək, görərik ki, Sahib Əliyevdə olan istedad şeirə-sənətə gündən-günə bir-birindən gözəl hislər gətirir. Həmin hislərdən doğan misralar insana xüsusi zövq verməklə yanaşı, onun içində vətənə, doğma torpağa sevgini daha da artırır, bir növ, onu tərbiyə edir. Götürək elə "Əgər sən insansansa" şeirini:




*Əgər sən insansansa,*
*ürəyin təmiz olmalıdı.*
*İçin həmişə sağlam*
*niyyətlə dolmalıdı.*

*Sənin əlinlə nurlanmalıdı*
*kəndin də, şəhərin də.*
*Atını çapanda*
*düz oturmalısan*
*kəhərin yəhərində.*

*İnsaf da qədərincə*
*olmalıdı səndə,*
*mürvət də.*
*Qeybət qırmamalısan*
*heç bir zaman xəlvətdə.*

*Fikrin açıq deyilməlidi -*
*fərqi yoxdu,*
*ya zildə deyilsin,*
*ya da ki, pəsdə.*
*Məsləhətini*
*dərman bilməlidi özünə*
*yataqda xəstə.*

*Yıxılana dayaq olmalısan -*
*tutmalısan qolundan.*
*Ərkin çatan heç kəsi*
*qoymamalısan*
*çıxsın Allah yolundan.*

Belə şeirləri tənqidçilər, haqlı olaraq, Sahib Əliyevin insanlara keçdiyi dərs kimi də qiymətləndirirlər. Həmin dərs zamanı şair öz istedadı ilə insanlara xidmət edənlərin əməyini də yada salır, onlara daim hörmət etməyi tövsiyə edir. Bu cəhətdən kitabın "Qələmin qüdrəti" bölməsində gedən şeirlər diqqəti daha çox cəlb edir. Elə götürək böyük Nizamiyə həsr olunmuş "De, hardan almışdın sən o, ilhamı" şeirini. Məlumdur ki, Nizami Gəncəvi dünya ədəbiyyatının başında duran ən böyük sənətkarlardan biri - bəlkə də lap birincisidir. Sahibin sözlərinə görə, nə qədər yazıb-yaratsaq da, onun səviyyəsinə çata bilmurik. Şair bunu oxucuya gör necə ustalıqla çatdırır:

*Biz bala sərçəyik şeir düzündə,*
*Yayılıb çöllərə "cük-cük"lərimiz.*
*Nə qədər səs salıb, cükkildəsək də,*
*Oxşada bilmirik səsinə səs biz.*

*Sən uca göylərdə tutmusan qərar,*
*Batırır şimşəyin səsin də səsin.*
*Qartalsan, elə bil, sözün sehrinə*
*Fırlayıb, salmısan bu Yer kürəsin.*

*Söz dönüb əlində şəkərə, bala,*
*Başqacür dad verir damağda indi.*
*Özün bu dünyadan köçüb getsən də,*
*Söz mülkü sənəddə yenə sənindi.*

*Oxuyur yazdığın şeirlərini,*
*Şeirə ürəkdən bağlanır hamı.*
*Bu boyda sənətkar olmaqdan ötrü,*
*De, hardan almışdın sən o ilhamı?*

Həyata, sənətə yüksək əhval-ruhiyyə ilə yanaşma Sahib Əliyevin başqa mövzularda yazdığı şeirlərində də açıq-aydın hiss olunur. Xüsusilə, onun sevgi şeirlərilə tanış olanda, görürsən ki, şairin qəlbində sonsuz məhəbbət hisləri cövlan edir. Bu da, ilk növbədə, onu göstərir ki, şair yaşa dolca da, onun sevgi hisləri qocalmır, elə cavanlıq yaşlarında olduğu kimi qalır. Bu hiss "Məhəbbət cavan qalır" şeirində özünü daha açıq şəkildə büruzə verir:

*Yaş ötür yaş dalınca,*
*gəlib çatır qocalıq.*
*Qaya dağılan kimi,*
*gözdən itir ucalıq*

*Payız gəldi, saralır*
*ağacların yarpağı.*
*Qışın da sərt şaxtası*
*buzlaşdırır torpağı.*

*Ömür qalmır bir yerdə,*
*günlər keçir beləcə.*
*Bir də gördün, toyuqdu*
*dünənki ətcə cücə.*

*Tək məhəbbət dəyişmir,*
*mat qalmışam bu işə.*
*Sevən ürəklərdə o,*
*cavan qalır həmişə.*

Sahibin sevgi şeirlərinin hər biri gözəl bir nəğməni xatırladır. Həmin nəğmələrin musiqisi də üstündədir - kim nə vaxt istəsə oxuya bilər. Buna xüsusilə "Gözlərin göy dənizdi", "Bəs niyə tir-tir əsdim", "Yaxşılıq eyləsin yara gözlərin", "Məndən yaxşısını tapmayacaqsan", "Ürək deyir ki", "Fəxr edirəm sənin kimi yarım var", "Oyananda qaçdı bu qız" və bir sıra başqa şeirləri misal göstərmək olar.

Kitabda sevgi-məhəbbətin tərənnümü ilə yanaşı, oxucuda mənfiliklərə nifrət hissi yaradan şeirlər də vardır. Bu da təəccüblü deyil. Bildiyimiz kimi, həyatda məhəbbət və nifrət qoşa yaşayır. Biz yaxşılıqları sevdiyimiz kimi, mənfilikləri də gərək tənqid edə-edə aradan götürək, beləliklə də dünyanı paklaşdırmağa çalışaq.

Şair oxucuya mənfi adamları tanıtdırmağa çalışır. Xüsusilə, "Barışa bilmirəm belə adamla" şeirində açıq deyir:

*Barışa bilmirəm, bilirsiz, kimlə?*
*And içib, adama yalan satanla.*
*Barışa bilmirəm, bilirsiz, kimlə?*
*Girib aralığa ara qatanla.*

*Mərdliyin zamanı gör necə gedir,*
*Tülkü canavara diş atıb - didir.*
*Barışa bilmirəm - namərdlik edib,*
*"Şöhrətə" çatanla, "şana" çatanla.*

*Adam var, zahirdə mələyə oxşar,*
*Di, gəl ki, içində min cür fəsad var.*
*Gözümə düşməndi belə adamlar -*
*Barışa bilmirəm qında yatanla.*

*O kəs ki, harama, gördüm, hərisdi,*
*O kəs nəzərimdə hər şeydən pisdi.*
*Barışa bilmirəm - kim ki, xəbisdi,*
*Barışa bilmirəm adam satanla.*

*Qeyrətsiz görəndə artır heyrətim,*
*Yaltağın yanında çimçəşir ətim.*
*De, necə barışsın, axı, qeyrətim,*
*Dosduna badalaq durub atanla?*

Düzünü deyin, oxucuya bundan da artıq dərs ola bilərmi?

Bəli, şair burada xoşu gəlməyən cəhətləri sadalamaqla, oxucuya əsl həyat dərsi keçir. Bu dərsi yaxşı anlayanlar, mənasını dərindən başa düşənlər, istər-istəməz, həyatı mənalı yaşamağa meyl göstərəcəklər. Əsl yazıçının və ya əsl şairin istədiyi də elə budur.

**Minəxanım Nuriyeva Təkəli,**
**filologiya elmləri doktoru,**
**professor**

# TƏŞƏKKÜRƏ LAYİQ SÜRÜCÜ



**2023-cü ilin may ayının ortaları idi. Şəkidə bir neçə gün ardıcıl yağışlar yağırdı. Mən bazardan ailəmiz üçün lazım olanları alıb evimizin yaxınlığına gedən 11 nömrəli marşrut avtobusuna mindim. Həmişəki kimi avtobusda məhəllə adamları ilə birlikdə söhbətləşirdik. Kimi şəhərdə baş verən yeniliklər haqqında bildiklərini başqasına danışır, kimi xeyir, kimi də şər hadisə haqqında eşitdiyini ucadan başqalarına deyirdi. Şəriyətə görə məhəllədə, şəhərdə rəhmətə gedən haqqında ən azı 7 adama məlumat vermək savab hesab edilir. Ona görə ki, insanlar dəfn mərasimində bir-birinə öz insanlıq borclarını versinlər, bir-birinə kömək əli uzada bilsinlər. Ona görə də belə məlumat verənlərə hamı təşəkkür edir. Avtobusda arxa yerlərdə oturan cavanlar da telefonlarındakı maraqlı, gülməli görüntüləri bir-birlərinə göstərir və ucadan gülürdülər.**

Bazarın yaxınlığındakı sonuncu dayanacaqda avtobus dayandı. Bir nəfər qara geyimli bir qadın avtobusa mindi. Qabaq yerlərdə oturanların bir neçəsi eyni vaxtda ayağa qalxıb bu qadına hörmət və ehtiramla yer verdilər. Əlindəki zənbilini alıb yanındakı boş yerə qoydular. Bayaqdan deyən-gülən, zarafatlaşan cavanlar da sakitləşdilər. Biz bir neçə dayanacağı keçdik. Avtobusa minənlər də, düşənlər də bu qadınla hörmət və ehtiramla salamlaşır, hal-əhval soruşurdular.

Yağış hələ də yağırdı. Avtobus Şəki Xan Sarayının yaxınlığına çatanda sürücü avtobusu marşrutdan kənar yola döndərdi. Avtobusda oturanlardan heç kim buna etiraz etmədi. Avtobus bir neçə dəqiqə gedib dayandı. Sürücü maşını saxlayıb həmin qadının maşından düşməsinə köməklik etdi. Onun zənbilini də düşürüb özünə verdi. Bu qadından yol pulu da almadı. Sürücü qayıdıb yerində oturdu və maşını işə salıb döndərdi öz marşrutu istiqamətinə.

**Bu qadın bizdən bir məhəllə aşağıda yaşayan şəhid anası idi. Avtobusda oturanların hamısı sürücü Rahib Əliyevə təşəkkür etdilər və dedilər, ananın südü, atanın çörəyi və zəhmətlə qazandığın sənə halal olsun, Allah səni xata-bəladan qorusun. Kaş sürücülərin hamısı belə nəzakətli, diqqətli və ədəbli olaydı.**

**Çingiz Nağıyev,**
**Şəki**

# Bakcell Zəngilanın Ağalı kəndində mağaza açdı

**19 may 2023-cü il tarixində Zəngilan rayonunun Ağalı kəndində yeni "Bakcell" mağazası fəaliyyətə başlayıb.**

Adalet.az xəbər verir ki, yeni "Bakcell" mağazasında Ağalı sakinlərinə şirkətin məhsul və xidmətlərinin geniş çeşidi, həmçinin mobil nömrələr və aksesuarlar təklif edilir. Mağazanın açılışında "Bakcell" şirkəti və yerli qurumların nümayəndələri ilə yanaşı Ağalı kəndinin sakinləri də iştirak edib. Açılış mərasimi xüsusi olaraq uşaqlar üçün hazırlanmış əyləncə proqramı ilə yadda qalıb. Ağıllı kəndin gənc sakinləri üçün xoş sürpriz kimi tədbirdə müxtəlif oyunlar və şən yarışlar keçirilib, uşaqlara maraqlı hədiyyələr təqdim edilib. "NEQSOL Holding"in tərkibinə daxil olan "Bakcell" şirkəti hazırda "Bakcell" ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.

”XƏZƏR-AUDİT 2020”
Məhdud Məsuliyyətli Cəmiyyəti
VÖEN: 1703554881
İcazə: № AT/267, 10.04.2023.
Bakı şəhəri, Yasamal rayonu. Ş.Mehdiyev küçəsi, 271
Telefon: İş; (012) 5331960; mobil; (050;055) 3130599

№oeU8GhShf3 ”14” aprel 2023-cü il

## MÜSTƏQİL AUDİTOR HESABATI

### Rəy

Mən ”Dostlar MM Kredit İttifaqı” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 7500296931) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətinin hesabatdan, məcmu gəlirlər hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları İttifaqın 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın ”Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq İttifaqdan asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik İttifaqı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ittifaqın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər İttifaqın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**”XƏZƏR-AUDİT 2020”**
**MMC-nin direktor-auditoru: A.M. Musayev**

## "Dostlar MM Kredit İttifaqı" MMC
## 31 DEKABR 2022-ci il tarixə MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR
**(Məbləğlər Azərbaycan Manatı və ABŞ dolları ilə ifadə edilir 1 ABŞ dolları = 1,7000**

| AKTİVLƏR | ASSETS | Manatla |
|---|---|---|
| **1. Banklar və digər Maliyyə İnstitutları ilə nəğd pul və balanslar** | **1. Cash and balances with banks and other FIs** | **1046.0** |
| 1.1 – Nəğd Pul | 1.1 – Cash | 325.0 |
| 1.2 – Banklar və digər Maliyyə İnstitutları ilə hesablar | 1.2 – Accounts with Banks and other FIs | 721.0 |
| | | |
| **2. Qiymətli kağızlar və uzun müddətli alacaqlar** | **2. Investments and Long –term receivable** | |
| **3. Üzvlərə Kreditlər (3.1+3. 2-3.3)** | **3. Loans to Members (3.1+3.2 -3.3)** | **152666.0** |
| | | |
| 3.1 – Cəmi qalıq kreditlər – qısa müddətli | 3.1 – Total loans outstanding – short term | 152666.0 |
| 3.2 - Cəmi qalıq kreditlər – uzun müddətli | 3.2 - Total loans outstanding – long term | |
| 3.3 – Çıx : Mümkün itkilər üçün Rezerv ( -) | 3.3 – Less : Reserves for possible losses ( -) | |
| **4. Alınacaq faiz və haqqlar – xalis** | **4. Interest and fees receivable – net** | **4121.0** |
| 4.1 – Alınacaq faiz və haqqlar – qısa müddətli | 4.1 – Interest and fees receivable– short term | 4121.0 |
| 4.2 - Alınacaq faiz və haqqlar– uzun müddətli | 4.2 - Interest and fees receivable– long term | |
| **5. Mebel və Avadanlıq** | **5. Furniture and Equipment** | |
| 5.1 Mebel və Avadanlıq | 5.1 Furniture and Equipment | |
| 5.2 Kompüterlər və rabitə avadanlıq. | 5.2 Furniture and Equipment | |
| **6. Yığılmış Amortizasiya - Mebel və Avadanlıq ( -)** | **6. Accumulated Depreciation - Furniture and Equipment ( -)** | |
| 6.1 Mebel və avadanlıq üzrə yığılmış köhnəlmə | 6.1 Accumulated Depreciation - Furniture and Equipment ( -) | |
| 6.2 Kompüterlər və rabitə avadanlıqları üzrə yığılmış köhnəlmə | 6.2 Accumulated Depreciation - Furniture and Equipment ( -) | |
| **7. Digər Alacaqlar** | **7. Other Receivables** | |
| **8. Qabaqcadan ödənilmiş xərclər** | **8. Prepaid Expenses** | |
| | | |
| **9. Digər aktivlər** | **9. Other assets** | |
| **CƏMİ AKTİVLƏR** | **TOTAL ASSET** | **157833.0** |
| | | |
| **PASSİVLƏR VƏ KAPİTAL** | **LIABILITIES AND EQUITY** | |
| **10. Üzvlərdən Depozit** | **10. Members Deposits** | |
| **11. Xarici kreditlər /borcalınan** | **11. External credits / borrowings** | 0 |
| 11.1 SKMF | 11.1 SKMF | |
| 11.2 Banklar | 11.2 Bank – loans | |
| 11.3 Digər | 11.3 Other borrowings | 0 |
| **12. Ödəniləcək faizlər** | **12. Interest payable** | |
| **13. Kreditor hesabları (ödəniləcək)** | **13. Accounts payable** | |
| 13.1 Ödəniləcək Məvacib | 13.1 Wages Payable | |
| **14. Hesablanmış xərclər və kompensasiya** | **14. Accrued expenses and provisions** | |
| **15. Dövlət büdcəsi və digər təşkilatlarla hesablaşmalar** | **15. Taxes payable** | |
| 15.1 Dövlət büdcəsinə ödəniləcək vəsaitlər | 15.1 State budget | |
| 15.2 Yerli büdcələrə ödəniləcək vəsaitlər | 15.2 Local budget | |
| 15.3 Vergilər nazirliyinə ödəniləcək vəsaitlər | 15.3 Ministry of tax | |
| 15.4 Dövlət fondlarına və digər fondlara ödəniləcək vəsaitlər | 15.4 State and other funds | |
| **16. Digər passiv hesablar** | **16. Other liability accounts** | |
| | | |
| **CƏMİ PASSİVLƏR** | **TOTAL LIABILITIES** | |
| | | |
| **17. Kapital Hesabları** | **17. Equity Accounts** | |
| 17.1 – Üzvlərin payı | 17.1 – Members' share | 90136.0 |
| 17.2 – Ehtiyatlar (keçən ilə) | 17.2 – Reserves (previous year) | 63422.0 |
| 17.3 – Qrant | 17.3 – Donated Capital | |
| 17.4 – Avadanlıq | 17.4 – Equipment | |
| 17.5 – Cari ilə xalis gəlir | 17.5 – Net income (loss) for the current year | 4275.0 |
| 17.6 – Əvvəlki illərin təsdiq olunmamış mənfəət və zərəri | | |
| **CƏMİ KAPİTAL** | **TOTAL EQUITY** | **157833.0** |
| | | |
| **CƏMİ PASSİVLƏR VƏ KAPİTAL** | **TOTAL LIABILITIES AND EQUITY** | **157833.0** |
| **AKTIF-PASIF** | **0,00** | |

## *“Şans var”da maraqlı anlar yaşanıb*



**Aktrisa Sonaxanım Əliyeva Space.Tv-də yayımlanan ”Şans var” verilişində qonaq olub.**

Adalet.az xəbər verir ki, aktrisa yaradıcılığından danışarkən efirdə digər kanalın adını çəkmək istəməyib. Verilişin aparıcısı Ülvi Həsənli isə aktrisaya etiraz edib:

”Sona xanım, qonşu kanal nəyə deyirsiniz? Ümumiyuətlə, qonşu kanal nə deməkdir? Rahatca kanalın adını deyin.”

Aparıcının sözlərindən sonra aktrisa kanalın adını çəkib:

” Yəni deyirəm ki, ARB kanalında seriala çəkilirəm. Hazırda serial efirdə yayımlanır”

## *Toy sahibi: “Sən müğənni deyilsən”*

**Manaf Ağayev yenə gündəm olub.**

Adalet.az xəbər verir ki, məclislərin birində toy sahibi müğənni Manaf Ağayevə gözlənilməz söz deyib:

”Manaf sən əsl kişisən. Sən müğənni deyilsən. Səndə kişilik xüsusiyyəti var”.

## *Müğənninin 3 yaşlı oğlu ona irad tutur*

**Müğənni Şəbnəm Qəhrəmanova maraqlı açıqlaması ilə gündəm olub.**

Adalet.az xəbər verir ki, ”Xəzər axşamı” verilişində qonaq olan müğənni oğlunun kaprizlərindən danışıb. O bildirib ki, 3 yaşlı oğlu ona qadağalar qoyur.

”Oğlumun üç yaşı var. Mənə deyir ki, sən oxuma, mən işləyib sənə baxaram. Açıq-saçıq geyinəndə deyir ki, bu nədir geyinmisən?! Müğənni olmağımı istəmir”

## *Hikmət Aslanov: “Özünü çox pis aparırsan”*



**Bəstəkar-müğənni Hikmət Aslanovun alovlu fikirləri gündəmə səs salıb.**

Adalet.az xəbər verir ki, Hikmət Aslanov ”7 canlı” verilişində qonaq olub. Aslanov onun bəstələrini icazəsiz oxuyanlara irad tutub. Bu dəfə Hikmət Aslanovun tənqidinə gənc müğənni Seymur Məmmədov tuş gəlib.

Beləki Seymur Məmmədov Hikmət Aslanovun məşhur bəstəsi olan ” Nə yazıq bəndəyəm” adlı mahnısını canlı yayımda və toy məclislərində icazəsiz ifa edib. Bu addımına görə Seymur Hikmətdən üzr istəyib.

**Əntiqə**

## *Türkiyənin qədim və dayanıqlı kulinariya mədəniyyəti dünya miqyasında qeyd olunur*

### TÜRK MƏTBƏXİ HƏFTƏSİ BAŞLADI



**Bərəkətli coğrafiyası və zəngin məzmunu ilə, onlarla fərqli inkişaf imkanını yaradıb bir araya gətirənhərtərəfli Türk mətbəxi həftəsi 21-27 may tarixlərində baş tutacaqdır. Bu il ikinci dəfə keçiriləcək olan Türk mətbəxi həftəsində UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsi tərəfindən ”Dünyanın 26-cı Qastronomiya Şəhəri” seçilən Hatayın yerli mətbəxinə və türk mətbəxinin israfçılığa yol verməməsinə xüsusi diqqət yetiriləcək.**

Türk mətbəxi həftəsi Türkiyə RespublikasınınMədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilir. Türkiyənin dünya üzrə diplomatik nümayəndəlikləri Hatay mətbəxinin bənzərsiz dadını təbliğ etmək üçün müxtəlif tədbirlər və sosial media kampaniyaları təşkil edir.

Türk mətbəxi həftəsində iştirakçılar yerli məhsullar və ənənəvi yemək hazırlama üsulları ilə Hatayın yerli yeməklərini hazırlayacaq və qədim dayanıqlı türk mətbəxi haqqında daha çox məlumat əldə edəcəklər. Eyni zamanda, türk mətbəxinin zəngin biomüxtəlifliyi, eləcə də müxtəlif qidalanma, yemə və içmə prinsiplərinə cavab vermək istəyi və potensialı haqqında məlumat əldə etmək imkanları olacaq. İştirakçılar dayanıqlı və tullantısız yanaşma əsasında türk mətbəxinin bişirmə metodologiyası ilə praktiki təcrübə əldə edəcəklər. Sağlam və dayanıqlı türk reseptləri, birlik, bərabərlik və mədəni sabitlik çərçivəsində qurulan ”Türk yemək” ritualları, iştirakçıları bir araya gətirir. Tədbir zamanı qonaqlara türk qəhvəsi, türk çayı, delikateslər və digər ləzzətlərtəqdim olunacaq. Bu ilki Türk Mətbəxləri Həftəsinin dünya miqyasında keçiriləcək tədbirlərində Hatay mətbəxinin ləzzətləri üçün xüsusi menyu təqdim olunacaq. Qastronomiya sahəsində UNESCO-nun Yaradıcı Şəhərlər şəbəkəsinə daxil olan Hatay, Türkiyənin özünəməxsus mətbəxi ilə diqqət çəkən şəhərlərindən biridir. Hatay mətbəxi Aralıq dənizi iqliminin münbit torpaqlarında yetişdirilən keyfiyyətli zeytun yağını dənli bitkilər, paxlalılar, tərəvəzlər, meyvələr, yerli otlar və ədviyyatlarla birləşdirərək möcüzələr yaradır. Tarix boyu fərqli sivilizasiyalara ev sahibliyi edən şəhər kulinariya irsi, məşhur səhər yeməyi və yüzlərlə çeşidi ilə diqqət çəkir. Türk mətbəxi həftəsində hazırlanan Hatay yeməklərinin siyahısına ”bibərliçörək”, ”zeytun salatı”, ”hummus”, ”kısır” (bulqur salatı), ”tepsi kabab” (sobada bişmiş kabab), ”künefe” (pendir deserti) daxildir.

## *Azər Aydəmir: “Teatra mütəmadi gedən deyiləm, təəssüf”*



**”Kod adı V.X.A.” nı bir daha posterlərdə görsəniz, düşünmədən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı na gedin. Çünki bu bizim tariximizdir.**

Adalet.az xəbər verir ki, bu fikirləri tanınmış aktyor Azər Aydəmir söyləyib.

”Deyirlər teatr tamaşalarına ta qədim zamanlardan gedənlər şouya, miqyasa baxmağa gedərdilər. Sonra klassika yarandı. ”Olum ya ölüm” və o qəbildən ifadələr yüzilliklərlə səhnələrdən e?idilirdi. Amma subyektiv fikir olaraq bildirim ki, həyəcan, qəhrəmanlara təəsüb, personajla empatiya qurmaq çətinləşirdi. Tamaşalar daha çox ”kvota” doldurmaq üçün mövcud idi. Müasir mono və kamera tamaşalar da kifayət qədər maraqlı görsənir, amma görsənir, bu qədər. Onlardan da liberalizm, aşırı demokratik sous əlavə olunmuş yeməklərin dadı gəlirdi. Qeyd edim ki çox tamaşa görməmişəm. Teatra da mütəmadi gedən adam deyiləm. Təəsüf. Amma bu gün Mehriban Ələkbərzadənin ”Kod adı V.X.A” tamaşına baxdım. Sanki müəllif qladiator döyüşlərindən bu yana ”Lödi trebuöt zrelihe, lödi trebuöt krovi” çağırışını eşidib və teatr səhnəsində çoxdan gözlənilən Şounu yaratdı. Nəfəs kəsən, ağladan, həyəcanlandıran, tempi salan, anidən qaldıran, izdihamlı emosiyalar bayramı yaşatdı. Bu münasibətlə başda Mehriban xanım olmaqla, bütün biri-birindən istedadlı dostlarımı (aktyorları, aktrisaları), texniki heyyəti ürəkdən təbrik edirəm. Bu mövsüm təəssüf ki son seans idi. Amma ”Kod adı V.X.A.” nı bir daha posterlərdə görsəniz, düşünmədən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı na gedin. Çünki bu bizim tariximizdir”.

## *Rejissor Nicat Kazımov: “27 illik rejissorluq fəaliyyətimdə...”*



**”Bu tamaşa 44 günlük Vətən savaşımızın iştirakçılarına borcumuzdur”.**

Adalet.az xəbər verir ki, rejissor Nicat Kazımov yeni tamaşası barədə danışıb. ”27 illik rejissorluq fəaliyyətimdə 50 yə yaxın tamaşaya, onlarla böyük, dövlət əhəmiyyətli tədbirlərə quruluş vermişəm. Lakin ”Balaca kişilər” adlı yeni tamaşamın çətinliyi və məsuliyyəti bir başqadır. Çox həyəcanlıyam. Bu tamaşa bizim 44 günlük Vətən savaşımızın iştirakçıları qarşısında borcumuzdu. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların doğmalarına səbr versin. Qazilərimizə, veteranlarımıza can sağlığı versin. Dünya durduqca Azərbaycan var olsun! 27 və 28 may tarixlərində, saat 19:00-da, Gənc tamaşaçılar teatrında dostum, qardaşım İlqar Fəhminin müəllifi olduğu bu tamaşada yolunuzu gözləyəcəyik”.

**Emin**

İsayev Bədəl Polad oğluna məxsus LEXUS LX 470 (90 TB 470) markalı maşının qeydiyyat Şəhadətnaməsi (maşının texpasportu) itdiyi üçün etibarsız sayılır.

Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə **Zaur Əliyevə** atası
**Zakir müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu dostu, professor **Məhərrəm Qasımlıya** əzizi
**Şaiq Həbibovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tofiq Mustafazadə, Loğman Rəşidzadə və Məzahir Əhmədoğlu
**Rövşən Pənahova**
qardaşı Aftandilin vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**
Baş redaktor: **İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 131**
Çapa imzalanmışdır: 25.05.2023